Xalqın qəzeti!

# Xalq qəzeti

№ 197 (30313) 13 sentyabr 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**Biz təhsilə böyük diqqət yetiririk və fəxr edirik ki, Azərbaycanda savadlılıq 100 faizə bərabərdir. Təhsil gələcəyin, inkişafın yoludur. Təhsil bilikdir, təhsil gələcəkdir, bizim üçün təhsil müasirləşmə deməkdir.**

# Təhsil tərəqqiyə açılan qapıdır

## Prezident İlham Əliyev Xırdalan şəhər 11 nömrəli tam orta məktəbin yeni binasının açılışında iştirak edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də 2 min şagird yerlik Xırdalan şəhər 11 nömrəli tam orta məktəbin yeni binasının açılışında iştirak edib.**

Elm və təhsil naziri Emin Əmrullayev və Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdilər.

Qeyd edək ki, bu məktəbin layihəsi Xırdalan şəhərinin ərazisindəki təhsil ocaqlarında şagird sıxlığı nəzərə alınaraq dövlətimizin başçısının tapşırıqlarına əsasən hazırlanıb və uğurla icra olunub.

Məktəb binasının tikintisinə 2021-ci ilin fevral ayında başlanıb və bu ilin sentyabr ayında başa çatdırılıb. Ən müasir avadanlıqla təchiz olunan funksional bina tədrisin yüksək keyfiyyətlə təşkili üçün hər cür şəraitə malikdir. Yeni məktəbdə 74 sinif, 6 informatika otağı, məktəbəqədər 2 hazırlıq otağı, 8 otaqdan ibarət STEAM Mərkəzi, 2 idman zalı, 2 əmək otağı, hərbi hazırlıq, xarici dil, musiqi, rəsm, tibb otaqları, fizika və biologiya kabinetləri, kimya laboratoriyası, kitabxana, yeməkxana və 400 nəfərlik akt zalı yaradılıb.

(ardı 2-ci səhifədə)



# Macarıstanla əlaqələrimiz Avrasiya üçün də önəmlidir

**İqtisadiyyat naziri Mikayıl Cabbarov sentyabrın 11-də “Facebook” hesabında Macarıstana səfəri çərçivəsində bu ölkənin Baş naziri Viktor Orbanın qəbulunda olduğunu, görüş zamanı iki ölkə arasında münasibətlərin inkişaf dinamikasına, əməkdaşlıq perspektivlərinə toxunulduğunu qeyd edib. O, həmçinin Macarıstanla birgə layihələr üzrə tərəfdaşlığın səmərəli nəticələri barədə müzakirələr aparıldığını bildirib.**

M.Cabbarov dost ölkədə səfərdə olarkən keçirilən görüşlərdə Azərbaycan–Macarıstan əlaqələrinin gücləndirilməsi üçün böyük imkanların mövcudluğu vurğulanıb və energetika, sənaye, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, ticarət, təhsil və s. sahələrdə əlaqələrin gücləndirilməsi üçün əlverişli şərait yaradıldığı, eyni zamanda, bu potensialın reallaşdırılması üçün zəruri tədbirlər görüldüyü diqqətə çatdırılıb. Görüşdə Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizləri, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Ələt Azad İqtisadi Zonasının imkanları barədə də ətraflı məlumat verilib, Macarıstan şirkətləri ölkəmizin əlverişli biznes mühitindən, tranzit potensialından yararlanmağa dəvət edilib.

(ardı 7-ci səhifədə)

# Nikol Paşinyan ölkəsini “dəmir yumruğ”un altına aparır

**Ermənistan baş naziri Nikol Paşinyanın ölkənin ictimai televiziyasına müsahibəsi bir neçə cəhətdən maraqlıdır. Şübhəsiz, onun vurğuladıqları, əsasən Azərbaycan–Ermənistan, Ermənistan–Rusiya münasibətləri ilə bağlıdır. Ümumən onu deyək ki, N.Paşinyan əvvəlki “ampluasına” sadiqdir və qətiyyən səmimi deyil. O, heç bir halda Azərbaycanla sülhü arzulamır.**



Baş nazir anti-Azərbaycan ritorikasını, necə deyərlər, göz bəbəyi kimi qoruyur. Onun söylədikləri, Qarabağ avantürasının davamlılığından xəbər verməklə yanaşı, Ermənistan rəhbərliyinin arsenalında bu avantüra naminə çoxşaxəli gedişlərin mövcudluğunun bariz göstəricisidir. Həqiqətən, Nikolun həyasızlığı sərhəd tanımır. Yazımızda bütün bunlardan söz açacağıq.

(ardı 3-cü səhifədə)

# Azərbaycanda “yaşıl” avtomobillər çoxalır

**Son illər dünyanın avtomobil bazarında elektriklə işləyən avtomobillərə tələbatın getdikcə artması müşahidə olunur. Artıq dünyanın nəhəng avtomobil istehsalçıları ənənəvi yanacaqla işləyən nəqliyyat vasitələrinin ekologiyaya vurduğu zərəri azaltmaq məqsədilə hibrid avtomobillərlə yanaşı, elektromobillərin də istehsalını ildən-ilə genişləndirirlər.**



Beynəlxalq Enerji Agentliyi (İEA) analitiklərinin hesablamalarına görə, ötən il yeni elektrik avtomobillərinin bazarda payı 4 faiz, 2021-ci ildə 9 faiz, 2022-ci ildə 14 faiz təşkil etdiyi halda, cari ildə bu rəqəm 18 faizə yüksələcək. Bütövlükdə isə, 2022-ci ildə dünyada 10 milyondan çox elektrik avtomobili satılıb. İEA analitiklərinin aprel ayında verdikləri proqnoza görə, cari il dünyada satılan hər beşinci avtomobil elektrikli (o cümlədən, hibrid) olacaq.

(ardı 7-ci səhifədə)

# Yeni nəqliyyat dəhlizi: Hindistandan Avropaya...

**“Böyük iyirmiliy”in (G20) 9-10 sentyabrda Yeni Dehlidə keçirilən sammiti çərçivəsində Hindistan da daxil olmaqla Cənubi Asiyanı Yaxın Şərq üzərindən Avropa ilə birləşdirən yeni nəqliyyat dəhlizi ilə bağlı memorandum imzalanıb. Dərhal qeyd edək ki, bu, miqyasına görə olduqca möhtəşəm bir layihədir.**

Analitiklər vurğulayırlar ki, layihənin əsas məqsədi Yaxın Şərq ölkələrini dəmir yolu və limanlar vasitəsilə birləşdirərək, onlarla Hindistan arasında əlaqə yaratmaq, bununla da xərcləri və yanacaqdan istifadəni azaltmaqla İran körfəzindən Avropaya enerji və ticarət axınına yardım etməkdir.




(ardı 11-ci səhifədə)

# Ekran gerçək qəhrəmanlığın bədii əksini gözləyir

Səhifə ⇨ 10



# Təhsildə əsas hədəf XXI əsrin nəslini yetişdirməkdir

**Adətən yeni dərs ili ərəfəsində təhsil ictimaiyyəti nümayəndələri ənənəvi sentyabr konfranslarına toplaşır, ötən tədris ilinə bir daha nəzər salır, uğurları, həllini gözləyən məsələləri təhlil edir, perspektivləri və hədəfləri dəqiqləşdirirlər.**

Bu, inkişafın davamlılığı, problemlərin açıq müzakirəsi, gələcək fəaliyyətin konseptual cəhətdən müəyyənləşdirilməsi baxımından əhəmiyyətlidir.

(ardı 9-cu səhifədə)

# Qərbi Azərbaycan faciələrinin xronologiyası



**(əvvəli XQ-nin ötən saylarında)**

**Qərbi Azərbaycanda soydaşlarımızın qədimdən-qədim məskunluğu, bu əzəli türk yurdunun düşmən dairələrin qəsdləri ilə zaman-zaman erməniləşdirilməsi və XX əsrin əvvəllərində burada Ermənistan adlı oyuncaq dövlət yaradılması barədə silsilə tədqiqatların müəllifi, AMEA Tarix İnstitutunun baş direktotu, professor Kərim Şükürov bu başıbəlalı torpağı Rusiyanın işğal etməsi ilə başlayan faciələrinin ayrıca xronologiyasını da tərtib etmişdir. Həmin materialın sonuncu hissəsini oxucularımıza təqdim edirik.**

*(ardı 8-ci səhifədə)*

# Prezident İlham Əliyev Xırdalan şəhər 11 nömrəli tam orta məktəbin yeni binasının açılışında iştirak edib



**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyev yeni təhsil ocağının məktəbəqədər hazırlıq, ibtidai sinif otaqlarında, biologiya kabinetində, çağırışaqədər hərbi hazırlıq otağında, STEAM Mərkəzində, fizika kabinetində, kimya laboratoriyasında, informatika otağında, idman zalında və yeməkxanada yaradılan şəraitlə tanış oldu.

STEAM layihəsi birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə 2019–2020-ci tədris ilinin əvvəlindən məktəblərimizdə tətbiq edilir. STEAM təhsili praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə aşılamaqla yanaşı, onlara mühəndislik səriştələri öyrədir.

Bu məktəbin STEAM Mərkəzi də elektron lövhələr, kompüterlər, 3D printerlər, müvafiq öyrədici qurğular, elektron komponentlər və dəftərxana ləvazimatları ilə təmin olunub. Burada, həmçinin mühəndis emalatxanası, kiçik yaşlı uşaqlar üçün zona, təlim və robototexnika otaqları var.



Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər ölkələrin inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan da bu ölkələr sırasındadır. Son illərdə ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca hədəf seçib.



Xırdalan şəhəri 11 saylı tam orta məktəbin ən müasir standartlara cavab verən binasının inşası da bir daha təsdiqləyir ki, ölkəmizdə təhsil islahatları Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində uğurla davam edir.

***AZƏRTAC***

# T.M.Ağababayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan rəssamlıq sənətinin inkişafında xidmətlərinə görə Tofiq Məmmədəli oğlu Ağababayev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 sentyabr 2023-cü il**

# İqtisadi Şuranın növbəti iclası

**Sentyabrın 12-də İqtisadi Şuranın növbəti iclası keçirilib.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən XQ-yə bildiriblər ki, Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Azərbaycan Respublikası Prezidentinin 2024-cü il və ortamüddətli dövr üçün müəyyən etdiyi prioritetlərin və hədəflərin əsasında hazırlanan 2024-cü və sonrakı üç il üzrə icmal və dövlət büdcələrinin proqnoz göstəriciləri, büdcə proqnozlarında istifadə olunan əsas fərziyyələr, büdcə qaydasının parametrləri üzrə hədəf göstəriciləri, 2024-2027-ci illərdə büdcə siyasəti, milli xərc prioritetləri, Böyük Qayıdış Proqramının maliyyələşdirilməsi, Ortamüddətli Xərclər Çərçivəsinin parametrləri, ortamüddətli dövr üçün sosial-iqtisadi inkişaf proqnozları və digər cari məsələlər ətraflı müzakirə olunub.

İclasda iqtisadiyyat naziri Mikayıl Cabbarovun, maliyyə naziri Samir Şərifovun və əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin məruzələri dinlənilib.

İclasın yekununda 2024-cü ilin büdcə zərfinə daxil olan bütün sənəd və məlumatların Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunması ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Milli Məclisin Sədri Bolqarıstanda

**Bolqarıstanda rəsmi səfərdə olan Sahibə Qafarovanın rəhbərliyi ilə parlament nümayəndə heyəti Sofiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi ilə tanış olub. Ona mərkəzin fəaliyyəti haqqında geniş məlumat verilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin Sədri, mərkəzə Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Milli Məclis tərəfindən nəşr olunmuş kitabları hədiyyə edib.



O, mərkəz əməkdaşlarına və tədbir iştirakçılarına ulu öndərin Azərbaycan xalqı və dövlətçiliyi qarşısında misilsiz xidmətləri haqqında geniş məlumat verib. Həmçinin mərkəzə "Qarabağ işğaldan əvvəl və sonra" adlı kitabı təqdim edərək, Ermənistanın 30 illik işğalı zamanı ərazilərimizdə, şəhər və rayonlarımızda törətdiyi dağıntılar, vəhşiliklər barədə məlumat verib.

Sahibə xanım daha sonra Azərbaycan dilini öyrənən bolqar tələbələrlə görüşüb və xatirə kitabını imzalayıb.

***

Həmin gün S. Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Sofiya şəhərində yerləşən Bakı küçəsinə gəlib və ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ağacəkmə aksiyasında iştirak edib.

***Ə.BƏDƏLOV***
***XQ***

# Hikmət Hacıyev: "1991-ci ildən bu günə 3 min 385 azərbaycanlı mina qurbanı olub"

**"1991-ci ildən bu günə kimi 3 385 azərbaycanlı Ermənistanın basdırdığı minaların qurbanı olub. Bunlar Ermənistanın Azərbaycana qarşı sistemli və məqsədyönlü şəkildə mina terroru siyasətinin dəhşətli rəqəmləridir".**

XQ xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında paylaşımında yazıb.

"Ermənistan və qeyri-qanuni marionet xunta rejimi Ermənistanda istehsal olunan minaları "boz zona"nın bütün perimetrləri boyunca yerləşdirməyə davam edir", – o qeyd edib.

***XQ***

# Türkiyənin Baş prokuroru Azərbaycanda



**Bakıda keçiriləcək İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının 4-cü iclasında iştirak etmək üçün Türkiyənin Baş prokuroru Bəkir Şahin ölkəmizə rəsmi səfərə gəlib.**

Bu gün Baş prokuror Kamran Əliyev türkiyəli həmkarı ilə görüşüb. O, ölkəmizdə həyata keçirilən hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində aparılan köklü islahatlar barədə danışıb.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Bəkir Şahin təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirib.

Görüşdə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə, habelə beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyi ətrafında müzakirələr aparılıb.

***XQ***

# Nikol Paşinyan ölkəsini “dəmir yumruğ”un altına aparır

## Ermənistan baş naziri siyasi oyunbazlığına yeni “çalarlar” qatıb

(əvvəli 1-ci səhifədə)

### Lavrova cavab, yaxud Qarabağ avantürasında fərqli metod

Əvvəlcə Paşinyanın Rusiya Xarici İşlər naziri Sergey Lavrovun bir neçə gün əvvəl dediklərinə münasibətinə diqqət yetirək. Lavrov bildirmişdi ki, Ermənistan hakimiyyəti 2022-ci ilin oktyabrında keçirilmiş Praqa sammiti zamanı (Azərbaycan və Ermənistan liderlərinin Avropa İttifaqı Şurası prezidentinin vasitəçiliyi ilə reallaşmış görüşü nəzərdə tutulur – red.) 1991-ci ilin Alma-Ata Bəyannaməsinə istinad edərək, Azərbaycanın ərazi bütövlüyünü tanıdı. Bu isə Rusiya XİN rəhbərinin fikrincə, Qarabağa status verilməsi ilə bağlı mövzunun üstündən xətt çəkdi.

Qeyd edək ki, Lavrov bu fikri Ermənistan cəmiyyətində populyar olan “Rusiya 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla Qarabağı Ermənistana verdi” iddiasına cavab kontekstində işlətmişdi. Onun söylədiklərindən belə nəticə hasil olmuşdu ki, əgər İrəvan Alma-Ata Bəyannaməsinə əsasən, ölkəmizin ərazi bütövlüyünü tanıdığını bildirməsəydi, vəziyyət başqa cür olardı. Vurğuladığımız kimi, Qarabağa status məsələsi gerçəkləşərdi. Lavrovun fikrincə, məhz mövcud səbəbdən indi yaşananlara görə bütün məsuliyyəti Ermənistan iqtidarı daşıyır və İrəvanın hakim siyasi dairələrinin Moskvanı nədəsə günahlandırması düzgün deyil.

Paşinyan isə bildirib ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli razılaşma, heç bir şəkildə, 1991-ci ilin Alma-Ata Bəyannaməsini ləğv edə bilməz. Onun sözlərinə görə, Ermənistan parlamenti bəyannaməni 1992-ci ilin fevralında ratifikasiya edib. Yəni, sənədi Ermənistanda və ya Qarabağda vəziyyəti pisləşdirən hansısa yeni amil və ya hal kimi göstərmək cəhdi doğru deyil. Çünki o, eyni zamanda, Ermənistan qanunvericiliyinin ayrılmaz hissəsidir: “Biz qanunvericiliyə istinad etdik və bunu qeyri-adi bir şey hesab etmək ən azı düzgün deyil. Üstəlik, onu da demək istəyirəm ki, mayın 14-də qarşılıqlı əsasda ərazi bütövlüyünün tanınması haqqında saziş (Azərbaycan və Ermənistan liderlərinin 14 may 2023-cü il tarixdə Aİ Şurasının prezidentinin vasitəçiliyi ilə keçirilmiş görüşdən sonra əldə edilmiş razılıq nəzərdə tutulur – red.) 1991-ci ildə Alma-Ata Bəyannaməsi imzalanan zaman Ermənistanın həyata keçirdiyi siyasətlə heç bir şəkildə ziddiyyət təşkil etmir”.

Burada N.Paşinyanın 1991-ci ilə qayıdaraq söylədiyi bəzi fikirlər var ki, onları iki cəhətdən dəyərləndirmək olar. Birincisi, əlbəttə, Rusiyaya cavab amili aktualdır. Özü də yalnız cavab yox, eyni zamanda, ittiham. İkincisi isə Nikol da, əslində Alma-Ata Bəyannaməsini fərqli interpretasiya etməyə cəhdi göstərir ki, bu da yolverilməzdir. Çünki həmin cəhd Azərbaycanın daxili işinə qarışmaqdır. Məsələyə izah verək.

Deməli, Nikol Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın Alma-Ata Bəyannaməsi imzalandıqdan sonra bildirdiyi fikirlərə diqqət yönəldib. Paşinyan deyib ki, birinci prezident Dağlıq Qarabağ üçün Rusiya muxtariyyətləri modeli kimi muxtariyyət istəyib. Əlbəttə, L.Ter-Petrosyanın nə dediyi o qədər də önəmli deyil. Çünki o, sonradan Qarabağ uğrunda mübarizənin səmərəsizliyini, beynəlxalq aləmin buna qarşı olduğunu etiraf etmiş adamdır. Paşinyan isə onun etirafdan çox əvvəlki sözlərinə istinad etməklə, yəni, Ermənistanın Qarabağda muxtariyyət düşüncəsini diriltməklə, faktiki olaraq, elə həmin Alma-Ata Bəyannaməsinə zidd mövqe tutur. Bir halda ki, sənədə imza atmaq Azərbaycanın ərazi bütövlüyünü tanımaqdır, o zaman, deməli, Qarabağa muxtariyyət tələbi yolverilməzdir. Azərbaycan Dağlıq Qarabağın muxatiyyərini ləğv edibsə, buna ancaq hörmətlə yanaşılması lazım idi. Ancaq nə o zamankı, nə də hazırkı Ermənistan iqtidarı bunu etmir.

Ən əsası isə Nikol deyir ki, Praqa və Brüssel razılaşmaları 1991-ci ildə Alma-Ata Bəyannaməsi imzalanan zaman Ermənistanın həyata keçirdiyi siyasətlə heç bir şəkildə ziddiyyət təşkil etmir. Sual olunur: həmin vaxt Ermənistan hansı siyasəti həyata keçirirdi? Cavab birmənalıdır – Azərbaycana qarşı ərazi iddiası irəli sürürdü. Deməli, Praqa və Brüsseldə ölkəmizin ərazi bütövlüyünü tanımaq heç nədir?

Nikolun Rusiya muxtariyyətləri modeli ilə bağlı dediklərinə gəlincə, yanlış da olsa, o, bu istiqamətdə paralel apara bilər. Ancaq müqayisəsi Moskvanın xoşuna gələcəkmi? Axı, Rusiyanın federativ quruluşu, yəni çoxsaylı muxtar vahidləri parçalanma üçün münbit zəmin verən platforma təəssüratı yaradır. İndi Paşinyan nə demək istəyir? Demək istəyir ki, Rusiyanın müxtəlif xalqlardan bir parça qoparması ilə Ermənistanın Azərbaycandan torpaq istəməsi eyni məsələdir? Bir daha bildirək ki, L.Ter-Petrosyan o zaman dediklərinə görə, faktiki olaraq, peşmançılıq keçirib. O, Qarabağ avantürasını davam etdirməyin mümkünsüzlüyünü görüb istefa vermiş prezidentdir. Paşinyan isə istefa vermək niyyətindən uzaqdır.

Amma Nikol Lavrova cavab kontekstində bir məqamda müəyyən qədər haqlıdır. O deyir ki, Almaata Bəyannaməsini heç nə saymaq doğru olmaz. Çünki sənədə əsasən, de-yure və müəyyən dərəcədə de-fakto Ermənistan və digər postsovet ölkələri özlərinin müstəqilliklərini əldə ediblər. Baş nazirin bu siyahıda Rusiyanı da nəzərdə tutduğu birmənalıdır.

Paşinyanın Lavrovun “Praqada Ermənistan Qarabağı Azərbaycana verdi” məntiqinə cavab anlamında söylədiyi daha bir fikir də tutarlıdır. O bildirir ki, İrəvan həm Praqada, həm də Brüsseldə Qarabağ ermənilərinin hüquqları və təhlükəsizliyi məsələsini aktual saxlayıb. Yəni, Nikol ölkəsinin Qarabağ avantürasına Rusiyanın status ritorikasından kənar obraz qazandırdığını açıqlayır. Bu, adi məsələ sayıla bilməz. Deməli, İrəvan bölgəni əldə etmək üçün Rusiyanın egidasından kənar mübarizə metodu ortaya qoyur. Mübarizədə status məsələsi yoxdur və onun yerini Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələsi tutur. Yəni, avantürizmin, belə demək mümkünsə, müstəqil xətti aktuallığını saxlayır. Əlbəttə, bu xətt Qərbə bağlıdır, İrəvanın müstəqilliyi çox nisbi anlayışdır.

Paşinyanın mövqeyi budur: Bir halda ki, onun nəzərdə tutduğu beynəlxalq təminatlı hüquq və təhlükəsizlik olacaq, məsələ gələcəyə daşınacaq. Bu isə Ermənistanın Qarabağ iddiasının davamlılığını təmin edəcək. Həm də ona görə ki, bölgənin erməni əhalisi üçün imtiyaz Azərbaycan və Ermənistan arasında imzalanacaq sülh sazişində yer alacaq. Əlbəttə, Lavrov Ermənistanın statusdan kənar olaraq, müstəqil şəkildə Qarabağ arzusunun mümkünsüzlüyünü düşünməkdə sərbəstdir.

N.Paşinyan da Rusiyanı haqsız çıxarmaqda sərbəst olduğunu göstərir. O, Lavrova cavab olaraq onu da deyir ki, Qarabağın Azərbaycanın bir hissəsi kimi tanınması “Azərbaycanın Laçın yolu müstəvisindəki hərəkətlərinə əsas yaratdı” kimi fikirlər yanlışdır. Həm də ona görə ki, “Rusiya, ən azı, iki dəfə bəyan edib ki, Dağlıq Qarabağ beynəlxalq səviyyədə tanınan Azərbaycanın ərazisidir. Nə Praqa sazişi, nə də hər hansı digər saziş tərəflərin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərini ləğv etməyib. Yəni, bu suala müraciət lazımdır: 10 noyabr üçtərəfli Bəyanatı etibarlıdır, yoxsa yox? Aydındır ki, o, qüvvədədir və 10 noyabr Bəyanatı, heç bir halda, 1991-ci il Alma-Ata Bəyannaməsini ləğv edə bilməz”.

Əlbəttə, N.Paşinyanın Lavrova cavabları tutarlı ola bilər. Ancaq, bu, o demək deyil ki, həmin cavablar manipulyativ xarakter daşımır. Məsələn, o bildirir ki, “Laçın dəhlizi” bir termin olaraq 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda əksini tapıb və tərəflərin hüquq və vəzifələrini müəyyənləşdirir. Bu bəyanat qüvvədədirsə və sənədin nə Alma-Ata Bəyannaməsinə, nə də 6 oktyabr 2022-ci il tarixli razılaşmaya heç bir dəxli yoxdursa, deməli, Nikol Azərbaycanın ərazi bütövlüyünü Ermənistanın tanımasını ayrıca götürür, Laçın yoluna “dəhliz” deməklə əraziyə xüsusi status qazandırır. O zaman sual yaranır: Ermənistan Paşinyanın qüvvədə qaldığını iddia etdiyi üçtərəfli Bəyanata əməl edirmi? Axı elə həmin bəyanatda ayrıca yol məntiqi var idi. O yol ki, Qarabağın erməni əhalisinin Ermənistanla birbaşa təmasını yaradacaqdı. Azərbaycan o yolun öz tərəfinə düşən hissəsini inşa etdi, Ermənistan isə yox. Deməli, bu baxımdan da üçtərəfli Bəyanatı pozdu. “Laçın dəhlizi” məntiqi ilə hərəkət etməyi seçərək, əslində, Qarabağ avantürasının davamı yolunu tutdu. Bu avantüranın davamlılığının digər göstəricisi isə bölgədə sayı on minə çatan qeyri-qanuni erməni hərbi birləşmələrinin mövcudluğudur.



Halbuki, üçtərəfli Bəyanata əsasən, həmin birləşmələr ərazidən çıxmalı idilər.

### Paşinyanın “telefon diplomatiyası”. Niyə Putinə zəng olmayıb?

Məlum olduğu kimi, N.Paşinyan bir neçə gün əvvəl, necə deyərlər, şivən qoparmışdı. O, ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenə, Fransa Prezidenti Emmanuel Makrona, Almaniya Kansleri Olaf Şoltsa, İran Prezidenti İbrahim Rəisiyə, Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə zəng vuraraq, Azərbaycanın Ermənistana hücum etmək istədiyini bildirmiş, haqqında söz açdığımız Praqa və Brüssel razılaşmalarına sadiqliyini, yəni, əslində Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını demişdi.

Maraqlıdır ki, Rusiya Prezidenti Vladimir Putin zəng edilənlər sırasında yox idi. Paşinyan müsahibəsində məsələyə aydınlıq gətirib. O deyib ki, Putinlə daha əvvəl əlaqə saxlayıbmış. O biri liderlərə zəng isə guya, “hansısa nüanslardan xəbəri olmayan tərəfdaşlara məlumat çatdırmaq” məqsədi daşıyıb. Belə çıxır ki, Rusiya Prezidentinin hər şeydən xəbəri var, digərlərinin isə yox. Əlbəttə, Paşinyan Putinə zəng edib deyə bilməzdi ki, Praqa və Brüssel anlaşmalarına sadiqdir. Çünki həmin razılaşmaları Nikol Kremldən “xəbərsiz” imzalayıb. Lavrov da elə bunu başa salmaq istəyirdi. Başa saldı, amma özünü də dolaşığa saldı. Məsələn, Rusiyanın XİN rəhbəri bu suala cavab verməlidir ki, o, nə üçün “Rusiya üçtərəfli Bəyanatla Qarabağı Ermənistana verdi” iddiasına cavabında, Qarabağa status məsələsini yada salır? Məgər, Moskva Qarabağa statusu ərazini Ermənistana vermək kimi başa düşürmüş?..

Əlqərəz, Paşinyan dünyaya mesaj verir ki, Rusiya bölgədə baş verən prosesləri idarə edir, imkan vermir ki, Ermənistan sərbəst davransın, daha doğrusu, avantürizmini müstəqil şəkildə reallaşdırsın. Digər tərəfdən, Paşinyan, Brüssel və Praqa reallıqları fonunda Qarabağ ambisiyası üçün tutacaq yeri tapdığını göstərdi. Göstərdi ki, Moskvanın mövcud istiqamətdəki planlarına ehtiyac duymur. Nikol, dünyanın dörd bir yanına zəng vurmaqla həm bunun çağırışını elədi, həm də Azərbaycanın mümkün hücumuna qarşı bir növ, beynəlxalq immunitet formalaşdırmağa cəhd göstərdi. Axı, o, yaxşı bilir ki, yeritdiyi qeyri-ciddi siyasət Bakının səbrini daşırır, bu öz yerində. Ancaq N.Paşinyan “hər şeydən xəbəri olan Rusiyanın Prezidenti” ilə yeni söhbətə ehtiyacın olmamasından təəssüfünü də ifadə edir. Ehtiyac isə ona görə yoxdur ki, sonuncu söhbətdən sonra heç nə dəyişməyib. Yəqin, Putindən dəstək istəyib, alınmayıb.

### Roma statutu Azərbaycandan qorunmaq üçün imiş?

Bəli, dəstək alınmadığı üçün Nikol siyasi şantaja keçib. Anti-Rusiya ritorikasına sadiqlik xətti götürən Paşinyan ilk dəfədir ki, bu xəttə Putini də daxil edir. Nəzərə alaq ki, Paşinyan indiyədək Moskva üzərinə kökələnərkən, Rusiya liderinin adını çəkmirdi. Baş nazirin bu davranışı düşünməyə vadar edir.

Ancaq, hələlik bunu bir kənara qoyub, Nikolun anti-Rusiya ovqatındakı ənənəvi ritorikadan söz açaq. O ritorikadan ki, onu müsahibəsində yenidən gündəmə gətirdi. Söhbət Rusiyanın hakim rol oynadığı və Ermənistanın da üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından gedir. Mövcud xüsusda Roma statutunun yada salınması isə Nikolun lap təzə oyunbazlığıdır.

Baxın, Paşinyan bildirir ki, Cənubi Qafqaza münasibətdə diqqət çatışmazlığı var. Yəni, KTMT lazımi diqqət göstərmir. O, eyni zamanda, deyir ki, ölkəsinin sərhəd problemləri həllini tapmalıdır. Bunun üçün isə “əlimizdəki alətləri tamamlamaq lazımdır”. Alətləri tamamlamağın yolu, sən demə, Roma statutu imiş. İzah edək necə. Daha doğrusu, Nikol özü aydınlıq gətirəcək.

Haşiyə çıxaq ki, Roma statutu həm də Rusiya Prezidenti V.Putinin digər hansısa ölkənin ərazisinə daxil olarkən, dərhal həbsini nəzərdə tutur. Ermənistanın baş nazirinin sözlərinə görə isə 2020-ci ilin 44 günlük müharibəsi və 2022-ci ilin sentyabrında baş verənlər göstərdi ki, ölkənin sərhəd toxunulmazlığı məsələsindəki prioriteti gözləmək üçün ona kömək edəcək amilləri dəyərləndirmək şərtdir: “Roma statutunun Ermənistan–Rusiya münasibətləri ilə heç bir əlaqəsi yoxdur. Biz onu ratifikasiya edəcəyik. Çünki 2022-ci ilin sentyabrında və 2021-ci ilin mayında baş vermiş hadisələrin Beynəlxalq Cinayət Məhkəməsi tərəfindən araşdırılmasını istəyirik. Bu, KTMT-nin Ermənistan qarşısında götürdüyü öhdəlikləri yerinə yetirmədiyi şəraitdə təhlükəsizliyimizin səviyyəsinin yüksəldilməsi baxımından əhəmiyyətli təsir göstərə biləcək amildir. Bunu gözardı edə bilmərik. Bizim məsuliyyətimiz beynəlxalq vasitələr də daxil olmaqla, əlavə təhlükəsizlik vasitələri əldə etməyə çalışmağımızdır, mövcud istiqamətdə addımlar atmağımızdır. Rusiya Federasiyasında bütün bunlar haqqında düzgün fikirlərin formalaşdırılması üçün fəal işləyirik. Roma statutu ilə bağlı narahatlıqları aradan qaldıra biləcək çox konkret həll təklif etmişik və bu həll üzərində işləyirik”.

Göründüyü kimi, N.Paşinyanın siyasi oyunbazlığı sərhəd tanımır. O, indi, necə deyərlər, Rusiyanın başının altına yastıq qoymaqla məşğuldur. Həm KTMT-nin timsalında Moskvanı günahlandırır ki, Ermənistanın sərhədlərinin toxunulmazlığı təmin edilmir, həm də Roma statutu ilə bağlı Kremli arxayın salmağa çalışır. Əlbəttə, yaxşı bəhanəsi var. Sən demə, Roma statutunun ratifikasiyası Azərbaycanın təhlükəsindən xilas olmağa hesablanıbmış. Belə gülməli fikri, ancaq Nikol düşünə bilərdi. Görəsən, o, öz dediyinə inanırmı? Hər bir halda, bir məsələ aydındır. Deməli, Ermənistan parlamenti sözügedən və Rusiya tərəfindən hiddətlə qarşılanan sənədi qəbul edəcək. Paşinyan bunun anonsunu artıq verdi. Onun əsaslandırmasının isə heç bir əhəmiyyəti yoxdur. Çünki ortada konkret nəticə var – Ermənistan Rusiya ilə bütün bağlarını kəsir. Təhlükəsizlikdən söz düşmüşkən isə N.Paşinyan Ermənistan üçün təhlükənin qaldığını, Azərbaycanın sərhədə qoşun yığdığını bildirib.

### Nikol Samveli niyə təbrik etmədi?

Bəli, Paşinyan haqlıdır. O anlamda ki, Cənubi Qafqazda gərgin durum davam edir. Çünki Ermənistan sərhədə hərbi texnika yığır, habelə, özünün Qarabağ xülyasından geri durmur. Xülyadan söz düşmüşkən, bununla əlaqədar növbəti məqam Qarabağın separatçı rejimdə keçirilmiş “prezident seçkisidir”. N.Paşinyan müsahibəsində həmin “seçki”yə toxunub. Ancaq əvvəlcə o, Arayik Arutyunyanın separatçıbaşılıqdan istefasından təəssüfləndiyini bildirib: “Dağlıq Qarabağın yeni seçilmiş prezidenti Samvel Şahramanyana gəlincə, mən hesab edirəm ki, vəziyyət elədir ki, onu təbrik etmək üçün xüsusi bir şey yoxdur. Onun üzərinə çox böyük məsuliyyət düşür”.

Nikol onu da bildirir ki, “beynəlxalq birliyin məntiqinə, öz mövqelərimizə və yanaşmalarımıza qarşı çıxmaqdansa, konsolidasiya məntiqini rəhbər tutmalıyıq və Dağlıq Qarabağda yaranmış humanitar böhranı siyasiləşdirməməliyik. Çünki səylərimizin əsas məqsədi humanitar böhranın aradan qaldırılmasıdır. Dağlıq Qarabağda böhran var və biz imkan verməməliyik ki, həddindən artıq siyasiləşmə yolu ilə məsələnin humanitar mahiyyəti siyasi müstəviyə çevrilsin. Bizim yanaşmalarımız da bu məntiqə əsaslanır”.

Deməli, Nikolun Samveli təbrik etməməsinin səbəbi bu imiş. Erməni baş nazir, guya tədbirli davranır. Ancaq onun özünü açığa çıxaran iki məqam var. Birinci məqam Paşinyanın Şahramanyan üzərinə məsuliyyətin düşdüyünü bildirməsidir. Görəsən, ikincinin məsuliyyəti nədir? Paşinyan “məsuliyyət” dedikdə nəyi nəzərdə tutur? Əslində, Nikol bu suallara birbaşa cavab vermir və ehtiyatlı davranır, onun dili ilə desək, məsələni siyasiləşdirmir. Ancaq, hər bir halda gəlinən nəticə ortadadır: İrəvan Qarabağ ambisiyasından əl çəkmir.

İkincisi. Bəli, İrəvan Qarabağ ambisiyasından əl çəkmədiyi üçün Paşinyan bildirir ki, Ermənistan və “Artsax” hakimiyyəti bir-biri ilə əlaqə saxlamaqda davam edir. Bu yerdə bir məqamı da vurğulayaq. Əgər erməni baş nazir dünya liderlərinə zəng vurub Praqa və Brüssel sammitlərinin nəticələrinə sadiqliyini bildirmişdisə, bəs bu “Artsax” hakimiyyəti nə deməkdir? Nə üçün İrəvan bu “hakimiyyətlə” əlaqədə olmalıdır? Ümumiyyətlə, belə bir hakimiyyət olmalıdırmı? Əlbəttə, olmamalıdır! Azərbaycanın mövqeyi budur ki, Samvelli, Arayikli, Rubenli, Qurgenli və başqa separatçılardan ibarət rejim gömülməlidir! Bunun alternativi yoxdur və İrəvan Paşinyanın məntiqi ilə onlara “hakimiyyət” kimi yanaşmanı davam etdirəcəyi təqdirdə, bu, ölkəmizin ərazi bütövlüyünə qəsd kimi qiymətləndiriləcək. Deməli, cavab tədbirləri də özünü çox gözlətməyəcək. Bu gedişlə erməni baş nazir ölkəsini “dəmir yumruğ”un altına düşüb əzilmək aqibətinə doğru aparır. Özü də çox inamla.

**Əvəz CAHANGİROĞLU**
**XQ**

# “Ermənilik” “erməni xəstəliyi”ndən qat-qat ağırdır

## O bəlaya mübtəla olanların “yastığı yüngül olmur”

**Əvvəlcə onu deyək ki, haylar qaraçı kimi dünyanın çox ərazilərinə səpələniblər və yaşadıqları ölkələrdə mütləq kimdənsə nəyisə oğurlayıblar. “Rus şeirinin Günəşi” adlandırılan Aleksandr Puşkinin məşhur “Tı vor, tı armenin!” – ifadəsi də elə yüz illərin müşahidəsinin ümumiləşdirilmiş nəticəsidir. Onu da əlavə edək ki, həmin ifadə hansısa erməniyə xitabən deyilməyib. Əliəyrilik, oğurluq edən rusu təhqir etmək istəyəndə (bizlərdə elə adamlara “it oğlu”, “eşşək oğlu” deyirlər) deyiblər ki, sən oğrusan, ermənisən.**

Bədnam qonşularımızın xarakterik keyfiyyətlərini qələmə almaq istəyəndə, ilk növbədə, onların oğru olduğunu xatırlatmağımız təsadüfi deyil. Çünki ermənilər elmə yüz illər əvvəldən məlum olan “Aralıq dənizi qızdırması” adlı xəstəliyin adını da oğurlayıblar. Söhbət bu gün tibb aləmində “erməni xəstəliyi” kimi qəbul olunan patalogiyanın ilkin adının bir neçə dəfə dəyişdirilməsindən gedir. Alimlər sübut edirlər ki, bu xəstəliyin bir neçə min il tarixi var. Məhz elə həmin “bir neçə min il tarix” ifadəsinə tamahsınan erməni alimləri sübut etməyə nail olublar ki, bu xəstəliyin əvvəlki adı “erməni xəstəliyi”dir. Əsas məqsəd isə onların Avrasiyada bir neçə min il əvvəldən yaşadıqları barədə yalana zəmin yaratmaqdan ibarətdir.

Halbuki, bu xəstəlik müxtəlif dövrlərdə müxtəlif xalqlar tərəfindən Ceynuey-Mozental paroksizmal sindromu, periodik peritonit, Reymann sindromu, Siqal-Mamu xəstəliyi— nadir genetik irsi xəstəlik və başqa variantlarda adlandırılıb. Yəni bu xəstəlik erməniləşdirilənə qədər əsasən əcdadları Aralıq dənizi sahillərində yaşamış xalqların nümayəndələrində – yəhudilərdə, ərəblərdə özünü göstərib. Simptomları böyrəklərin sıradan çıxmasından və laktozanı qəbul etməməsindən ibarətdir.

Bir də var “ermənilik” xəstəliyi. Bunun isə tibbə, təbabətə qətiyyən dəxli yoxdur. Bu, ictimai bəla, siyasi patalogiya, psixoloji natamamlıq, əxlaq pozğunluğu, vicdan kasadlığı, humanizm qıtlığı və digər bu kimi fəsadları olan xəstəlikdir. Yeri gəlmişkən, bu yaxınlarda “Anekdotı.ru” saytında bir lətifə oxumuşdum. Lətifəni sayta göndərən Kostya adlı müəllif yazır : “Dünyada ən çox kofe içən xalq braziliyalılar, ən çox konyak içən fransızlar, ən çox araq içən ruslar, ən çox pivə içən almanlar, ən çox şərab içən gürcülər, ən çox qan içən isə ermənilərdir.”

Bir lətifədə beş-altı xalqın xarakterik cizgilərinin bu qədər dəqiqliklə dilə gətirilməsi hər deyəndə ələ düşən hal deyil. Bu incə detallar sübut edir ki, Kostya mütaliəli adamdır və ermənilərin son iki əsrdə törətdikləri terror və təxribatlarda axıtdıqları, daha dəqiq desək, içdikləri qanın qədərini yaxşı bilir.

“Ermənilik xəstəliyi”nin əsas fəsadlarından birinin əxlaq pozğunluğu olduğunu da qeyd etdik. Bunu sübut etmək üçün işğalçı ölkənin baş naziri Nikol Paşinyanın məşhur Kim Qardaşyanın ayağına düşüb ona yalvarmasını xatırlatmaq istərdim. Bəri başdan deyim ki, Kim Qardaşyanın şəxsi həyatı barədə bir kəlmə də olsun, danışmayacağam. Ancaq iki-üç milyon əhalisi olan ölkənin rəhbəri həmin məşhur adamdan yardım istəyir, kömək umursa, bu, sadəcə olaraq, əxlaq pozuntusudur.

Bundan başqa, Nikol Paşinyan öz xanımı Anna Akopyanı Rusiyanın acığına (Moskvanın günahı Laçın yolunun açılmasını tələb etməməsi idi) Kiyevə göndərməsi də dünya mətbuatının nəzərindən yayınmadı. Hətta, Rusiya ekspertləri yazdılar ki, Anna Kiyevdə bir neçə saatlığına itib və bu gizlinlikdə əsas məqsəd Qərb təmsilçilərinə hansısa məlumatları ötürmək olub. Məgər həmin məlumatları ötürmək üçün Ermənistanda casus yox idi? Hamıya məlumdur ki, hayların böyük əksəriyyəti satqındır və casusluq onların dövri-qədimdən peşəsidir.

Sonda bir məqamı da xatırladım. Ötən ay “Facebook”da Maksim Avanesyan adlı bir şəxsin “Mən Azərbaycan türkünə erməni xalqının böyüklüyünü necə sübut etdim?”– adlı səs yazısı paylaşılmışdı. Maksim danışırdı ki, bu əhvalat Avropada olub. Bir oteldə qaldığımız azərbaycanlı ilə səhər yeməyi zamanı eyni stolda əyləşmişdik. Mən ona ilk insanların məhz haylar olduğunu da sübut etdim, xristianlığı hamıdan tez hayların qəbul etdiyini də, Amerikaya Kolumbdan əvvəl Qrior Manasyanın getdiyini də, Marksın atasının erməni əsilli olduğunu da, Faşist Almaniyası üzərində qələbənin planlarını adı heç yerdə çəkilməyən bir ermənínin hazırladığını da, ilk metronun və tramvayın konstruktorunun erməni olduğunu da, Süveyş kanalının çəkilməsində ermənilərin böyük rol oynadığını da, əyləşdiyimiz “Mariott” otelinin erməni tələbələr tərəfindən tikildiyini də…

Maksim sonda dedi ki, azərbaycanlı adam bütün bu faktları, həqiqətləri eşidəndə mat qalmışdı.

Bax, bütün bunlara görə deyirəm ki, “ermənilik” xəstəliyi “erməni xəstəliyi”ndən qat-qat ağırdır. Həmin xəstəliyə tutulanlara “Yastığın yüngül olsun!”– deməyin heç bir faydası yoxdur.

**İttifaq MİRZƏBƏYLİ**
**XQ**

# Putin Paşinyanı nədə ittiham edir?

**Rusiya, necə deyərlər, açıb sandığı, töküb pambığı. Ölkənin Xarici İşlər naziri Sergey Lavrovun ardınca Prezident Vladimir Putin də Azərbaycan–Ermənistan münasibətlərindən, daha doğrusu, ölkələr arasındakı münaqişəli durumdan söz açıb.**

Əslində, Rusiya liderinin Vladivostokda keçirilən Şərq İqtisadi Forumu çərçivəsində söylədikləri, mahiyyətcə baş diplomatın dediklərinin təkrarıdır. Həm təkrarıdır, həm də Putin Lavrovun bildirdiklərini özünəxas şəkildə zənginləşdirib. Ancaq onların mövqelərini birləşdirən bir vacib cəhət var. Rusiya lideri də, XİN rəhbəri də bu ölkənin Ermənistan üçün etdiklərini sanki Paşinyanın başına vururlar. Yazımız bu barədədir. Əlbəttə, digər məsələlərə də aydınlıq gətirəcəyik.

hüquq nöqteyi-nəzərindən Qarabağ və onun ətrafındakı rayonlar Azərbaycanındır və Azərbaycan özünə məxsus əraziləri geri qaytarıb.

Kəlbəcər və Laçın məsələsinə gəlincə, bəli, ayrı-ayrı mərhələlərdə ölkəmizə müxtəlif həll variantları təklif edilib. Elə Rusiya tərəfindən də. Bu təkliflərdən biri də bu idi ki, "ilkin mərhələdə sözügedən rayonlar Qarabağın statusu məsələsi tam şəkildə həllini tapanadək Ermənistanın nəzarəti altında qalsın". Lakin heç razılaşmalarına sadiqliyini dilə gətirdi. Diqqət yetirək, o, ölkəsinin Rusiyanın köməyi ilə əldə olunmuş 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata sadiqliyindən danışmadı. Cənab Putin isə bildirir ki, Praqada Ermənistan Azərbaycanın Qarabağ da daxil olmaqla, suverenliyini rəqəmlərlə, daha doğrusu, 86,6 min kvadratkilometr ərazidə tanıyıbsa, bu zaman bundan sonrakı məsələlər ikitərəfli əsasda həllini tapmalıdır. Məntiqlə Moskva çəkilib kənarda dayanmalıdır: "Və nə deyək, əgər Ermənistan özü Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyıbsa, burada deməyə söz yoxdur".

Sual yaranır: Rusiya çəkilib kənarda dayanırmı? Yaxud dayanmağa hazırdırmı? Fikrimizcə, yox! Dünən ölkənin Xarici





Bəri başdan xatırladaq ki, Azərbaycan dövləti heç zaman öz torpaqlarının bir qarışını da heç kimə güzəştə getmək fikrində olmayıb. Beləliklə, S.Lavrov Ermənistanda hələ də populyar olan guya "Rusiya 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla Qarabağı Ermənistana verdi" fikrinə münasibət bildirərkən deyib ki, İrəvan 2022-ci ilin payızında Praqada (Azərbaycan və Ermənistan liderlərinin Avropa İttifaqı Şurasının prezidentinin vasitəçiliyi ilə keçirilmiş görüşü nəzərdə tutulur – red.) Azərbaycanın ərazi bütövlüyünü tanımaqla, Qarabağa status məsələsini heçə endirdi. Belə çıxır ki, Praqa anlaşması Qarabağın Ermənistana verilməsinə, güya, əngəl törədib.

***

Ermənistanın Praqa və Brüssel sammitləri zamanı "Qarabağı itirməsi" ritorikasına güc verən V.Putin keçmişə üz tutub. O bildirib ki, guya, bir vaxt Rusiya Ermənistan rəhbərliyinə Kəlbəcər və Laçın da daxil olmaqla, Qarabağı təklif edibmiş, ancaq İrəvan bununla razılaşmayıb. Əlbəttə, razılaşmamaq məsələsində Kremlin rəhbəri haqlı ola bilər. Çünki Ermənistan daha çox şey istəyirdi - keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti də daxil olmaqla, digər rayonların da işğalına son qoymaq fikrində deyildi. Ancaq Rusiya lideri ermənilərlə köhnə sövdələşmələrini tam açıqlamır...

Əlbəttə, həm Putinin, həm də Lavrovun Ermənistan cəmiyyətinin baş nazir Nikol Paşinyana qarşı Qarabağ müstəvisindəki hiddətini bir qədər də körükləmək niyyətini başa düşürük. Anlaya bilmədiyimiz daha bir məqam isə V.Putinin bu niyyət naminə həqiqətlərə səthi yanaşmasıdır. Belə yanaşma Rusiyanın öz maraqlarından irəli gəlir.

Məsələ burasındadır ki, Ermənistan rəhbərliyi otuz ilə yaxın davam etmiş danışıqlar prosesində həmişə, bir qayda olaraq, destruktiv mövqe tutub. Beynəlxalq müstəvidə isə ona sərfəli nə isə qəbul edilməyib. Yəni, heç bir sənəd və ya razılaşma keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycanın yurisdiksiyasından kənarda görməyib. Yaxşı olar ki, cənab Putin, ilk növbədə, özünün 2020-ci ildə – 44 günlük müharibədən sonra dediklərinə istinad etsin. O vaxt Rusiya lideri bildirmişdi ki, beynəlxalq

vaxt Azərbaycan tərəfi bu təkliflə razılaşmayıb, ölkəmiz hansısa ərazi güzəştinə razılıq verməyib. Rusiya kimi Qərb dövlətlərinin də təklifləri regional siyasi gündəmi təşkil edib. Yeri gəlmişkən, ikincilər daha fəal olublar, nəinki Rusiya.

Üstəlik, Ermənistanda uzun müddət məhz Moskvaya güvənərək, ayaqda qalan Koçaryan-Sarkisyan xunta rejimi hökm sürüb. Kreml rəhbərliyinin işi-gücü isə məhz bu rejimin nazı ilə oynamaq, onun şıltaqlıqlarına dözmək mahiyyəti daşıyıb. Beləliklə, Qarabağ münaqişəsinin həlli də uzanıb.

***

İndi həm Putini, həm də Lavrovu köhnə sandığı açmağa məcbur edən məqamlardan söz açaq. Axı, xunta rejiminin dövründə Rusiya rəhbəri bugünkü qədər, belə demək mümkünsə, hər şeyi bu qədər açıq demirdi. Səbəbini soruşmuruq, çünki bilirik. Əlqərəz, 2018-ci il inqilabından sonra Ermənistanda anti-Rusiya meyilli qüvvələr hakimiyyətə yiyələndilər. Onların başında Nikol Paşinyan dayandı. Həmin Paşinyan o vaxtadək aparılmış danışıqlar prosesini dalana dirədi. Eyni zamanda, Moskvanı saya salmadı. "Qarabağ Ermənistandır. Nöqtə" bəyanatını verərək, Azərbaycana qarşı demarş yolu tutdu. Nəticə etibarilə, Kreml özünün orbitindən çıxmış, Qərbə yön almış Ermənistanın İkinci Qarabağ savaşında cəzalanmasına səssiz qaldı.

44 günlük müharibədə Ermənistan ordusu darmadağın oldu. Bunu görən Paşinyan məcbur qalıb Rusiyanın himayəsinə sığındı. İndi belə görünür, bu məcburi sığınma Moskvanı qane etmir. Edə də bilməz. Çünki aydındır ki, Nikol indi Qərbdən aldığı direktivlər əsasında hərəkət edir. Məhz həmin hərəkətlərin nəticəsidir ki, bu gün həm Prezident Putin, həm də Lavrov, eləcə də Rusiyanın digər rəsmiləri dəyərli vaxtlarını Paşinyanın, ümumən Ermənistanın idarəçiliyində təmsil olunan şəxslərin atmacalarına, ərköyünlüklərinə reaksiya verməyə xərcləyirlər.

***

Amma Putinin fikirlərində təqdir olunacaq məqamlar da var. Bu barədə söz açmazdan əvvəl bildirək ki, Ermənistan baş naziri N.Paşinyan bir neçə gün əvvəl dünya liderlərinə etdiyi ard-arda telefon zənglərində ölkəsinin Praqa və Brüssel İşlər Nazirliyi son dövrlər həmişə vurğuladığı kimi, bir daha bəyan edib ki, Ermənistanın nicat yolu üçtərəfli bəyanatdadır. V.Putin isə deyir ki, burada başqa suallar yaranır və onlar humanitar məsələlərlə, Qarabağdakı Rusiya sülhməramlılarının mandatı ilə bağlıdır: "Mandat hələ qüvvədədir. Lakin humanitar xarakterli, etnik təmizləmənin qarşısını alan məsələlər, təbii ki, aradan qalxmayıb. Mən bununla tamamilə razıyam. Ümid edirəm ki, Azərbaycan rəhbərliyi həmişə bizə dediyi kimi, indi də deyir ki, heç bir etnik təmizləmənin aparılmasında maraqlı deyil, prosesin yumşaq şəkildə baş verməsində maraqlıdır". Söhbət Qarabağın erməni sakinlərinin dinc yolla reinteqrasiyasından gedir.

Rusiya liderinin fikirlərindəki növbəti təqdir olunacaq məqam onun Ermənistanın siyasi dairələrində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının İrəvana Azərbaycanla mübarizədə yardım göstərməməsi kontekstində irəli sürülən iddialara münasibətində ifadəsini tapıb: "Ermənistan Dağlıq Qarabağın Azərbaycanın bir hissəsi olduğunu tanıyıbsa, biz nədən danışırıq? Bütün problemin əsas komponentini, Qarabağın statusunu Ermənistan özü müəyyən edib. Bütün problem budur".

***

Sonda ümumiləşdirmə apararaq deyə bilərik ki, Rusiya liderinin fikirləri, ümumən, pozitiv sayılmamalıdır. Onun Qarabağ nizamlaması ilə bağlı məsələlərdən danışarkən seçdiyi siyasi üslub qənaətbəxşlikdən uzaqdır. Eyni zamanda, onun baxışları Ermənistandakı revanşist-şovinist kəsimi hərəkətə gətirmək potensialına malikdir. Həmin kəsim hesab edə bilər və hesab edir ki, əgər Paşinyan hakimiyyətdə olmasa, ölkə Qarabağa yenidən sahiblənə bilər. O zaman təsəvvür edək ki, Nikolun şəxsində qərbpərəstlər devrilib və onların yerini ruspərəstlər tutublar.

Qarabağ müstəvisində nə isə dəyişəcəkmi? Əsla yox! O zaman keçmişdə çox da ilişib qalmaq yox, gələcəyə baxmaq lazımdır. Keçmiş müharibə yaratmış təbiətə malikdir. Rusiya regionda nüfuzunu qorumaq istəyirsə, gələcəyi müharibəsiz görməlidir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ceyhun Bayramovun İsveç görüşləri

**Xarici İşlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasına işgüzar səfəri çərçivəsində sentyabrın 12-də BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovaya ilə görüşüb.**



Görüş zamanı Azərbaycan ilə UNOG arasında əməkdaşlıqdan məmnunluq ifadə olunaraq UNOG-nin insan hüquqları, gənclər, gender bərabərliyi, dayanıqlı inkişaf məqsədləri, ətraf mühitin mühafizəsi, iqtisadi inkişaf kimi istiqamətlər üzrə fəaliyyətlərinə dəstək ifadə edilib.

Azərbaycanın, öz növbəsində, BMT çərçivəsində aktiv fəaliyyət göstərdiyi, 2023-cü ildə BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramına (SPECA) sədrlik etdiyi və cari ilin noyabr ayında Bakıda SPECA-nın sammitinin baş tutacağı diqqətə çatdırılıb.

Xanım Valovayanın 2022-ci ildən etibarən Azərbaycana baş tutmuş səfərləri və bu səfərlər çərçivəsində keçirilmiş ali və yüksək səviyyəli görüşlər məmnunluqla xatırlanıb və Azərbaycanın Cenevrədəki Daimi Nümayəndəliyi, habelə ölkəmizin digər qurumları ilə UNOG arasında əməkdaşlığın gücləndirilməsi üçün yaratdığı şəraitə görə UNOG-nin rəhbərinə minnətdarlıq bildirilib.

Görüş zamanı bölgədəki vəziyyət, Azərbaycan–Ermənistan normallaşma prosesi barədə qarşı tərəfə məlumat verilib.

* * *

Həmin gün Xarici İşlər naziri Ceyhun Bayramov BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibi Tatyana Molçean ilə də görüşüb.

Azərbaycanın postpandemiya və postmünaqişə dövründə keyfiyyətcə yeni olan və 2022–2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olduğunu qeyd edən nazir Ceyhun Bayramov 2030-cu ilədək Azərbaycanın Milli İnkişaf Prioritetləri barədə məlumat verib. O, ölkəmizin işğaldan azad edilmiş ərazilərində 2050-ci ilə qədər "xalis sıfır emissiya" zonasının elan edilməsi, "yaşıl enerji zonası"nın yaradılması, bərpa olunan enerji mənbələrindən istifadə, "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyasının yaradılması, transsərhəd su ehtiyatlarının davamlı idarə olunması və yaşıllıqların artırılması kimi bərpa və reabilitasiya layihələri və planları haqqında danışıb.

Ermənistan tərəfindən törədilmiş ekoloji terror, işğal nəticəsində dağıntılar, bölgədə geniş mina təhdidləri, eləcə də işğalın fəsadlarının aradan qaldırılması səyləri qarşı tərəfin diqqətinə çatdırılıb.

* * *

Xarici İşlər naziri Ceyhun Bayramov sentyabrın 12-də Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Miryana Spolyariç Eqqer ilə görüşüb.

Görüş zamanı regiondakı son vəziyyət fonunda Azərbaycan ilə BQXK arasında əməkdaşlığın hazırkı durumu, mövcud çağırışlar və gələcək perspektivlər barədə müzakirələr aparılıb.

Azərbaycan qanunvericiliyinə və müvafiq prosedurlara əməl etməklə BQXK vasitəsilə erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam–Xankəndi və Laçın–Xankəndi yolundan paralel istifadənin zəruriliyi vurğulanıb. Əldə olunmuş razılıqlara baxmayaraq Ermənistanın və onun yaratdığı qondarma rejimin bu razılıqları kobud şəkildə pozduğu xatırlanıb. Hazırda Laçın yolundan gündəlik əsasda hər iki istiqamətdə erməni sakinlərin keçidinin təmin edildiyi halda Ermənistanın "blokada" iddialarının əsassız olduğu vurğulanıb.

Ümumiyyətlə, Azərbaycan vasitəsilə əraziyə yüklərin daşınmasına maneçilik törədilməsinin siyasi manipulyasiya olduğu, Ermənistanın separatçılığı qızışdırmaq cəhdlərinin tərkib hissəsi olduğu qeyd edilib.

***XQ***

# XİN: Rusiyanın göndərdiyi yükün Ağdam–Xankəndi yolundan keçməsini mühüm irəliləyiş kimi qiymətləndiririk

**Məlum olduğu kimi, bu gün Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əlaqələndirilmiş şəkildə Rusiya Qızıl Xaç Cəmiyyətinin yük avtomobilinin Ağdam–Xankəndi yolu vasitəsilə Xankəndinə keçidi təmin olunub. Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın qondarma rejimi tərəfindən problem və təxribatların törədilməsinə baxmayaraq, RQXC tərəfindən göndərilən yükün Azərbaycanla əlaqələndirilmiş şəkildə məhz Ağdam–Xankəndi yolu ilə keçməsini bu yolun açılması istiqamətində müsbət addım və mühüm irəliləyiş kimi qiymətləndiririk.**

Bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə yerli medianın suallarına cavabında deyib.

"Ağdam–Xankəndi və Laçın yollarından eyni vaxtda istifadə məsələsinə gəldikdə isə Azərbaycanın ABŞ və digər tərəfdaşlar ilə yüksək səviyyəli təmaslar zamanı da qeyd etdiyi kimi, ölkəmiz bu iki yoldan BQXK vasitəsilə eyni zamanda istifadə məsələsinə razılıq verib. Təəssüf ki, bu razılığın da həyata keçirilməsinə mane olan tərəf Ermənistanın Qarabağ bölgəsində yaratdığı qondarma rejimdir.

Bir daha bəyan edirik ki, Azərbaycan tərəfi Ağdam–Xankəndi yolu ilə paralel olaraq, Laçın sərhəd-buraxılış məntəqəsində müvafiq olaraq sərhəd və gömrük prosedurlarına əməl etməklə BQXK vasitəsilə yüklərin daşınmasına şərait yaratmağa hazırdır", – deyə Ayxan Hacızadə vurğulayıb.

***XQ***

# Yeni komandan Zakir Həsənova təqdim olundu



**Sentyabrın 12-də Rusiya Federasiyası Quru Qoşunlarının komandanı ordu generalı Oleq Salyukov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin yeni komandanı general-mayor Kirill Kulakovu Müdafiə naziri general-polkovnik Zakir Həsənova təqdim edib.**

Qarabağ iqtisadi rayonunda əməliyyat şəraiti barədə danışan general-polkovnik Z.Həsənov son zamanlarda qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən törədilən təxribatların sayının artdığını xüsusi vurğulayıb.

Öz növbəsində, ordu generalı O.Salyukov səmimi qəbula görə təşəkkürünü bildirib, ikitərəfli əlaqələrimizin tarixi köklərə əsaslandığını, ölkələrimizin strateji tərəfdaş olduğunu qeyd edib.

***XQ***

# Müdafiə Nazirliyi

## Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutulub

Sentyabrın 12-si saat 09:45-dən 10:00-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Dəvəli rayonunun Birəli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Sədərək yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan bir neçə dəfə atəşə tutub.

Həmin gün saat 11:25 radələrində Ordumuzun Şərur rayonunun Havuş yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin üzbəüz yerləşən bölmələri tərəfindən atıcı silahlardan atəşə tutulub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən XQ-yə bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

## Azad edilmiş ərazilərdə döyüş növbətçiliyi və hərtərəfli təminat yüksək səviyyədədir



Azərbaycan Ordusunun bölmələrinin hərtərəfli təminatı və qoşun xidmətinin təşkili, eləcə də şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən zəruri tədbirlər davam edir.

Azad edilmiş ərazilərdə yerləşən bölmələrdə günün nizam qaydalarına uyğun olaraq qoşun xidməti və sutkaboyu döyüş növbətçiliyi təşkil olunur, fasiləsiz xidmət aparılır.

Döyüş növbətçiliyinə cəlb edilən şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırılır, onların döyüş və mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə saxlanması üçün mütəmadi olaraq məşğələlər keçirilir. Asudə vaxtlarda hərbi qulluqçularımıza ölkəmizdə və dünyada baş verən ictimai-siyasi vəziyyət haqqında məlumat verilir.

Eyni zamanda, şəxsi heyət mövsümə uyğun geyimlə, təzə və yüksək kalorili isti qida ilə fasiləsiz təmin olunur.

Peşəkar hərbi qulluqçularımız hər an ehtimal olunan istənilən təxribatın qarşısını almağa hazır və qadirdir.

***XQ***

# Rusiya QXC-nin yükü ünvanına çatıb

**Dünən Rusiya Qızıl Xaç Cəmiyyətinin göndərdiyi hümanitar yük Ağdam–Xankəndi yolu ilə ünvanına çatıb.**

Bunu Azərbaycan Qızıl Aypara Cəmiyyətinin baş katibi Ceyhun Mirzəyev Ağdam–Xankəndi yolunda jurnalistlərə açıqlamasında deyib.

O, həmçinin bildirib ki, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yük avtomobilləri 16 gündür Ağdam–Xankəndi yolunda gözləyir: "Bu yüklərin də Qarabağda yaşayan erməni əsilli sakinlərə çatdırılması istiqamətində müzakirələr davam edir".

***XQ***

“Xalq TV”nin qonağı

**Ermənistan hərbi-siyasi rəhbərliyinin atdığı təxribatçı addımlar bölgənin kövrək təhlükəsizlik mühitini pisləşdirir. Son aylarda gərginlik ancaq artan xətt üzrə gedir. Hətta bir sıra ekspertlər hazırkı vəziyyətin 44 günlük Vətən müharibəsindən öncəki duruma bənzədiyini bildirirlər. Bəzi böyük dövlətlər isə vəziyyəti nizamlamaq əvəzinə, közərməkdə olan ocağı körükləyirlər. Onların önündə, heç şübhəsiz, Fransa gəlir. Rəsmi Paris Ermənistanı hər vəchlə qızışdırır, onu yeni təxribatlara şirnikləndirir. Ötən illərin təcrübəsindən çıxış edib demək olar ki, baş verənlər İrəvan üçün yaxşı heç nə vəd etmir. Milli Məclisin deputatı Cavanşir Feyziyev Fransanın bölgədə oynadığı destruktiv rol, Ermənistanın son hərbi-siyasi təxribatları və bunların nə ilə yekunlaşa biləcəyi ilə bağlı “Xalq qəzeti”nin suallarını cavablandırdı.**

# Vəziyyəti gərginləşdirmək Ermənistanın özünü çətin duruma salıb

## Müsahibimiz Milli Məclisin deputatı Cavanşir Feyziyevdir



**– Cavanşir müəllim, Makron Fransasının Cənubi Qafqaz siyasətini necə dəyərləndirərdiniz?**

– Siz doğru olaraq, məhz Makron Fransası ifadəsi ilə başladınız. Çünki Emmanuel Makronun prezidentliyi dövründəki Fransa Cənubi Qafqaza münasibətdə əvvəlki Fransadan çox fərqlənir. Uzun illər ərzində, demək olar ki, İkinci Dünya müharibəsindən sonrakı bütün dövrlərdə Fransanın Cənubi Qafqaza münasibəti əsasən müsbət zəmində olub və heç vaxt bölgəmizdə hansısa əməliyyatlara qoşulmaq, yaxud təsir gücünə malik olmaq barədə düşünülməyib. Fransua Mitteranın, Jak Şirakın, Nikola Sarkozinin, Fransua Ollandın zamanlarında da Paris ölkəmizə qarşı hər hansı pis niyyət nümayiş etdirməyib. Baxmayaraq ki, Fransa keçmiş Minsk qrupunun həmsədrlərindən biri kimi Azərbaycanla sıx təmasda olub. Fransızlar Fransa və Ermənistan arasında son yüz ildə formalaşmış ənənəvi münasibətləri qeyd etməklə yanaşı, Azərbaycana münasibətdə əsasən xoş məram nümayiş etdiriblər.

Makronun hakimiyyətə gəldiyi ərəfədə Azərbaycanla Fransanın 12 şəhəri qardaşlaşmış şəhərlər layihəsi çərçivəsində qarşılıqlı əməkdaşlığa dair xartiya imzalamışdı. Bu şəhərlər arasında birbaşa əlaqələr yaranmışdı, müxtəlif peşə sahibləri səviyyəsində qarşılıqlı mübadilələr mövcud idi. Bu, tədricən iqtisadi fəaliyyətə də çevrilirdi. Münasibətləri o səviyyəyə gətirib çıxarmaq üçün həm dövlət, həm də Heydər Əliyev Fondu tərəfindən faydalı addımlar atılmışdı. Heydər Əliyev Fondunun Fransada keçirdiyi tədbirlərin sayının çoxluğu hamıya məlumdur. Bu tədbirlər Fransa cəmiyyətində Azərbaycan haqqında real təsəvvür yaratmış və ermənilərin yüz il ərzində fransızlarda türklər və azərbaycanlılar haqqında formalaşdırdığı yanlış təsəvvürləri dağıtmağa başlamışdı. Lakin Makronun hakimiyyətə gəlişi ilə münasibətlər yavaş-yavaş pozulmağa başladı. Sonrakı hadisələr, yəni Makronun Ermənistanı birtərəfli şəkildə dəstəkləməsi göstərdi ki, Fransa Prezidenti ölkəsi ilə Azərbaycan arasında müsbət zəmində formalaşan münasibətlərdən razı deyil.

**– Bunu nə ilə izah etmək olar?**

– Zənnimcə, variantlardan biri budur ki, Makron erməni lobbisinin təsiri altındadır. Biz Makronun prezidentlik müddəti başa çatmayanadək bunu tam detalları ilə öyrənə bilməyəcəyik. Nə zamansa hər hansı iddia səslənərsə, araşdırma aparılarsa, bu, bəlli olacaq. Necə ki, ondan əvvəlki prezident (Nikola Sarkozi nəzərdə tutulur-S.H.) haqqında belə bir araşdırma aparıldı və həmin eks-prezident hazırda həbs həyatı yaşayır. Eləcə də Makronun erməni lobbisi ilə sıx bağlı olduğu və ondan ola bilsin ki, prezident seçkilərində istifadə etməsi üçün maddi dəstək alması ehtimalları var. Güman etmək olar ki, Makron erməni lobbisindən aldığı maddi dəstəyin əvəzini ödəmək üçün haqq-nahaq Ermənistanın mövqeyini müdafiə etməyə məcburdur. Ona görə də heç kimin – sivil dünyanın başa düşə bilməyəcəyi təkliflərlə çıxış edir. Azərbaycanın mövqeyinə qarşı qərəzli mövqe sərgiləyir, bütün təxribatlarında Ermənistanı dəstəkləyir. Nəinki dəstəkləyir, eyni zamanda, onu təxribatlara yönəldir.

Vətən müharibəsindən sonra Ermənistanın siyasi rəhbərliyinin atdığı addımlar və Fransanın bu siyasətdə rolu göstərir ki, İrəvan Parisin təlimatlarını eşitdikdə, ona qulaq asdıqda Azərbaycanla münasibətlərin normallaşması prosesi pozulur. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilən ilk üç-dörd görüş çox məhsuldar olmuşdu. Sonradan Fransa prezidentinin bu görüşlərə qatılması Emənistanla Azərbaycanın günü-gündən yaxınlaşan mövqelərini alt-üst etdi. Eləcə də Aİ missiyasının Ermənistan ərazisində yerləşdirilməsi Makronun təşəbbüsüdür. Ermənistan baş naziri bu təşəbbüsü məmnuniyyətlə qəbul etdi. Baxmayaraq ki, erməni cəmiyyəti bu missiyadan çox narazıdır. Çünki gözləntilər çox idi. Ancaq son nəticədə bu, Ermənistanın xeyrinə işləmədi, əksinə, İrəvanın aparmaq istədiyi siyasəti dalana dirəmiş oldu. Məhz buna görə də Azərbaycan təklifdən qəti şəkildə imtina etdi və öz ərazisində heç bir missiyanın yerləşdirilməsinə icazə vermədi.

Fransa Azərbaycanla, əslində, iqtisadi sahədə tərəfdaşdır və çox böyük həcmli layihələrimiz var. Məsələn, Azərbaycanın süni peykləri Fransa şirkəti tərəfindən orbitə çıxarılıb. Eləcə də Fransanın “Total” enerji şirkəti Azərbaycanda uzun müddətdir çalışır. Hətta, “Abşeron” qaz yatağında müəyyən paya da malikdir. Amma bütün bunlara baxmayaraq, məhz Makronun apardığı siyasət Ermənistanla Azərbaycan arasında münasibətlərin tənzimlənməsi üzrə müxtəlif dövlətlərin və beynəlxalq təşkilatların gördüyü işə mane olmaq məqsədi güdür. Bu, Fransanın atdığı bütün addımlardan bəllidir. Eləcə də, guya, Qarabağda yaşayan ermənilərə yardım göndərmək kimi bir təxribat Laçın yolunda, sərhəd bölgəsində baş verən hadisələri daha da qızışdırmaq və İrəvanla Bakını sülhə yox, növbəti müharibəyə istiqamətləndirmək məqsədi daşıyır.

Əlbəttə, Azərbaycan bütün bunları təhlil edir və Fransanın niyyətini başa düşür. Ona görə də mümkün qədər təmkinli olmağa çalışır. Lakin həmişə deyildiyi kimi, səbrin də bir həddi var. Ermənistan öz siyasətini özünün milli maraqları zəminində qurmalıdır.

**– Fransa bu cür destruktiv rol oynamaqla nəyə nail olmaq istəyir?**

– Bilirsiniz, Fransa Avropanın aparıcı ölkələrindən biri kimi, həmişə ambisiyalı ölkə olub. Onun ambisiyaları xüsusilə İkinci Dünya müharibəsindən sonra yaradılan BMT-nin Təhlükəsizlik Şurasına daimi üzv seçildikdən sonra daha da böyüyüb. Amma bayaq qeyd etdiyim kimi, Makrondan öncəki Fransa rəhbərləri bu iddialarını bəlli ölçüdə irəli sürüblər və ona sivil yollarla nail olmağa çalışıblar. İddialı olmaq pis əlamət deyil. Bu, hər bir dövlətin təbii istəyidir. Hər bir dövlət dünya miqyaslı rəqabətdə daha yaxşı yer tutmaq arzusundadır. Bu baxımdan, biz bu iddialarda pis bir şey görmürük. Amma bu iddialar beynəlxalq hüquq normalarının pozulması hesabına həyata keçirilirsə, o zaman həmin dövlət dünya birliyinin, bütövlükdə, meqa siyasi sistemin inkişafının əleyhinə getmiş olur. TŞ-nin daimi üzvü olan bir ölkənin belə üsullardan istifadə etməklə öz iddiasını təmin etməyə çalışması həm mənəvi, həm də siyasi cəhətdən yolverilməzdir.

Baxın, ötən əsrin 60-cı illərindən başlayaraq dünyanın bütün bölgələrində müstəmləkəçiliyə son qoyulması prosesi geniş vüsət alıb. Nəticədə müstəmləkə asılılığında olan ölkələrin əksəriyyəti mütəqillik əldə edib. O cümlədən, Fransanın müstəmləkələri müstəqilliklərini elan ediblər, amma bu, formal müstəqillikdir. Çünki Fransa həmin ölkələrdən bu günədək əl çəkməyib. Yəni, Fransa müstəmləkəçiliyin dünya miqyasında ləğvindən sonra da neomüstəmləkəçilik siyasəti aparır. Afrikada, özündən 9 min kilometr uzaqda olan Yeni Kaledoniya adasında, Korsikada, Cənubi Amerikanın bir çox ərazilərində yenə də müstəmləkəçilik siyasətini davam etdirir. Buna müxtəlif adlar qoyur – Frankofoniya ölkələri və sair. Bu adlar altında, əslində, həmin ölkələri həm iqtisadi, həm də mənəvi cəhətdən istismara məruz qoyur.

Korsika Avropa qitəsinin demokratik quruluşlu ilk respublikaya malik xalqı olub. Amma onun mövcudluğu cəmi 12 il çəkib. On iki ildən sonra Fransa Korsikanı işğal edib, daha doğrusu, borc əvəzinə müstəmləkə ərazisi kimi özünə götürüb. Həmin vaxtdan Avropanın demokratik quruluşlu ilk respublikasını və onun vətəndaşlarını istismar edir. Hətta, son bir ildə yerli əhaliyə Korsika dilində danışmağı belə qadağan edib.

XXI əsrdə insanları bu cür istismar etmək yolverilməzdir. Bu, bütün mütərəqqi xalqlar və dövlətlər tərəfindən qınanılır. O cümlədən, 2023-cü ilin iyul ayında Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə də bu məsələyə çox geniş şəkildə toxunuldu. Hətta biz Milli Məclisdə neomüstəmləkəçilik asılılığında olan xalqların nümayəndələri ilə görüşdük. Onlarla fikir mübadiləsi apardıq. Bütün bu ölkələrdə real müstəqilliyə nail olmaq istəyən mütərəqqi siyasi qüvvələri Fransa ciddi şəkildə işgəncələrə məruz qoyur, uzunmüddətli həbslərə atır. Məsələn, öz dilində danışmağı tələb edən insanlar 20 illik həbs cəzasına məhkum edilir.

Amma bütün bu proseslərin qarşısını güc yolu ilə almaq mümkün deyil. Son bir neçə ay ərzində Afrika qitəsində baş verən hadisələr göstərir ki, Fransa müstəmləkəçiliyi artıq real şəkildə öz sonluğuna yaxınlaşmaqdadır. Bu hərəkat məhz Makronun prezidentliyi dövründə yenidən canlandı. Çünki Makronun prezidentliyi dövründə Fransanın asılı ölkələrə, onların xalqlarına münasibətdə siyasəti daha da mürtəceləşib, daha da qəddarlaşıb. Ona görə də əks-reaksiya olaraq Afrika ölkələrində Fransaya qarşı mübarizə də yeni güclə alovlanır. Malidə, Qabonda, Burkina-Fasoda və digər bir neçə ölkədə Fransa qoşunlarının çıxarılması tələbi ilə çıxış edirlər. Bir sıra ölkələrdə isə Fransaya loyal münasibət bəsləyən hakimiyyətlər devrildi və hərbçilər hakimiyyəti ələ aldılar. Hazırda Fransadan hərbi hissələrini həmin ölkələrin ərazisindən çıxarması tələb olunur.

Afrika ölkələrindən çıxmaq ərəfəsində Fransaya, guya, bəzi bölgələrdə yenə söz sahibi olduğunu göstərmək lazımdır. Cənubi Qafqazda bu məqsəd üçün istifadə oluna biləcək ən zəif halqa Ermənistandır. Ermənistan həmişə üçüncü qüvvəyə arxalanır, hər zaman üçüncü qüvvə axtarışındadır. Paris bunu yaxşı başa düşür və ona görə də özünü üçüncü qüvvə qismində Ermənistanın xidmətinə təqdim edir. Amma, əlbəttə, fransızların burada əsl məqsədi Ermənistanın deyil, Fransanın mənafeyidir. Çünki Afrikadan qovulan Fransa dünyaya göstərməlidir ki, o, “qara qitə”dən qovulsa da, dünyanın digər yerlərində, hətta yeni ərazilərdə söz sahibinə çevrilməkdədir. Bu minvalla dünyanın aparıcı ilk beş, yeddi, yaxud iyirmi ölkəsindən biri olduğunu sübut etmək istəyir.

**– Ermənistanın təxribatları səbəbindən son vaxtlar bölgədə vəziyyət xeyli gərginləşib. Baş verənlər yeni müharibə riski yaradırmı?**

– Bu gün baş verən proseslər üç il əvvəlki hadisələrə çox bənzəyir. Amma Ermənistan üç il əvvəl baş vermiş hadisələrdən nəticə çıxarmaq əvəzinə, yeni gərginliyə doğru gedirsə, deməli, onu bu yola istiqamətləndirənlər var. Çünki İrəvanın öz gücü hesabına belə bir təxribata getməsi ağılsızlıq olardı. Deməli, üçüncü qüvvələr var və onlar Fransa kimi iddialı dövlətlər ola bilər. Əlbəttə, bu cür təxribatların qarşılığında müharibə təhlükəsi birbaşa meydana çıxır. Çünki Azərbaycan özünə yönələn təhdidləri qəbul edə bilməz. Atılan hər bir təxribatçı addımın cavabı mütləq artıqlaması ilə verilməlidir.

Müharibə olarsa, ilk növbədə, Ermənistan 2020-ci il 10 noyabr tarixli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə məcbur edilə bilər. Yəni, Zəngəzur dəhlizinin açılmasına məcbur edilər, Qarabağ ərazisindəki 10 minə yaxın yaraqlının çıxarılması təmin olunar. Əgər bunu xoşluqla etməsələr, Azərbaycan erməni yaraqlılarını güc yolu ilə Qarabağdan çıxarmalı olacaq. Nəhayət, Qarabağda özünü yerli idarəçilik qurumu hesab edən saxta təsisatların rəhbərləri, ümumiyyətlə, Azərbaycanın ərazi bütövlüyünə qarşı fəaliyyət göstərmiş bütün şəxslər həbs edilib məsuliyyətə cəlb olunacaqlar... Müharibə olsa, onun nəticələri bunlar olacaq.

Ermənistanın hansısa müharibəyə dözmək üçün gücü yoxdur. Özünü kiçik təhlükədən belə qorumaq iqtidarında deyil. Ona görə də İrəvanın böyük iddialarla təxribata getməsi qeyd etdiyimiz kimi, çox ağılsız bir addım olardı. Bu məsələni, sadəcə, beynəlxalq müzakirəyə çıxarmaq xatirinə Azərbaycanı müharibəyə təhrik etmək Ermənistan üçün son addım olar və dövlətçiliyini birdəfəlik itirə bilər. Bu, reallıqdır. Əgər Ermənistan belə bir təxribata gedəcəksə, o zaman bütün beynəlxalq hüquq normaları və beynəlxalq qanunlar bizim tərəfimizdə olacaq.

***Səxavət HƏMİD***
***XQ***

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 319** **Bakı şəhəri, 9 sentyabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi haqqında” 1992-ci il 30 aprel tarixli 239 nömrəli, “Azərbaycan Respublikasında sülh və müharibə dövrlərində Fövqəladə hallarda əhalini mühafizənin əsas prinsipləri haqqında” 1992-ci il 28 dekabr tarixli 700 nömrəli, “Mülki müdafiənin təmin edilməsi haqqında” 1998-ci il 25 sentyabr tarixli 193 nömrəli, “Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə normativ hüquqi aktlar barədə” 1998-ci il 14 dekabr tarixli 237 nömrəli, “Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası”nın təsdiq edilməsi haqqında” 2010-cu il 8 iyun tarixli 108 nömrəli, “Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası”nın təsdiq edilməsi barədə” 2015-ci il 5 iyun tarixli 216 nömrəli, “2016-2020-ci illər üçün uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı”nın təsdiq edilməsi haqqında” 2015-ci il 1 dekabr tarixli 370 nömrəli və “Tibbi xidmətlərin göstərilməsi haqqında Müqavilə”nin Nümunəvi forması”nın təsdiq edilməsi barədə” 2020-ci il 20 mart tarixli 102 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Yanğın təhlükəsizliyi haqqında”, “Müflisləşmə və iflas haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında”, “Mülki müdafiə haqqında”, “Qrant haqqında”, “Hidrometeorologiya fəaliyyəti haqqında” və “Uşaq hüquqları haqqında” Azərbaycan Respub-likasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 809-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 30 aprel tarixli 239 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddələr 750, 756; 2005, № 6, maddə 541; 2009, № 2, maddə 144, № 9, maddə 738; 2014, № 1, maddə 57, № 6, maddələr 745, 747; 2019, № 1, maddə 153; 2022, № 4, maddə 390; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 iyul tarixli 244 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərara 1 nömrəli əlavə - “Azərbaycan Respublikası Dövlət orqanlarının fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə funksiyaları”nın “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti” hissəsinin mətnində “kütləvi informasiya vasitələrinin” sözləri “medianın” sözü ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş “Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi haqqında Əsasnamə”nin 17-ci hissəsində “kütləvi informasiya vasitələrindən” sözləri “mediadan” sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 28 dekabr tarixli 700 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 434; 2013, № 10, maddə 1193; 2021, № 9, maddə 1073) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında sülh və müharibə dövrlərində fövqəladə hallarda əhalini mühafizənin Əsas Prinsipləri”nin 4.2-ci bəndinin beşinci abzasında “verilişləri” sözü “proqramları” sözü ilə, 4.10-cu bəndinin ikinci abzasında “kütləvi informasiya vasitələrilə” sözləri “media ilə” sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 25 sentyabr tarixli 193 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 600; 2006, № 9, maddə 822; 2008, № 6, maddələr 584, 586; 2010, № 3, maddə 264, № 6, maddə 566; 2018, № 12 (II kitab), maddə 2736) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında fövqəladə hadisələrdən müdafiə sahəsində əhalinin hazırlanması Qaydaları”nın 1.9-cu bəndinin dördüncü abzasında və 4.3-cü bəndində “kütləvi informasiya vasitələrinin” sözləri “media subyektlərinin” sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 14 dekabr tarixli 237 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 804; 2005, № 1, maddə 49; 2014, № 1, maddə 57; 2017, № 4, maddə 627; 2021, № 5, maddə 522) 2 nömrəli əlavə - “Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə ödənişsiz və ödənişli məlumatların növləri”nin “Ödənişsiz məlumatlar” bölməsinin 6-cı hissəsində “kütləvi informasiya vasitələrinə” sözləri “media subyektlərinə” sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 8 iyun tarixli 108 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 553; 2015, № 12, maddə 1570; 2016, № 4, maddə 822; 2020, № 11, maddə 1412) ilə təsdiq edilmiş “Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası”nın 2.17-ci bəndində ismin müvafiq hallarında “kütləvi informasiya vasitələri” sözləri ismin müvafiq hallarında “media subyektləri” sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 789; 2016, № 3, maddə 599, № 5, maddə 955, № 11, maddə 1958; 2017, № 1, maddə 118; 2019, № 3, maddə 527; 2020, № 11, maddə 1390; 2021, № 9, maddə 1064, № 11, maddə 1278) ilə təsdiq edilmiş “Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası”nın 1.9-cu bəndində “kütləvi informasiya vasitələrinə” sözləri “media subyektlərinə” sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 1 dekabr tarixli 370 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1569) ilə təsdiq edilmiş “2016-2020-ci illər üçün uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 6.4.3-cü yarımbəndində aşağıdakı dəyişikliklər edilsin:

7.1. “Tədbirlərin adı” sütununda “Kütləvi informasiya vasitələri” sözləri “Media subyektləri” sözləri ilə əvəz edilsin;

7.2. “İcraçılar” sütununda “kütləvi informasiya vasitələri” sözləri “media subyektləri” sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 20 mart tarixli 102 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 363; 2021, № 4, maddə 395) ilə təsdiq edilmiş “Tibbi xidmətlərin göstərilməsi haqqında Müqavilə”nin Nümunəvi forması”nın 2.3.3-cü yarımbəndində “kütləvi informasiya vasitələrinə” sözləri “media subyektlərinə” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan XİN-in başsağlığı

**Azərbaycan Xarici İşlər Nazirliyi Liviyaya başsağlığı verib.**

XQ xəbər verir ki, bu barədə nazirliyin “X” səhifəsində paylaşım edilib.

Paylaşımda deyilir: “Liviyada böyük insan tələfatına səbəb olan güclü daşqınlarla bağlı dağıdıcı xəbər bizi dərindən kədərləndirdi. Həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, xəsarət alanlara isə tezliklə şəfa diləyirik. Bu çətin zamanda dualarımız sizinlədir”.

***XQ***

# Yalan məlumat yayan şəxs saxlanılıb

**Sosial şəbəkələrdə hərbçilərlə bağlı yalan məlumatlar paylaşan şəxslərlə əlaqədar Daxili İşlər Nazirliyi tərəfindən tədbirlər görülür.**

“Tik-Tok” platformasında feyk profillər vasitəsilə döyüş əməliyyatları və itkilər olması ilə bağlı yalan məlumatlar paylaşan şəxs – 1998-ci il təvəllüdlü Pərviz Vüqar oğlu İbrahimli polis əməkdaşları tərəfindən müəyyənləşdirilərək saxlanılıb.

Onun əməllərində inzibati xətanın tərkib əlamətləri olduğundan barəsində toplanan materiallar baxılması üçün məhkəməyə göndərilib.

***XQ***

# Naxçıvanda ilk aqrofestival



**Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə ölkəmizdə "Heydər Əliyev İli" çərçivəsində muxtar respublikada ilk dəfə aqrofestival keçirilib. Ölkəmizin digər regionlarından və xaricdən gələn mütəxəssislər, iş adamları, elmi-tədqiqat institutlarının əməkdaşları festivalda fəal iştirak ediblər.**

Naxçıvan Dövlət Milli Dram Teatrında aqrar festivalın iştirakларının da qatıldığı "Heydər Əliyevin kənd təsərrüfatının inkişafında rolu" mövzusunda konfrans keçirilib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin aqrar islahatlarından bəhs edən videoçarx nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli konfransın və Naxçıvanda ilk dəfə təşkil olunmuş aqrofestivalın önəmini qeyd edib və iştirakçılara uğurlar arzulayıb. Səlahiyyətli nümayəndə vurğulayıb ki, müstəqillik illərində ölkəmizdə ilk dəfə torpaq islahatına ulu öndərin rəhbərliyi ilə Naxçıvanda başlanıb, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlərin təməli qoyulub. Prezident İlham Əliyevin kənd təsərrüfatını yerli sektorun prioritet istiqamət elan etməsindən sonra ölkəmizdə aqrar sahə sürətlə inkişaf edib və biz bu uğurları Naxçıvan Muxtar Respublikasında da aydın görürük.

Muxtar respublikanın kənd təsərrüfatının iqtisadiyyatın və əhalinin məşğulluğunun əsas sahəsi olduğunu diqqətə çatdıran Fuad Nəcəfli bildirib ki, ötən 30 ildə Naxçıvanda digər sahələr kimi kənd təsərrüfatı sahəsində də dövlətin yaratdığı imkanlardan və göstərdiyi dəstəkdən səmərəli istifadə olunmayıb, sui-istifadə hallarına yol verilib. Cari ilin ötən dövründə bu sahədəki mövcud vəziyyət təhlil edilib, problemlərin həllinə başlanılıb, torpaqların su təminatı ilə bağlı məsələlər diqqətdə saxlanılıb.

Milli Məclisin deputatı, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Heydər Əliyev İli" çərçivəsində keçirilən tədbiri ulu öndərin əziz xatirəsinə göstərilən dərin hörmət və ehtiram, onun aqrar siyasətinin öyrənilməsinə zəruri maraq kimi dəyərləndirib. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi idarə heyətinin sədri Orxan Məmmədov KOBİA xətti ilə muxtar respublikada həyata keçirilən tədbirləri diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini Xəyalə Dadaşova muxtar respublikada aqrar sahədə aparılan islahatlardan bəhs edib, həyata keçiriləcək layihələrdən danışıb. Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı baş konsulu Asip Kaya türkiyəli investorların orqanik Naxçıvan məhsullarının istehsalına və ixracına xüsusi dəstək göstərməyə maraqlı olduqlarını diqqətə çatdırıb.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının idarəetmə mütəxəssisi Namiq Məmmədov isə bildirib ki, təmsil etdiyi ofis növbəti ildən Naxçıvanda fermerlərə dəstək layihələri icra edəcək. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin sektor müdiri Ləman Əlizadə orqanik Naxçıvan məhsullarının brendləşdirmə fəaliyyəti barədə məlumat verib.

Sonra "Orqanik Naxçıvan" loqotipi təqdim olunub, "Orqanik Naxçıvan" məhsulları ilə bağlı animasiyalı video nümayiş etdirilib. Naxçıvanda qablaşdırılmış orqanik məhsullara baxış keçirilib.

***

"Sahil parkı"nda festivalın açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini Xəyalə Dadaşova qonaqları salamlayıb, ulu öndərin ölkəmizdə kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirdiyi tarixi tədbirlərdən danışıb. Sonra qonaqlar aqrofestival münasibətilə təşkil edilən sərgi ilə maraqla tanış olublar.

Aqrofestival günlərində 45 şirkətin və 55 ailə təsərrüfatının əhatə edən müxtəlif kənd təsərrüfatı texnikası, toxum, gübrə, pestisid və digər istehsal vasitələrinin, o cümlədən, kənd təsərrüfatı məhsullarının nümayişi və satışı həyata keçirilib.

***

Festival çərçivəsində "Orqanik aqromədəniyyə baxış: siyasət, çağırışlar və gələcək trendlər" və "Orqanik kənd təsərrüfatı və ekoloji tarazlıq" mövzularında panel iclasları təşkil olunub.

Festivalda muxtar respublikanın kənd təsərrüfatı mütəxəssisləri, dövlət qurumlarının əməkdaşları, yerli və xarici sahibkarlar iştirak ediblər.

*Səbuhi HƏSƏNOV*
*Naxçıvan*

**Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi Azərbaycan Oftalmoloqlar Cəmiyyəti ilə birgə "Regionlarda oftalmologiyanın aktual məsələləri" mövzusunda elmi seminar keçirmişdir. Mərkəzin direktoru, professor Elmar Qasımovun rəhbərliyi ilə qurumun Şəki filialında təşkil edilən seminarın məqsədi region həkimləri ilə oftalmologiyaya dair qarşılıqlı fikir və təcrübə mübadiləsinin aparılmasının təmin edilməsi olmuşdur.**

# Oftalmoloqların Şəki seminarı



Çıxışlar zamanı oftalmoloqlar öz bilik və praktik bacarıqlarını bölüşmüş, həmçinin maraqlı təkliflər səsləndirmişlər. Seminarda həkim-oftalmoloqlardan Faiq Quliyev "Akademik Z.Əliyeva adına MOM Şəki filialının regionda rolu", "Gecikdirilmiş kataraktalar və baş verə biləcək fəsadlar", Sona İbrahimova "Qapalı bucaqlı qlaukoma", Elsevər Həmidov "Şəki filialında vitreoretinal xəstəliklərin müalicəsi" mövzularında məruzələr etmişlər. Tibb üzrə fəlsəfə doktorları Ruhəngiz Balayevanın "Göz qapaqlarının bədxassəli törəmələri", Mirana Mirişovanın "Kataraktanın ekstraksiyası əməliyyatından sonrakı qalıq refraksiyanın eksimer lazerlə korreksiyası", həkimlər Humay Bayramovanın "Göz travmalarına düzgün yanaşma taktikası", Rövşən Rəcəblinin "Buynuz qişa xəstəlikləri və keratoplastika", Lalə Məmmədovanın "Şəki şəhərində çəpgözlük diaqnozu ilə aparılan müayinə və müalicələrin nəticəsi" kimi mövzularda çıxışları maraqla qarşılanmış və geniş müzakirə edilmişdir.

Mərkəzin direktor müavini Ceyhun Nəzərli, bölmə müdiri Yazgül Abdiyeva və region həkimləri də seminarda iştirak etmişlər. Mərkəzin elmi-məlumat, tədris və təşkilati-metodik bölməsindən bildirmişlər ki, Beynəlxalq standartlara cavab verən, müasir diaqnostik avadanlıqlarla təchiz olunmuş Şəki filialı 2019-cu il oktyabrın 26-da açılmışdır. Burada oftalmologiyanın bütün sahələrini əhatə edən yüksək ixtisaslı mütəxəssislər regiondakı əhaliyə daha keyfiyyətli, əlçatan və operativ tibbi xidmət göstərirlər.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Bişkek Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir

**Qarabağda baş vermiş hadisələrlə əlaqədar olaraq Qırğız Respublikası bir daha Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini bildirir.**

Bu barədə Qırğızıstan Xarici İşlər Nazirliyinin bəyanatında deyilir.

"Beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığını qətiyyətlə müdafiə edən Qırğız Respublikası bütün məsələlərin BMT Nizamnaməsinə və beynəlxalq hüququn fundamental prinsip və normalarına uyğun olaraq siyasi və diplomatik vasitələrlə həllinə çağırır", – nazirlik qeyd edib.

*XQ*

**COVID-19-un yeni variantları olan "Eris" (EG.5) və BA.2.86-nın yayılması bir çox ölkədə koronavirus narahatlığını yenidən gündəmə gətirib. Pandemiya keçmişdə qalmış kimi görünsə də, reallıq budur ki, son mutasiyaya uğramış ştamlar səbəbindən yeni yoluxma halları artmaqdadır.**

"Eris" ölümcül virus olmasa da, daha sürətlə yayılması və yoluxuculuğunun digər ştamlara nisbətən artıq olması səbəbindən Ümumdünya Səhiyyə Təşkilatını (ÜST) ciddi narahat edir. Hazırki vəziyyətlə bağlı təşkilat bütün dünya dövlətlərini erkən və ciddi tədbirlər görməyə çağırıb.

**öskürək, ümumi halsızlıq, həmçinin burun axması, baş ağrısı və əzələ ağrıları daxildir. Bu varianta yoluxanlar xəstəliyi soyuqdəymə, qrip və ya pnevmoniya kimi keçirirlər.**

ÜST-nın koronavirusla mübarizə komandasının rəhbəri Maria Van Kerkhove verdiyi açıqlamada digər bəti profilaktikası, həm aşkarlanması, həm də müalicəsi üçün bütün imkanlar vardır və müvafiq qurumlar epidemioloji prosesləri diqqətlə izləməkdədirlər.

Hər kəs, xüsusilə, immun sistemi zəif insanlar sağlamlıqlarına daha ciddi yanaşmalıdırlar. 65-dən yuxarı yaşı olanlar həmişəki kimi risk qrupuna daxildir. Verilən məlumatlara görə, həmin ştama yoluxanlar arasında 65 yaşdan yuxarı olanların sayı daha çoxdur. Bu da immun sisteminin zəif olması ilə bağlıdır. Doğrudur, "Eris" variantının ölkəmizdə aşkarlanmadığına dair

# Koronavirus gerimi qayıdır?

## ÜST "Eris"in yayılmasından narahatdır



ÜST tərəfindən COVID-19 virusunun yeni ştamı (EG.5) "nəzarətdə saxlanılan variantlar" siyahısından çıxarılaraq "diqqət tələb edən"lər sırasına daxil edilib. Bu dəyişikliyə səbəb "Eris" olaraq adlandırılan EG.5 ştamının rastgəlmə tezliyinin dünya miqyasında gün keçdikcə artmasıdır. ÜST-nın məlumatına görə hazırda virus sürətlə yayılmaqda davam edir.

Təşkilat, xüsusilə, ABŞ başda olmaqla, Avropa və Asiya ölkələrində geniş yayılan "Eris" ştammı ilə bağlı yeni hesabat dərc edib. Hesabatda bildirilir ki, EG.5 ("Eris") COVID-19-un omikron variantının alt növüdür və bütün dünyada yayılan digər variantlarla sıx bağlıdır. Statistikaya nəzər salsaq, avqust ayında 51 ölkədən 7 minə yaxın şəxsin məhz sözügedən varianta yoluxduğu bildirilir. Lakin quruma görə, bu ştamın ictimai sağlamlıq riski çox böyük deyil. Bu da özündən əvvəlki ştamlara bənzərliyi ilə bağlıdır.

**Cons Hopkins Universitetinin Molekulyar Mikrobiologiya və İmmunologiya Departamentinin professoru Endryu Pekoş bildirib ki, EG.5 ştamı simptomlarına görə digər variantlara bənzəyir. Bura qızdırma,** omikron alt seriyaları ilə müqayisədə EG.5-in şiddətində heç bir dəyişiklik müşahidə edilmədiyini qeyd edib.

Qeyd edək ki, ÜST-nın son bəyanatında qurumun hazırda 3 "izlənməli olan" və 7 "nəzarət altında saxlanılmalı olan" COVID-19 variantlarını diqqətdə saxladığı bildirilib. Buna baxmayaraq qeyd olunan ştam hazırda ABŞ-da dominant ştam olaraq elan edilib. Aşkarlanmış xəstələrin 17 faizi Amerika, 15 faizi isə İngiltərənin payına düşür.

**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov ölkəmizdə virusa yoluxma hallarının artması səbəbindən insanlar arasında yaranan narahatlıqla bağlı dedi:**

– Hazırda dünyanın bir çox ölkələrində koronavirusun yeni altnövünə yoluxma hallarının sayı artmaqdadır. Azərbaycanda bu mutant variantın dövr etməsinin sübutu olmasa da vaxt keçdikcə ölkəmizdə yayılacağı istisna deyil. Ümumiyyətlə koronavirus dalğalarla yayılan infeksiyadır. Havaların soyuması insanların bağlı məkanlarda daha çox toplanması və sıx təmasların artması və s. kimi faktorlar bütün hava-damcı infeksiyaları kimi koronavirusun da yayılması üçün münbit şərait yaradır.

Hazırda ölkədə epidemioloji durum yoluxma hallarında cüzi, əhəmiyyətsiz artımın olmasına baxmayaraq stabildir. Koronavirusun bütün növlərindən, o cümlədən, sonuncu mutant altnövlərdən qorunmaq tədbirləri eynidir. Yeni pandemiya dönəmində əhalinin riayət etdiyi qaydalara yoluxma halları əhəmiyyətli artdıqca əməl olunmalıdır. Risk qrupuna daxil olan insanların isə növ-



rəsmi açıqlama verilsə də, infeksiyalar sərhəd tanımır. Digər yandan, qarşıdan payız mövsümü gəlir. Məlum məsələdir ki, həmin mövsüm respirator infeksiyaların baş qaldırdığı və daha sürətlə yayıldığı dövrdür. Odur ki, hər kəsə üç ildir tövsiyə edilən gigiyena qaydalarına əməl edilməsi, özündə əlamətlər hiss edənlərin təcrid olunması və test verərək yoluxub-yoluxmadığını müəyyənləşdirməsi, vaksinasiyadan keçməyənlərin isə peyvənd olunması məsləhət görülür.

Bir sözlə, əvvəla, yoluxmamaq, iş-işdən keçəndən, yəni yoluxandan sonra xəstəliyi daha ağır keçirməmək üçün vaxtında tədbirlər görmək daha məsləhətlidir. Sözügedən xəstəlikdən qorunmaq üçün ilkin olaraq COVID-19-un buster dozası vurulmalıdır. Daha sonra şəxsi gigiyena qaydalarına əməl etmək, təmas olunan yerlərin tez-tez dezinfeksiyası olunması məsləhət görülür. İmmun sistemini yüksəltmək üçün sağlam qidalanmaq, təmiz havada gəzmək, idmanla məşğul olmaq lazımdır. Əhalinin sıx olduğu yerlər, qapalı məkanlardan ehtiyac olmadığı təqdirdə uzaq durulmalı, məcburiyyət varsa, tibbi maskadan istifadə edilmədir.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# İnformşura: Feyk xəbərlərlə mübarizədə səylərimizi birləşdirməliyik



**Sentyabrın 12-də Bişkekdə MDB ölkələri Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının (İnformşura) XXIX iclası keçirilib.**

İclasda AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev, Rusiyanın TASS agentliyinin baş direktoru Andrey Kondraşov və birinci müavini Mixail Qusman, Qırğızıstanın KABAR agentliyinin baş direktoru Mederbek Şermetaliyev, Belarusun BelTA agentliyinin baş direktoru İrina Akulina, həmçinin UzA (Özbəkistan) və TDH (Türkmənistan) agentliklərinin nümayəndələri iştirak ediblər.

Tədbirdə Qırğızıstan Prezidentinin mətbuat xidmətinin rəhbəri Erbol Sultanbayev informasiya məkanında baş verən dəyişiklikləri qeyd edərək bu baxımdan aparıcı xəbər agentliklərinin sıx əməkdaşlığının önəmini artdığını vurğulayıb.

İnformşuranın sədri, TASS agentliyinin baş direktoru Andrey Kondraşov qurum üzvlərinin feyk xəbərlərlə mübarizədə səylərini birləşdirməsinin vacib olduğunu söyləyib

AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev agentliyin beynəlxalq əlaqələrindən danışıb, tərəfdaşlarla xəbər mübadiləsini genişləndirməkdə maraqlı olduğunu diqqətə çatdırıb.

***

Həmin gün Qırğızıstanın Baş naziri Akılbek Japarov MDB xəbər agentlikləri rəhbərləri ilə görüşüb.

Görüş əsnasında Baş nazir Akılbek Japarov İnformşuranın xalqlar arasında dostluq və mehriban qonşuluq əlaqələrinin inkişafına töhfə verdiyini qeyd edib. O, MDB-nin aparıcı xəbər agentliklərinin informasiya mühitinin sağlam qalmasında rolunun yüksək olduğunu vurğulayıb.

İnformşuranın sədri, TASS agentliyinin baş direktoru Andrey Kondraşov qurum haqqında danışıb və bu gün Bişkekdə keçiriləcək iclasın gündəliyi barədə məlumat verib.

Qeyd edək ki, Bişkekdə İnformşuranın növbəti iclası keçiriləcək. İnformasiya agentliklərinin rəhbərləri qarşıda duran vəzifələri və birgə layihələri müzakirə edəcəklər.

*XQ*

# Macarıstanla əlaqələrimiz Avrasiya üçün də önəmlidir

## Bu ölkənin 21 şirkəti respublikamıza 1,1 milyard dollar sərmayə yatırıb

(əvvəli 1-ci səhifədə)

Azərbaycan–Macarıstan iqtisadi əməkdaşlığından bəhs edərkən diqqətçəkən bir məqama da diqqət yetirək. Bununla bağlı əvvəlcə onu deyək ki, ölkəmiz bu gün özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. Bu məsələdə həm respublikamız, həm də Avropa maraqlıdır. Çünki tərəflərdən biri özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı qarşılamağa, digəri isə öz enerji təhlükəsizliyinin qorunmasını reallaşdırmağa ehtiyac duyur.

Azərbaycanın enerji siyasətinin digər mühüm komponenti Avropaya "yaşıl enerji"nin ixracı ilə bağlıdır. Ölkəmiz Avropanın mühüm "yaşıl enerji" təchizatçısına çevrilməyi planlaşdırır. Nəhəng bərpaolunan enerji potensialımız ölkəmizin bu sahədə də həlledici rol oynamasına imkan yaradır.

Azərbaycanla Macarıstan arasında strateji münasibətlərin dinamik inkişafı getdikcə dərinləşib. Dost ölkə son illərdə Şərqi və Mərkəzi Avropada respublikamızın əsas tərəfdaşlarından kimi tanınıb. Bu, statistik göstəricilərdə də öz ifadəsini tapıb. Belə ki, 2022-ci ildə ölkələrimiz arasındakı ticarət dövriyyəsi 26 faiz artaraq 47,5 milyon dollara çatıb. Cari ilin ilk yarısında isə tərəflər arasında 24 milyon dollarlıq ticarət qeydə alınıb.

İki ölkə arasında ticarət dövriyyəsinin böyük hissəsi idxalın payına düşür. Başqa sözlə, Azərbaycan–Macarıstan əməkdaşlığında 45 milyon dollar idxal, 2,3 milyon dollardan bir qədər artıq isə ixrac təşkil edir.

Yeri gəlmişkən, burada bir məqamı da xatırlatmaq istərdik. Belə ki, hazırda iki ölkə arasında ticarət dövriyyəsinin idxal və ixrac nisbətlərinin dəyişəcəyi gözlənilir. Bu əminliyi isə ötən ilin sonunda Buxarestdə Macarıstan–Ruminiya, Gürcüstan və Azərbaycanın birgə imzaladığı sənədlə respublikamızda istehsal olunacaq elektrik enerjisinin Qara dənizin dibi ilə Macarıstana qədər çatdırılması layihə–konsepsiyasının mövcudluğu yaradır.



Qara dəniz sualtı kabel layihəsinin həyata keçirilməsi ilə bağlı artıq texniki və maliyyə məsələləri nəzərdən keçirilir. Bununla da, 1200 kilometr uzunluğunda dünyanın ən uzun sualtı kəmərinin tikintisi planlaşdırılır. Beləliklə, Azərbaycan qazının Avropaya, eyni zamanda, Macarıstana nəqli nəticəsində "mavi yanacağ"ın həcminin getdikcə artması, respublikamızda istehsal ediləcək elektrik enerjisinin Macarıstana ixracı iki ölkə arasındakı ticarət dövriyyəsinin kəskin şəkildə artacağını şərtləndirir.

Sözügedən layihənin implementasiyası region və Avropa bazarları arasında elektrik enerjisinin ixracı imkanlarının genişləndirilməsi, eləcə də Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin külək enerjisi potensialı sayəsində Avropanın enerji təhlükəsizliyinin diversifikasiyası baxımından mühüm rol oynayacaq.

Bu gün ölkələrimiz arasında iqtisadi əlaqələrdə davamlı inkişaf özünü qabarıq büruzə verir. Geniş iqtisadi potensiala malik bu dövlətlərin iqtisadi əməkdaşlığının daha da genişlənməsində imzalanmış strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə, habelə iqtisadi sahəni əhatə edən bir sıra digər sənədlər əhəmiyyətli baza rolunu oynayır. Azərbaycanda 21 Macarıstan investisiyalı şirkətin fəaliyyət göstərməsi, bu ölkənin respublikamıza 1,1 milyard ABŞ dolları məbləğində, Azərbaycanın isə dost ölkəyə 18,1 milyon ABŞ dolları həcmində investisiya yatırması bunun məntiqi nəticəsidir.

Göründüyü kimi, belə bir artım tendensiyasına baxmayaraq, Azərbaycan ilə Macarıstan arasında iqtisadi əlaqələrin qeyri-neft sektoru üzrə daha da inkişaf etdirilməsi potensialı kifayət qədər böyükdür. Hər iki ölkənin birgə sərmayə qoyuluşlarını, idxal və ixrac əməliyyatlarını genişləndirmək imkanları yüksək qiymətləndirilir. Bu baxımdan dost ölkəyə qarşılıqlı rəsmi səfərlər iki dövlət arasında iqtisadi əlaqələrin daha da dərinləşməsinə xidmət edir.

Azərbaycan–Macarıstan arasında ötən illər ərzində nəqliyyat, tranzit və logistika sahələrində də əməkdaşlıq daim diqqətdə saxlanılıb. Bu məqsədlə 2022-ci ildə Ələt Azad İqtisadi Zonası və Macarıstan İxracın Təşviqi Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb. Eyni zamanda, dəmir yolları vasitəsilə artıq Macarıstandan Azərbaycana, həmçinin əks istiqamətə yüklərin ötürülməsinə başlanılıb.

Hazırda Macarıstan şirkətləri tərəfindən işğaldan azad edilmiş Azərbaycan ərazilərində aparılan bərpa-quruculuq işlərinə böyük maraq göstərilir, bununla bağlı ölkəmizə müvafiq layihələr təqdim edilir. Döst dövlət düşməndən təmizlənən torpaqlarımızda minatəmizləmə əməliyyatında da dəstəyini əsirgəmir. Macarıstanın bu məqsədlə Azərbaycana 25 min avro ianə etməsi də bunun bariz ifadəsidir.

Macarıstan Azərbaycan ilə enerji əməkdaşlığını genişləndirmək istəyən Avropa ölkələrindən biridir. Macarıstanın "MVM CEEnergy", Azərbaycanın isə SOCAR şirkətləri arasında imzalanan müqaviləyə əsasən, respublikamız 2023-cü ilin sonunadək dost ölkəyə 100 milyon kubmetr qaz nəql etməyi nəzərdə tutur. Bütövlükdə Macarıstan Azərbaycandan ildə 2 milyard kubmetr qaz idxal etməyi planlaşdırır. Yunanıstan–Bolqarıstan İnterkonnektoru (IGB) istifadəyə verildikdən sonra daha 5 Avropa ölkəsinin, o cümlədən Macarıstanın da Azərbaycan qazını idxal etmək imkanlarının genişlənməsi bu göstəricinin reallaşacağına əminlik yaradır.

Cənub Qaz Dəhlizinin (CQD) yeni elementinə çevrilən IGB-nin ötürmə gücünün 3,5 milyard kubmetrdən 5 milyard kubmetrədək artırılması Macarıstan, Serbiya, Slovakiya, Ruminiya, Şimalı Makedoniya kimi ölkələrin də Azərbaycandan daha çox qaz almasına və ya yeni enerji əməkdaşlığına başlamasına imkan yaradır.

Azərbaycan və Macarıstan arasındakı sıx dostluq əlaqələri hər iki ölkə ilə yanaşı, Avrasiya qitəsi üçün də çox böyük önəm daşıyır. Respublikamız Avrasiyanın enerji xəritəsini dəyişən ölkədir. Macarıstanla da bu sahədə ölkəmizin geniş əməkdaşlığı mövcuddur. Macarıstan Azərbaycan qazını idxal etməklə bərabər, digər ölkələrə ötürülməsində tranzit ölkə rolunu da oynayır.

Enerjidən əlavə, ölkələrimizin nəqliyyat, tranzit, logistika, minatəmizləmə və digər sahələrdə də əməkdaşlığı getdikcə inkişaf edir. Keçən il Ələt Azad İqtisadi Zonası və Macarıstanın İxracın Təşviqi Agentliyi arasında Anlaşma Memorandumu imzalanması, dost ölkənin "Wizz Air" aşağı büdcəli aviaşirkəti Bakı ilə Budapeşt arasında birbaşa reyslər həyata keçirməsi, macar şirkətləri tərəfindən Azərbaycanın işğaldan azad olunan ərazilərində yenidənqurma işlərində iştiraka böyük maraq göstərilməsi bunun bariz ifadəsidir.

***Vaqif BAYRAMOV***
***XQ***

## 8 ayda ÜDM istehsalı 80 milyard manatı ötüb

**Cari ilin yanvar-avqust aylarında Azərbaycanda 80 milyard 96,4 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,8 faiz çoxdur.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, hesabat dövründə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,1 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 2,6 faiz artıb. ÜDM istehsalının 42,4 faizi sənaye, 9,5 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 6,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 4,8 faizi tikinti, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə sahələrinin, 17,6 faizi isə digər sahələrin payına düşüb. 8 ay ərzində məhsula və idxala xalis vergilər ÜDM-in 9,4 faizini təşkil edib.

Ölkə üzrə əhalinin hər nəfərinə düşən ÜDM 7895 manata bərabər olub.

## Əbu-Dabi neftçiləri Səngəçal terminalında

**Əbu-Dabi Milli Neft Şirkətinin (ADNOC) bir qrup yüksək səviyyəli nümayəndəsi Səngəçal terminalına səfər edib.**



BP-nin yaydığı məlumatda deyilir ki, qonaqlar əməliyyat sahəsinə, Xəzər Enerji Mərkəzinə, "Şahdəniz" və "Azəri Mərkəzi Şərqi" (ACE) platformalarının birgə idarəetmə otağına baş çəkiblər. Həmçinin BP əməkdaşları tərəfindən onlara terminalın Azərbaycanın enerji layihələrinin icrasındakı əhəmiyyəti, BP-nin operatoru olduğu layihələrin hazırkı vəziyyəti və əməliyyatlarda müasir texnologiyaların tətbiqi haqqında məlumat verilib.

## Naxçıvanın təbii sərvətləri yenidən qiymətləndirilir

**Naxçıvandakı filiz və qeyri-filiz yataqlarının 30-nun texniki qiymətləndirilməsi tamamlanb. Bu fikri Naxçıvan Şəhər İcra Hakimiyyətində mədənçilik və enerji sektorunda çalışan türkiyəli sahibkarlarla keçirilən görüşdə muxtar respublikanın ekologiya və təbii sərvətlər nazirinin müavini Xanlar Mustafayev bölgənin mədən ehtiyatları haqqında məlumat verərkən bildirib.**



Qeyd olunub ki, Naxçıvan zəngin təbii ehtiyatlara malikdir. Bunlardan filiz və qeyri-filiz yataqları investisiyalar üçün cəlbedicidir. Ümumilikdə, 66 yataqdan 11-nin filiz, 55-nin isə qeyri-filiz yataqları olduğunu vurğulayan nazir müavini bu yataqların 30-nun texniki qiymətləndirilməsinin tamamlandığını bildirib.

***XQ***

# Azərbaycanda "yaşıl" avtomobillər çoxalır

## Ölkəmiz elektromobil istehsalçısına da çevrilə bilər



(əvvəli 1-ci səhifədə)

Bir maraqlı məqam da ondan ibarətdir ki, hazırda dünyanın avtomobil yollarında elektriklə işləyən nəqliyyat vasitələrinin yarıdan çoxu Çində idarə olunur. Belə ki, hazırda bu ölkədə satılan olan hər 100 avtomobildən 15-ni elektromobillər təşkil edir. Eyni zamanda, qlobal akkumulyator istehsalında xüsusi üstünlüyə malik Çin, həm də 2022-ci ildə dünya üzrə elektromobillərin satışında da 60 faiz paya sahibi olub.

Yeri gəlmişkən, bu yaxınlarda İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Çinin "Jiubai Import & Export" şirkəti arasında Azərbaycanda "yaşıl enerji" və elektrik avtomobillərin istehsalı haqqında müzakirə aparılıb. Bu barədə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov "X" sosial şəbəkə hesabında məlumat verib. Agentlik sədrinin sözlərinə görə, ətraf mühitin qorunmasının vacibliyi baxımından sözügedən sahələrdə investisiyaların cəlb olunması prioritet məsələlərdəndir.

Bütövlükdə isə, Azərbaycanda elektriklə işləyən avtomobillərə maraq getdikcə artır. Elə son illər ölkəmizdə elektromobillərin idxalında baş verən artım tendensiyası da bunu deməyə əsas verir. 2023-cü ilin ilk ayından etibarən isə bu proses bir qədər də sürətlənib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyul aylarında Azərbaycana 61 milyon 362 min ABŞ dolları dəyərində 1492 ədəd elektromobil gətirilib. Bu da əvvəlki ilin eyni dövründəkindən 1306 ədəd və ya 8 dəfə çoxdur. Ekspertlər isə hesab edirlər ki, ilin sonunadək ölkəyə idxal olunan elektromobillərin sayında 10 dəfədən çox artım baş verə bilər.

Azərbaycana idxal edilən elektromobillərin sayında müşahidə olunan sürətli artım, əsasən, bu tip maşınların gömrük rüsumlarından tamamilə azad edilməsi və elektrikdoldurma məntəqələrinin sayının çoxalması ilə bağlıdır. Eyni zamanda, elektrikdoldurma məntəqələrinin yaradılmasında istifadə olunan cihaz və avadanlıqların idxalının da gömrük rüsumlardan azad edilməsi müsbət məqamlardan biri kimi diqqət çəkir. Bütün bunlar isə son nəticədə, ölkənin nəqliyyat parkında ekoloji cəhətdən təmiz avtomobillərin sayının artmasına gətirib çıxarır. Elə müasir dünyanın karbon emissiyalarının sıfıra endirilməsi ilə bağlı çağırışına birincilər sırasında qoşulan Azərbaycan Respublikasının qarşıya qoyduğu məsələlərdən biri də məhz bu amillə bağlıdır.

Yeri gəlmişkən, ölkə Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də təmiz ətraf mühitə nail olmaq və "yaşıl artım" ölkəsinə çevrilmək kimi hədəflər müəyyənləşdirilib. Adıçəkilən sənəddə ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin təşviqini gücləndirmək üçün də bir sıra tədbirlər nəzərdə tutulur. O ki, qaldı Azərbaycanın avtomobil sənayesində elektromobillərin istehsalına, ekspertlər bunu da tam real hesab edirlər. Onların qənaətinə görə, ölkəmizdə "yaşıl" dövrün avtomobillərinin istehsal üçün imkanlar yetərincədir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi

**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



Məlum olduğu kimi, bu il hökumət Azərbaycanda elektrik avtomobillərinin idxalında güzəştlər tətbiq etməyə başladı. Bunun nəticəsidir ki, artıq yerli bazarda onların sayının sürətlə artması müşahidə olunur. Bəs, bu tip avtomobilləri bazarda almaq nə dərəcəsdə rasioanal addımdır? Elektromobil bazarı üzrə ixtisaslaşan təhlilçilərin qənaətinə görə, 2025-ci ildən sonra tam yeni batareya ilə işləyən elektrik avtomobillərinin istehsalına başlanılacaq. Həmin nəqliyyat vasitələri tutumunun çox, çəkisinin isə az olması ilə seçilir.

Eyni zamanda, 2027-ci ilə qədər isə elektrik avtomillərinin qiymətinin eyni xarakteristikalı daxiliyanma mühərrikli avtomobillərlə bərabərləşəcəyi gözlənilir. Bu da onu deməyə əsas verir ki, 2030-cu ilədək dünyada satılan hər iki avtomobildən biri elektrikli olacaq.

"Gartner" tədqiqat şirkəti proqnozlaşdırır ki, 2023-cü ilin sonunadək minik elektrik avtomobillərinin (elektrik mühərrikləri və plug-in hibridləri ilə birgə) qlobal bazarda satışı artaraq 15 milyon həddini keçəcək. 2024-cü ildə isə artımın 20 faiz təşkil edərək 17,9 milyon avtomobilə çatacağı gözlənilir. Bütövlükdə isə, elektrik avtomobillərinin satışı, yük maşınları və avtobuslar da daxil olmaqla bu il 15,4 milyonu (34 faiz artım), gələn il isə 18,45 milyonu (20 faiz çox) keçəcək.

"Gartner"in yaydığı məlumatda o da bildirir ki, yüngül elektrik mühərrikli avtomobillərin (BEV) tədarükü ötənilki 9 milyondan 2023-cü ildə təxminən 11 milyona, plug-in hibrid avtomobillərinin (PHEV) satışı isə 3 milyondan 4 milyona yüksələcək. Ümumilikdə isə, analitiklər 2030-cu ilə qədər elektrik avtomobillərinin qlobal bazarda satılan ümumi avtomobillərin yarıdan çoxunu təşkil edəcəyini proqnozlaşdırırlar. Gözləntilərdən biri də 2027-ci ilə qədər BEV-in orta qiymətinin oxşar ölçü və konfiqurasiyaya malik daxiliyanma mühərrikli avtomobilin qiyməti ilə eyniləşəcəyi ilə bağlıdır.

Yeri gəlmişkən, işgüzar "Forbes" jurnalı isə elektrikli avtomobillərə qlobal bazarda yatırılan investisiyaların 2022-ci ildə 425 milyard dollar olduğunu göstərir. Bu da 2021-ci ilə nisbətən 50 faiz çoxdur. Bununla belə, 2030-cu ilə qədər elektrik enerjisi istehsalı və şəbəkə tutumu, qiymətindən asılı olmayaraq, elektrikli nəqliyyat vasitələrinin kütləvi qəbulunu məhdudlaşdıran amillər ola bilər.

"Gartner"in baş analitiki Jonathan Davenportun fikrincə, ölkələr EV sürücülərini elektrik enerjisinin pik istehlak dövrlərindən kənarda şarj etməyə təşviq etmək üçün (endirimlərin tətbiqi) tədbirlər görmədikcə elektrikli nəqliyyat vasitələrinə keçid həm istehsal gücünə, həm də paylama infrastrukturuna əlavə gərginlik yarada bilər.

Beynəlxalq Enerji Agentliyi daxiliyanma mühərriklərindən elektromobillərə keçidin 2030-cu ilə qədər qlobal neft tələbini gündə, ən azı, 5 milyon barel azaldacağını proqnozlaşdırır.

13 sentyabr 2023-cü il, çərşənbə Xalq qəzeti

# Ermənilərin türk torpaqlarında dövlət yaratmaq tarixçəsi

**Qərbi Azərbaycan ərazisində ermənilərin orta əsrlərdən başlayaraq, məskunlaşması, Qərb dövlətlərinin, eləcə də Çar Rusiyasının köməyi ilə burada özlərinə dövlət yaratmaq səyləri barədə tarixi həqiqət bu toplumun Qafqazda, guya, aborigen xalq olması barədə cəfəng və uydurmaları birmənalı olaraq təkzib və ifşa edir.**

Ermənişünas tarixçi, fəlsəfə doktoru, Dövlət mükafatçısı Nazim Mustafanın həmkarları ilə birgə və ayrılıqda apardığı araşdırmalar bu baxımdan tutarlı faktların zənginliyi və elmiliyi ilə seçilir. Ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq səyləri ilə bağlı tədqiqatından çıxış edən alim XQ-yə bildirdi:

– İndiki Ermənistan və ona bitişik ərazilərdə pərakəndə halda yaşayan ermənilərin öz müstəqil dövlətlərini yaratmaq arzusuna ilkin təkan verən amillərdən ən başlıcası XVI–XVII əsrlərdə Səfəvilərlə Osmanlı Türkiyəsi arasında uzun sürən müharibələr olmuşdur. Səfəvi hökmdarları Türkiyə ilə mübarizədə bir sıra Avropa ölkələrinin köməyinə arxalanmaq üçün xristian agentlərdən–erməni tacirləri və din xadimlərindən istifadə etmişdilər.

Erməni tacirləri Səfəvilər dövlətinin xarici ticarət əlaqələrinin genişlənməsində xüsusi rol oynayırdılar. Şahlığın ərazisində olan erməni kilsələrinə xüsusi güzəştlər verilmişdi. Onlar vergiləri yerli hakimlərə deyil, birbaşa şah xəzinəsinə verirdilər. Erməni tarixçiləri I Şah Abbas haqqında nə qədər hədyanlar yağdırsalar da, fakt budur ki, 1605-ci ildə onun fərmanı ilə şahlığın ərazisində pərakəndə yaşayan ermənilərin yığcam halda yaşamaları üçün xüsusi ərazilər ayrılmışdı.

Bu məqsədlə İsfahan şəhərinə yaxın ərazidə Yeni Culfa şəhəri salınmış, burada yaşayan ermənilər üçün kilsə və monastır inşa edilmiş, onların xarici ticarətlə məşğul olmaları üçün geniş imtiyazlar verilmişdi. Hətta I Şah Abbas bu tikililər üçün xəzinədən pul ayırmış və bu işi mükafatlandırmışdı.

Tezliklə ermənilər bir sıra Avropa ölkələri ilə, ilk növbədə, İtaliya, Fransa, Prussiya ilə ticarət əlaqələri yaratmışdılar. Yeni Culfa tacirləri Hindistanın əksər böyük şəhərlərində kontorlar təşkil etmişdilər. Erməni tacirləri varlandıqca Qriqorian kilsələrinin var-dövləti aşıb-daşır, nəticədə onların dövlət yaratmaq üçün iştahaları daha da güclənirdi. Bu işi həyata keçirmək üçün erməni kilsəsi gizli olaraq Avropa ölkələrində özünə himayəçi axtarırdı.

Eyni zamanda, ermənilər şah sarayına yollar arayır, şahın etimadını qazanmaq üçün dəridən-qabıqdan çıxırdılar. Erməni tacirləri və din xadimlərinin arzuları tədricən həyata keçirdi. I Şah Abbas hətta Səfəvilər dövlətinin xarici siyasət məsələləri ilə məşğul olmaq və Avropa ölkələri ilə diplomatik danışıqlar aparmaq səlahiyyətini özünün müşaviri Xoca Səfər adlı bir erməniyə etibar etmişdi. 1608-ci ildə I Şah Abbas Xoca Səfərin başçılığı ilə Avropaya gedən nümayəndə heyəti vasitəsilə Roma papasına, İspaniya kralına, Toskano hersoquna və Venesiya dojuna məktublar göndərmişdi.

Toskano hersoqunun qəbulunda olarkən Xoca Səfər şahın məktubundan əlavə, ermənilərin Roma papası və digər Avropa ölkələrinin başçılarına məktubları olduğunu bildirmişdi. Təbii ki, bu məktublarda xristian Avropa ölkələrindən Şərqdə – müsəlman ölkələrində yaşayan xristian erməniləri öz himayələrinə götürmələri haqqında xahişlər edilmişdi. Daha əvvəllər isə erməni kilsə xadimləri katolikos Stepanos Salmastesi (Salmastlı) və Abqar Toxatesinin (Tokatlı) başçılığı ilə müstəqil erməni dövləti yaratmaq naminə köməklik göstərmələri üçün Avropaya nümayəndə heyəti səyahət etmişdi. Lakin nə papadan, nə də Qərbi Avropa dindaşlarından ermənilərin çağırışına məhəl qoyan olmamışdı.

**Nazim Mustafa daha sonra bildirdi ki, XVII əsrin ortalarında Rusiyanın öz mövqeyini möhkəmləndirməsi ən yaxın xristian ölkəsi kimi erməni kilsəsinin diqqətini daha çox cəlb etməyə başlamışdı:**

– Yaxın Şərqə maraq dairəsi baxımından ermənilərə ən əlverişli himayəçi Rusiya ola bilərdi. Rusiya çarlarının xarakterini öyrənən ermənilər yəqin etmişdilər ki, hədiyyə adı altında rüşvət verməklə, onları öz tərəflərinə çəkə və nəticədə öz istəklərinə nail ola bilərlər. Bu zaman İranla Rusiya arasında ticarət əlaqələri əsasən erməni tacirləri vasitəsilə həyata keçirilirdi. Rusiyada İran ipəyi alveri ilə məşğul olan Yeni Culfalı Xoca Zakar Sarhadov 1660-cı il avqustun 28-də "ermənilərə qarşı xüsusi lütfkarlığına görə" çar Aleksey Mixayloviçə qiymətli hədiyyələr gətirmişdi. Bu hədiyyələrdən biri hazırda Moskva Kremlinin "Silahlar palatasında" saxlanılan "Almaz taxt"dır. Fil sümüyündən, qızıl və gümüşdən düzəldilən bu taxt incə Şərq üslubunda işlənmişdir. Onu bəzəmək üçün 987 almaz, 1298 yaqut, 18030 Şərq firuzəsindən istifadə edilmişdir. Bu hədiyyənin qiyməti o vaxtkı hesabla 22598 rubl 60 qəpik idi.

Bundan əlavə, Xoca Zakar rəssam Baqdan Saltanovun mis lövhə üzərində surətini çəkdiyi Leonardo da Vinçinin "Sirli gecə" rəsmini də çara hədiyyə gətirmişdi. Bundan sonra Rusiya ilə ticarət əlaqələri saxlayan erməni tacirləri üçün şərikli kompaniyalar yaratmağa hər cür şərait yaradılmış və gömrük məntəqələrindən onların gedib-gəlməsi üçün qadağalar götürülmüşdü. 1669-cu il dekabrın 3-də İsfahandakı erməni ticarət kompaniyasından Stelan Mişsekov və Baqdan Saltanov da hökmdarın adına hədiyyələrlə Moskvaya getmişdilər. 1673-cü il yanvarın 7-də Xoca Zakar İsfahandan özünün ticarət xidmətçisi Stepan Romadamskinin vasitəsilə çara 9 min 62 rubl dəyərində bəzəkli İran malları göndərmişdi.

**Tarixçi alim Səfəvi dövlətinin himayə etdiyi ermənilərin Qərb ölkələrində də özlərinə dayaq axtarışına başlamalarından söz açaraq dedi:**



– 677-ci ildə katolikos Hakop Cuqaesi Culfalının rəhbərliyi ilə Eçmiədzində din xadimlərinin yığıncağı keçirilmiş və Qərbi Avropaya nümayəndə heyəti göndərmək qərara alınmışdır. Nümayəndə heyəti İstanbula çatanda Hakop ölmüş və nümayəndə heyəti geri qayıtmışdır. Bu tərkibdən yalnız atasını müşayiət edən İsrael Ori Avropaya səyahətini davam etdirmişdir. 20 il Avropanı gəzib dolaşan İsrael Ori İtaliyada, Fransada və Almaniyada yaşamışdır. Fransanın yüksək dairələri ilə əlaqəyə girən İsrael Ori ermənilərin himayə edilməsi məsələsini qaldırmış, lakin soyuq münasibətlə qarşılaşmışdır.

Avropanın real köməklik göstərməyəcəyinə əmin olan İsrael Ori bu işdə yalnız Rusiyaya arxalanmaq qənaətinə gəlmişdir. O, 1701-ci il oktyabrın 28-də arximandrit Minas Vartapedlə birlikdə Bavariya kürfüstünün (knyazının) elçisi kimi I Pyotrun qəbuluna gəlmişdir. Onlar erməni məlikləri adından çara və oğluna çox qiymətli hədiyyələri gətirmişlər.

İsrael Orinin və Minas Vartapedin çara gözqamaşdıran əntiq türk mallarını hədiyyə gətirmələri xalis erməni bicliyi idi. Onlar Pyotrun strateji əhəmiyyətli isti boğazlara çıxmaq və İstanbulu ələ keçirmək üçün nə dərəcədə alışıb-yandığını bilirdilər. Bu səfərlə və gətirdikləri zəngin hədiyyələrlə onlar bu yanğını daha da qızışdırıb alovlandırmaq istəyirdilər.

**(ardı var)**

**Hazırladı: T.AYDINOĞLU**

**XQ**

**Xəbər verdiyimiz kimi, Qərbi Azərbaycan İcması UNESCO ilə predmetli dialoqu çərçivəsində konkret mövzuları təşkilat rəhbərliyinə təqdim etmiş və mədəni irsin qorunması sahəsində icmalara müvafiq rol tanıyan beynəlxalq konvensiyalara uyğun olaraq, potensialın gücləndirilməsi sahəsində UNESCO-nun praktiki yardımlarını xahiş etmişdir.**

# QAİ UNESCO ilə əməkdaşlıq edəcək



UNESCO bu günlərdə İcmaya cavab məktubu göndərərək, mədəni irsin qorunması sahəsində İcmanın çağırışına uyğun olaraq müvafiq addımlar atacağını bildirmiş və potensialın gücləndirilməsi sahəsində dəstək göstərmək barədə İcmanın xahişinə müsbət cavab verib.

İcma Ermənistandakı Azərbaycan mədəni irsinin qorunması ilə bağlı imkanlarının artırılması, o cümlədən, müasir metodologiya əsasında mədəni abidələrin reyestrinin aparılması, onların vəziyyətinin qiymətləndirilməsi və bərpası üçün lazım olan addımların müəyyən edilməsi üçün UNESCO ilə praktiki əməkdaşlığı davam etdirəcək.

**XQ**

# Qanlı Zod aşırımı – cinayətlər yuvası

**Ermənistan ordusunun ardıcıl təxribat törətdiyi sərhəd məntəqələrindən biri də Göyçə mahalının Zod aşırımıdır. Ötən həftə bu kənd istiqamətindən Azərbaycan ordusunun Kəlbəcər rayonundakı mövqelərini atəşə tutması nəticəsində 3 nəfər azərbaycanlı hərbi qulluqçu yaralanıb.**

Qərbi Azərbaycan İcması Ermənistanın bu təxribatını şiddətlə qınayıb və Ermənistan hökumətindən öz bəd əməllərini dərhal dayandırmağı tələb edib. İcmadan XQ-yə verilən xəbərə görə, Ermənistan tərəfinin bu mənfur təxribatı məhz Göyçə mahalı istiqamətindən etməsi Qərbi Azərbaycan İcmasının aşağıdakıları xatırlatmasına səbəb olub:



– Xatırladaq ki, Göyçə mahalı, o cümlədən, Zod kəndi azərbaycanlıların kompakt şəkildə yaşadıqları ərazi olub. Ermənistan hökuməti Ermənistanın digər bölgələri kimi Göyçə dağıdıb. Hazırda Ermənistanın təxribat törətdiyi Zod aşırımı çoxlu sayda mülki azərbaycanlının soyuq qış aylarında Ermənistanın təqibləri və zorakılığından qaçarkən həlak olduğu məkandır.

Ermənistan hökuməti İcmanın sülh və barışığa əsaslanan çoxsaylı müraciətlərinə baxmayaraq, azərbaycanlıların öz vətənlərinə qayıtmasına imkan vermir. Qərbi Azərbaycan İcması dünya birliyini, hərbi təxribatlarına son qoyması, etnik təmizləməyə məruz qalmış azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz şəkildə və ləyaqətlə öz evlərinə qayıtmasına imkan verməsi üçün Ermənistana təzyiq göstərməyə çağırır.

**XQ**

# Qərbi Azərbaycan faciələrinin xronologiyası

*(əvvəli 1-ci səhifədə)*

**1881, noyabr.** İrəvan Müəllimlər seminariyasının açılması. Azərbaycan Respublikası Prezidenti tərəfindən Seminariyanın 140 illiyinin qeyd edilməsi haqqında 29 dekabr 2021-ci il tarixində sərəncam imzalanmışdır.

**1882.** İrəvan teatrının yaranması.

**1884–1914.** İrəvan qubernatorunun hesabatları. Quberniya üzrə əsas rəsmi sənədlərdən biri idi.

**1887.** Cenevrədə Sosial-demokrat Qnçak (Zəng) partiyasının təşkili. "Zəng" adı A.İ.Gertsenin "Kolokol"undan mənimsənmişdir. Azərbaycanın qəddar düşmənlərindən olan Andranik də vaxtilə bu partiyanın üzvü olmuşdur.

**1890.** Tiflisdə Daşnaksütun partiyasının təşkili. XIX əsrin sonları–XX əsrin əvvəllərində erməni və daşnak ifadələri, əsasən, eyni məna daşıyırdı. Azərbaycan xalqına qarşı hər bir soyqırımın fəal təşkilatçısı olmuşdur. Qərbi Azərbaycan torpaqlarında yaradılan ilk erməni dövlətində, Birinci Respublikada (1918–1920) hökumət qurmuşdur.

**1897, yanvar.** Rusiya imperiyasında ilk ümumi əhali siyahıyaalması. İrəvan quberniyası üzrə nəticələrə görə, İrəvan şəhərində 29 min nəfər əhali var idi. Əhali tərkibində ana dili türk (Azərbaycan– K.Ş.) olanlar 12 min 359 (42,69 faiz), ermənilər isə 12 min 153 (41,89 faiz) nəfər idi. Müsəlman və xristianların (erməni-qriqorian və erməni-katoliklər) nisbəti isə 12 min 537 (43,22 faiz) və 12 min 516 (43,15 faiz) olmuşdur. 1829–1832-ci il kameral təsviri ilə müqayisədə əhalinin 17 min 543 nəfər (60,49 faiz) artdığı görünür. Əhalinin etnik və dini tərkibində isə daha ciddi dəyişiklik olub. Ermənilərin sayı, təxminən, türk-müsəlmanların sayı ilə bərabərləşib.

**1902, 5 dekabr.** Aleksandropol–İrəvan dəmir yol xəttinin açılışı. Bu və sonrakı dəmir yol xətlərinin çəkilməsi İrəvanın strateji əhəmiyyətini daha da artırırdı.

**1903, 12 iyun.** Çar II Nikolayın Erməni-qriqorian kilsəsinin mülklərinin müsadirəsi haqqında fərmanı. Erməni terrorunun təzyiqi altında 1 avqust 1905-ci il fərmanı ilə müsadirə olunan mülkiyyət geri qaytarıldı.

**1905–1906.** Erməni-müsəlman davası dövründə ermənilərin İrəvan quberniyası, o cümlədən İrəvan şəhərində yüzlərlə azərbaycanlını öldürməsi və tarixi torpaqlarından qovması.

**1906.** İrəvan–Culfa dəmir yol xəttinin istifadəyə verilməsi.

**1914–1916.** I Dünya müharibəsi ərəfəsində İrəvan əhalisi 29 min 366 nəfər idi ki, onun da 11 min 500 nəfəri (39,2 faiz) azərbaycanlı, 15 min 531 nəfəri (52,8 faiz) erməni idi. 1916-cı ildə İrəvanın əhalisi 1914-cü ildəki 29 min 366 nəfərdən 51 min 286 nəfərə (+21 min 920 nəfər) çatır. 1897-ci illə müqayisədə aydın olur ki, İrəvanda azərbaycanlıların demoqrafik vəziyyəti XX əsrin əvvəllərində kəskinləşməyə başlayır. Müharibə dövründə isə erməni qaçqınların məqsədyönlü şəkildə İrəvan şəhərinə yönəldilməsi ilə azərbaycanlıların sıxışdırılması genişlənir.

**1914, avqust.** Rusiyanın I Dünya müharibəsinə daxil olması. Ermənilərin Rusiya vasitəsi ilə Osmanlı imperiyası ərazisində dövlət yaratmaq uğrunda mübarizəsinin genişlənməsi.

**1914, sentyabr–noyabr.** Rusiya imperiyası tərəfindən erməni könüllü dəstələrinin yaradılması. Şərqi Anadoluda türklərə, sonra isə İrəvan bölgəsində azərbaycanlılara qarşı soyqırımı törədilməsində fəal iştirak etmişdir. 1917-ci ilin dekabrında Erməni könüllü korpusuna çevrilmişdir. Bu korpusun rəhbəri Foma Nazarbekov general-leytenant rütbəsilə 191–1920-ci illərdə Ermənistan Respublikası ordusunun baş komandanı olmuşdur.



*Ermənilərin İrandan Azərbaycan torpaqlarına (Naxçıvan, İrəvan, Qarabağ) köçürülməsi (Rus rəssamı V. Maşkovun çəkdiyi şəkil).1828-ci il.*

**1917, fevral–oktyabr.** Qərbi Azərbaycan Müvəqqəti hökumət dövründə.

**1917, 9–22 mart–15/28 noyabr.** Müvəqqəti hökumətin Zaqafqaziyada yerli orqanı Xüsusi Zaqafqaziya Komitəsi (Ozakom). Sədri V.A.Xarlamov (kadet) idi. Tərkibinə M.Y.Cəfərov, M.İ.Papacanov, K.Q.Abaşidze və P.N.Pereverzyev daxil idi. Az sonra P.N.Pereverzyevi A.İ.Çxenkeli əvəz etmişdir.

**1917, 26 aprel–9 may.** Müvəqqəti hökumətin "Türkiyə Ermənistan"ı haqqında qərarının qəbulu. 4 maddədən ibarət olan bu qərara görə, sülh müqaviləsi ilə Türkiyə Ermənistanının vəziyyəti müəyyən edilənədək onun rus ordusu tərəfindən tutulan ərazisi mülki idarə baxımından Qafqaz hakimiyyəti, eyni zamanda Qafqaz cəbhəsi hakimiyyətinin idarəsindən çıxarılaraq, birbaşa Müvəqqəti hökumətə tabe edilir, Türkiyə Ermənistanı Baş komissarı vəzifəsi təsis edilirdi və s.

Beləliklə, Müvəqqəti hökumət erməniləri öz tərəfinə daha da yaxınlaşdırmaq məqsədilə "Türkiyə Ermənistan"ı anlayışını tətbiq edir, əsas diqqəti Türkiyə ərazisinə keçirirdi. Sovet Rusiyası da bu xətti davam etdirirdi. Sonra aydın olacağı kimi Osmanlı imperiyası həmin əraziləri azad etdiyi üçün erməni dövlətinin yaradılması Zaqafqaziyaya, Qərbi Azərbaycan torpaqlarına keçiriləcəkdir.

**1917, sentyabrın sonu–oktyabrın əvvəli.** Erməni Milli Şurasının yaranması. Rəhbəri A.V.Aharonyan (daşnak) idi. Azərbaycan Milli Şurası İrəvan haqqında danışıqları bu təşkilat ilə aparmışdır.

**1917, 25 oktyabr–7 noyabr.** Rusiyada Oktyabr çevrilişi, bolşeviklərin hakimiyyəti ələ alması. Rusiya imperiyasının dağılması. İrəvan quberniyasının digər Azərbaycan torpaqları ilə birgə, Rusiya imperiyası tərkibindən çıxması. Beləliklə, Rusiya imperiyası tərəfindən Qərbi Azərbaycanın işğalı və 90 il sistemli şəkildə davam edən müstəmləkə siyasəti ilə onun tarixən formalaşmış inzibati ərazi quruluşunun, etno-konfessional tərkibinin, siyasi strukturunun və idarə sisteminin məqsədyönlü şəkildə erməniləşdirilməsinə baxmayaraq, bu torpaqların, orada mövcud olan aparıcı əhali fundamentinin və mədəniyyətinin azərbaycanlılara məxsus olduğunu dəyişmək mümkün olmadı.

Qərbi Azərbaycan bütöv Azərbaycanın bir hissəsi kimi Rusiya imperiyasının tərkibindən türk-müsəlman torpağı kimi çıxmış və Zaqafqaziya hökumətinin ərazisinə daxil olmuşdur.

**XQ**

*Yeni dərs ili qarşısında*

# Təhsildə əsas hədəf XXI əsrin nəslini yetişdirməkdir

(əvvəli 1-ci səhifədə)

Bakı şəhərinin ümumi təhsil sistemində də yeni dərs ilinə bütün istiqamətlər üzrə ciddi hazırlıqlar gedib. Hər zaman olduğu kimi, keyfiyyətli tədris üçün zəruri şəraitin yaradılması, şagirdlərin təhsilə marağının artırılması, onların bilik səviyyəsinin yüksəldilməsi başlıca məramımızdır. Çünki təhsil daim inkişaf edən, yeniləşən, islahatlara açıq bir sahədir.



Ölkənin iqtisadi, sosial-ictimai həyatında baş verən dəyişikliklər təhsilə birbaşa təsir edir. Bunu nəzərə almadan təhsilin müasir dövrün tələblərinə cavab verməsinə nail olmaq mümkün deyil. Biz də çalışırıq ki, təhsildə baş verən dəyişikliklər dünya təhsilinin trendləri ilə ayaqlaşmaq baxımından daha çevik və daha səmərəli olsun, eyni zamanda, Azərbaycan təhsilinin ənənələri mövcud reallıqlarla uzlaşdırılsın.

Dövlət başçımızın imzaladığı vacib tarixi sənəddə – "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapmış "XXI əsrin tələblərinə uyğun təhsil" kontekstindən çıxış edərək deyə bilərik ki, bu gün ümumi təhsil məktəblərində təhsil alan şagirdlərdə yeni əsrin bacarıqlarını inkişaf etdirməyi dövrümüzün mühüm tələbi sayırıq. Eyni zamanda, 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar Ulu öndərin ideyalarının gənc nəslə təbliği istiqamətində paytaxt məktəblərində bir sıra layihələr gerçəkləşdirilib.

"Heydər Əliyev İli" çərçivəsində 100-dən artıq forum, konfrans və simpozium, 1500-dən artıq "dəyirmi masa" və "açıq dərs", çox sayda seminar, müxtəlif müsabiqə, sərgi və festivallar, elm və mədəniyyət xadimlərinin, təhsil işçilərinin, tanınmış ziyalıların iştirakı ilə tədbirlər keçirilib, şagirdlərin Heydər Əliyev Mərkəzinə ekskursiyaları təşkil olunub. Bundan sonra da məktəblərimizdə uşaqların hərtərəfli inkişafına xidmət edən, Ümummilli liderin örnək həyat yoluna və zəngin fəaliyyətinə işıq salan silsilə tədbirlərlə dahi rəhbərin zəngin siyasi irsinin, azərbaycançılıq ideologiyasının aşılanması işini daha da genişləndirməli, gənc nəslə bu irsi daim təbliğ etməliyik.

Yeni tədris ilində paytaxtdakı təhsil müəssisələrinin ümumi statistik mənzərəsinə gəlincə isə deyim ki, hazırda BŞTİ-nin tabeliyində 344 məktəbəqədər təhsil müəssisəsi, 310 ümumi təhsil, 3 xüsusi tipli ümumi orta məktəb, 5 əyani-qiyabi axşam məktəbi fəaliyyət göstərir. Yeni tədris ilində məktəbəqədər təhsil müəssisələri üzrə 34 min 995 uşağın təlim-tərbiyəsi ilə 4 min 375 tərbiyəçi-müəllimin məşğul olacağı gözlənilir. Ümumi təhsil məktəbləri üzrə isə 447 min 962 şagirdin təhsil alması, 28 min 410 müəllimin çalışması nəzərdə tutulur.

Uşaqların intellektual, fiziki və psixoloji inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətlərinin üzə çıxarılmasını, sağlamlıqlarının qorunmasını, estetik tərbiyəsini təmin etmək məqsədilə 278 paytaxt məktəbində yaradılmış 1073 məktəbəhazırlıq qruplarına 26 min 603 beşyaşlının cəlb olunması proqnozlaşdırılır. 2023–2024-cü tədris ili üzrə 44 min 200 şagirdin birinci sinfə elektron qeydiyyatı həyata keçirilib. Onlardan 43 min 876 şagird ümumi təhsil məktəbləri üzrə, 324 şagird isə lisey və gimnaziyalar üzrə qeydiyyatdan keçib.

Ümumi təhsilin təşkili məsələsinə gəlincə, təhsilalanların azərbaycançılıq məfkurəsi və bəşəri dəyərlər ruhunda tərbiyəsi, qlobal səriştəliliyin formalaşdırılması (dil bacarıqları, hüquq və vəzifələr, həyati bacarıqlar və s.), həssas qruplarla, valideynlərlə mərkəzləşdirilmiş işin təşkili, ətraf mühitin qorunması və sağlam həyat tərzinin formalaşdırılması qarşıya qoyduğumuz məqsədlərdən biridir.

Bu mənada Elm və Təhsil Nazirliyi və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin həyata keçirdiyi layihələr müasir, intellektual, vətənpərvər və geniş dünyagörüşlü gəncliyin formalaşmasına təkan verir. Ötən tədris ilində sözügedən istiqamətlərin hər biri üzrə layihələr, müsabiqə və yarışlar, görüşlər və s. keçirilib ki, bu da səmərəliliyin artırılmasında mühüm rol oynayır. Həqiqətən də icra olunan bu fəaliyyətlər bir daha onu göstərir ki, layihələr ideyadan nəticəyə doğru istiqamətlənməkdə ən uğurlu platformadır.

Ötən tədris ilində 1939 şagirdimiz fərqlənmə attestatlarına layiq görülüb. Daha yüksək dərəcəyə layiq görülən XI sinif məzunlarımızın 18-i qızıl, 6-sı gümüş nişanla təltif edilib. 56 sinif ali məktəbə qəbulda 100 faiz nəticə göstərib. Təhsilverənlərin və idarəedici heyətin peşəkarlığının artırılması istiqamətində də müvafiq fəaliyyətlər icra olunub. Çünki təhsilimizin inkişafı üçün qabaqcıl təcrübəyə malik, istedadlı, peşəkar müəllimlərə hər zaman ehtiyac var. Sürətlə dəyişən dövr müəllimdən yeni axtarışlar, yeni yanaşmalar tələb edir.

Yeni dərs ilinə hazırlıq çərçivəsində paytaxt məktəblərinin infrastrukturunun yaxşılaşdırılması istiqamətində zəruri tədbirlər görülüb, maddi-texniki bazanın gücləndirilməsi, təhsil müəssisələrində əsaslı təmir işlərinin aparılması davam edib. Prezident İlham Əliyevin xüsusi qayğısı sayəsində təhsil ocaqlarının təmir-tikinti işləri intensiv şəkildə həyata keçirilir. Son illər bu istiqamətdə səmərəli işlər görülüb.

Bir sıra məktəblər əsaslı təmir edilib, ehtiyac olan ərazilərdə yeni məktəb binaları və tədris korpusları inşa edilib, mühəndis-kommunikasiya işləri həyata keçirilib. Belə ki, 2023–2024-cü tədris ilinə hazırlıq çərçivəsində 50 ümumi təhsil məktəbində, 30 məktəbəqədər təhsil müəssisəsində cari təmir işləri aparılıb, həmçinin 1 məktəbdə və 5 məktəbəqədər təhsil müəssisəsində əsaslı təmir işləri aparılır, 3 ümumi təhsil müəssisəsində isə əsaslı təmir-tikinti işlərinin görülməsi nəzərdə tutulur. Məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi, müvafiq müəssisələrə cəlb olunan uşaqların sayının artırılması tədbirləri çərçivəsində 2023-cü ilin iyul ayında Bakı şəhəri Hövsan qəsəbəsində 13 və 14 nömrəli uşaq bağçaları istifadəyə verilib.

Dərsliklərlə təminat məsələsinə gəlincə, yeni dərs ilinə hazırlıq çərçivəsində paytaxtdakı təhsil müəssisələri dərsliklərlə təmin olunub. BŞTİ-nin tabeliyindəki təhsil müəssisələri üçün 1 milyon 854 min 703 ədəd dərslik yerlərə çatdırılıb.

Vahid məktəbli geyimləri məsələsinə gəlincə iosə deyim ki, eyni görünüşə malik məktəbli forması şagirdlər arasında bərabərliyi təşviq edir. Məktəblərdən alınan rəylərə əsasən deyə bilərik ki, valideyn və uşaqlarda vahid məktəbli geyiminə kifayət qədər maraq var. Mütləq əksər valideynlər övladlarına məktəbli geyimi almağı həm maddi, həm də vizual-estetik baxımdan daha məqbul hesab edirlər.

Xatırladım ki, Nazirlər Kabinetinin qərarına əsasən, ölkənin ümumi təhsil müəssisələrində vahid məktəbli geyimi tətbiq edilir. Həmin qərara əsasən, məktəblər tərəfindən 4 nümunədə geyim formasından biri seçilib. Paytaxt ərazisində məktəbli geyimlərini əldə etmək üçün 34 məntəqə mövcuddur. Valideynlər özlərinə yaxın olan və ya özlərinin məsləhət bildikləri məntəqədən övladları üçün müvafiq geyimi əldə edə bilərlər. Həmçinin valideynlər öz istəklərinə uyğun olaraq məktəbli geyimini sifarişlə tikdirə də bilərlər.

Nəhayət, 2023–2024-cü tədris ilinin hədəfləri barədə. Bakı şəhər müəllimləri, təhsil işçiləri ilə ənənəvi sentyabr konfransında da xüsusi vurğulandı ki, bizi qarşıda daha böyük və məsuliyyətli işlər gözləyir. Bu, məzmunun yenilənməsi, tədrisin təşkili, keyfiyyətin artırılması, münasibətlərin tənzimlənməsi, yeniliklərin tətbiqi, təşəbbüskarlıq, mövcud imkanlardan səmərəli istifadə və digər çoxsaylı istiqamətlərdir. Hədəflər konkret olaraq məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsi, ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi, rəqəmsal səriştələrin artırılması, XXI əsr bacarıqlarının inkişaf etdirilməsidir.

Sonda qeyd etmək istərdim ki, bu tədris ilinə də Qarabağa Böyük Qayıdışın həyəcan və sevinci ilə qədəm qoyuruq. Elə dekabr ayında keçiriləcək Azərbaycan müəllimlərinin növbəti XVI qurultayına da bu əhval-ruhiyyə ilə gedirik.

***Mehriban VƏLİYEVA,***
***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri***

# Güləşçilərimizdən yüksək nəticə gözləyirik

**Azərbaycanın sərbəst, yunan-Roma güləşi və qadın güləşi üzrə millilərinin Serbiyanın paytaxtı Belqradda sentyabrın 16-da start götürəcək dünya çempionatı üçün heyətləri açıqlanıb.**



Yarışda 10-u sərbəst, 10-u yunan-Roma, 6-sı isə qadın güləşçi olmaqla, ümumilikdə 26 idmançı mübarizə aparacaq. Builki dünya çempionatına millimizin hazırlığı necə qiymətləndirilir?

Sərbəst güləş üzrə Azərbaycan millisinin baş məşqçisi Xetaq Qazyumov jurnalistlərə müsahibəsində mundiala yüksək heyətlə yola düşəcəklərini deyib. O qeyd edib ki, yarışda Olimpiadaya minimum 6 lisenziya qazanmağı hədəfləyib.

Baş məşqçi qeyri-olimpiya çəkilərində, əsasən, gənclərə üstünlük verdiklərini vurğulayıb: "Olimpiya çəkilərində təcrübəli güləşçilər mübarizə aparacaqlar. Avropa çempionumuz Əliabbas Rzazadədən (57 kq) minimum olimpiadaya lisenziya qazanmağı gözləyirəm. Maksimum nəticə göstərərsə, dünya çempionu ola bilər. Üçqat dünya çempionu Hacı Əliyevin (65 kq) böyük potensialı var. Hazırda çox yaxşı formadadır və düşünürəm ki, hansısa problem onun yenidən dünya çempionu olmasına mane olmayacaq".

Xetaq Qazyumov Turan Bayramov, Abubakr Abakarov (86 kq), Maqomedxan Maqomedov (97 kq) və Georgi Meşvildişvilidən (125 kq) də yüksək nəticələr gözlədiyini bildirib. Qeyd edib ki, istər olimpiya, istərsə də qeyri-olimpiya çəkilərində maksimum nəticəni hədəfləyirlər. Bunun üçün güləşçilər potensiallarından maksimum istifadə etməlidirlər.

Azərbaycan millisinin lideri Hacı Əliyev (65 kq) komanda yoldaşlarının hər birisinin yaxşı formada olduğunu deyib. Vurğulayıb ki, yığma ilboyu həm ölkə xaricində, həm də Vətəndə birlikdə təlim-məşq toplanışı keçib. Güləşçi özünün yaxşı formada olduğunu da bildirib: "Düşünürəm ki, yaxşı formadayam. Yarışa tam tam hazıram və uğurlu nəticə əldə etmək üçün əlimdən gələni edəcəyəm.

Əsas hədəf dünya çempionu olmaq və Olimpiya Oyunlarına lisenziya qazanmaqdır".

Qadın güləşi üzrə millinin baş məşqçisi Semyon Şterev də yarışa hazırlıqla bağlı təəssüratlarını bölüşüb. O qeyd edib ki, yarışda Mariya Stadniklə (50 kq) yanaşı, Jalə Əliyeva (57 kq) və Elis Manolovadan (62 kq) da yaxşı nəticə gözləyirlər: "Ölkə xaricində bir neçə təlim-məşq toplanışı keçmişik, yarışlarda iştirak etmişik. Güləşçilərimizin uğurla çıxış edəcəklərinə inanırıq".

Yunan-Roma güləşi üzrə Azərbaycan millisinin baş məşqçisi Aleksandr Tarakanov dünya çempionatından mümkün qədər çox olimpiya lisenziyası ilə qayıtmaq istədiklərini deyib: "Ötənilki dünya çempionatındakı nəticəni yaxşılaşdırmaq istəyirik. Yarışda qızıl medal qazanmaq böyük əhəmiyyət daşıyır. Komandamızın üzvləri çempionata yaxşı hazırlaşıblar. Bu yarışdan sonra daha çox lisenziya xarakterli turnirlər olacaq. Güləşçilərimiz özlərinə əmindirlər. Düşünürük ki, nəticə yaxşı olacaq".

Qeyd edək ki, sentyabrın 16-24-ü aralığında keçiriləcək dünya çempionatında Azərbaycanın 6 qadın güləşçisi mübarizə aparacaq.

***L.QURBANOVA***
***XQ***

# Mingəçevirlilər yeni tələbələri təbrik ediblər



**Mingəçevir Şəhər İcra Hakimiyyətində ümumtəhsil məktəblərini bitirən və 600-dən yuxarı balla ali məktəblərə qəbul olan tələbələrlə görüş keçirilib.**

İştirakçıları salamlayan şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov ölkəmizdə aparılan təhsil islahatlarının gənclərin biliklərə dərindən yiyələnmələrinə, kadr problemlərinin həllinə və müəllim peşəsinin nüfuzunun daha da yüksəlməsinə müsbət təsir göstərdiyini bildirib.

Görüşdə bu il məktəbi bitirən məzunlardan 1 nəfərin qızıl, 2 nəfərin isə gümüş medala layiq görüldüyü, ali məktəbə qəbul olan tələbələrdən 55 nəfərin 500-dən yuxarı, o cümlədən 17 nəfərin 600-dən yuxarı bal topladığı diqqətə çatdırılıb. Şəhər üzrə ən yüksək nəticəni Təbiət--Riyaziyyat və Humanitar Elmlər təmayüllü Liseyin şagirdi Sənani Zeynallı (673 bal) əldə edib. Tədris ilində fənn olimpiadasına respublika mərhələsində şəhər ümumtəhsil məktəblərindən 23 nəfər qoşulub, 1 nəfər qızıl, 4 nəfər gümüş, 3 nəfər isə bürünc medala layiq görülüb. Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə keçirilən "Ən yaxşı təqdimat" müsabiqəsinin respublika mərhələsinin iştirakçısı Təbiət-Riyaziyyat və Humanitar Elmlər təmayüllü Liseyin şagirdi Cahandar Quliyev 3-cü dərəcəli diplomla təltif olunub.

Görüşdə Mingəçevir Şəhər Ağsaqqallar Şurasının sədri Akif Hacıyev, Mərkəzi Aran Regional Təhsil idarəsinin şəhər üzrə sektor müdiri Sevinc Həsənova, valideyn Vüsalə Mustafayeva tələbə adını qazanan gənclərə uğurlar arzulayıblar. Şəhər üzrə ən yüksək nəticə göstərən məzun Sənani Zeynallı əldə etdiyi uğurdan bəhs edib.

Sonda Şəhər İcra Hakimiyyətinin başçısı yüksək nəticə göstərən tələbələrə və Mingəçevir Dövlət Universitetinə qəbul olunan şəhid Niyazi İsgəndərovun oğlu Ömər İsgəndərova hədiyyələr təqdim edib.

***İlqar HƏSƏNOV***
***XQ***

# BMT-nin Cenevrə bölməsində "Azərbaycan" otağı

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Cenevrə bölməsində yeni dizayn və konsepsiya əsasında bərpa olunmuş "Azərbaycan" otağının açılışını edib. Mərasimdə BMT-nin Cenevrə bölməsinin baş direktoru Tatyana Valovaya, bir sıra ölkələrin Cenevrədəki daimi nümayəndələri iştirak ediblər.**

Nazir Ceyhun Bayramov və baş direktor Tatyana Valovaya BMT-nin Cenevrədəki Ofisinin səmərəli fəaliyyət göstərməsi üçün "Azərbaycan" otağının olduqca faydalı töhfə olduğunu vurğulayıblar.

2007-ci ildə Heydər Əliyev Fondu tərəfindən yaradılan otağın ötən il təmirinə başlanıb. Ən yüksək texnologiyalar əsasında təmir edilən otaqda çox sayda monitor, kamera, audio-video avadanlıq və aksesuar quraşdırılıb. Otaq, həmçinin qabaqcıl proqramlaşdırma ilə təmin olunub. Yaradılan texnoloji həllər qlobal şəkildə sinxronlaşdırılmış görüşlərin, təqdimatların və iclasların keçirilməsinə imkan verir.

Layihə Azərbaycanın BMT yanında daimi nümayəndəliyinin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib. Xatırladaq ki, BMT-nin Cenevrə Ofisində çox az sayda ölkə öz otağını yaratmağa nail olub. Ölkə otaqları BMT-nin müxtəlif tədbirləri zamanı fərqli sessiyaların, iclasların və müxtəlif formatlı görüşlərin keçirilməsi üçün istifadə olunur.

***XQ***

# Vətənə sipər oğul

**44 günlük Vətən müharibəsindən sonra ən qanlı toqquşma kimi tarixin yaddaşına köçən sentyabr döyüşləri... Keçən ilin bu günü idi. Məzuniyyətimin ilk günlərini Astara şəhərində qızlarımın ata-babasının evində keçirməyi qərara almışdıq. Bir həyətdə 3 evdə yaşayan Qurbanovlar ailəsində əmiuşaqları adəti üzrə bir yerə toplaşıb olub-keçənlərdən danışırdılar.**



Gələn xəbərlər bu dəfə çox ağır idi. Artıq Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan – Ermənistan dövlət sərhədində genişmiqyaslı təxribat törətməsi ilə bağlı Müdafiə Nazirliyi xəbər yaymışdı. Sərhəd zonasında hərbi xidmətdə olan Cəmil Qurbanzadədən isə bir neçə gün idi ki, xəbər yox idi. Atası özünü toxtaq aparsa da, anası özündə deyildi. Cəbhədən gələn xəbərlərdə Azərbaycan Ordusunun şəxsi heyəti arasında itkilərin olduğu bildirilirdi. Ana 19 yaşlı Cəmilin tərxis olunmasına 18 gün qaldığını tez-tez təkrarlayırdı: "Lap az qalıb. Oğluma nəsə olsa, dəli olaram. Bilirəm sağdır, qayıdacaq".

Küçə qapısına avtomobillərin yığışması, bura gələnlərin izdihama çevrilməsi bizi həyəcanlandırdı. Cəmilin Vətən uğrunda şəhadətə ucalması xəbərini el-oba eşitmişdi. Vətənin dar günündə öz canını fəda edərək haqqın dərgahına ucalan qəhrəman üçün tökülən göz yaşları qəlbləri didirdi. "Düşmən fəryadımızı görməsin, duymasın", – deyə hamı lal sükut içində qəm dəryasına qərq olmuşdu. Qurbanovların tanımadığı insanlar bir gecənin içində sanki doğmalaşmışdılar. Yüzlərlə insan müqəddəs şəhidi gətirəcək yoldan gözlərini çəkə bilmirdi.

16 sentyabr. Saysız-hesabsız insan selində Azərbaycanın müqəddəs bayrağına bükülmüş şəhid tabutu küçə qapısından ağır-ağır həyətə gətirildi. Torpağı vətənə, vətəni isə qibləgaha çevirən şəhid ocağına insanlar iman gətirmək üçün tələsirdi. Heç kim "Cəmil öldü" sözünü dilinə almaq istəmirdi. O günlərdə "Şəhidlər ölməz, Vətən bölünməz", – şüarı yeri-göyü titrədirdi.

**Şəhid atası Anar Qurbanovun dedikləri:** "Övladlarımı vətənpərvər ruhda tərbiyə etmişəm. Oğlum Cəmil bu torpaq uğrunda şəhid olub, Vətən sağ olsun! Bir Cəmil yox, min Cəmil fəda olsun bu torpağa! Yetər ki, mənim Vətənim yaşasın! Burada mənim anam, bacım, iki qızım var. Milyonlarla qadınların simasında bacılarım var. Mən oğlumu ona görə böyütmüşəm ki, Vətənimi qorusun".

O bunu deyəndə özünü çox məğrur tutmuşdu. Sanki, övladının Vətən yolunda şəhid olması ilə fəxr edirdi.

Oğul dağı, oğul yarası ağırdır, şəhid atası! Ondan da ağır Vətən yüküdür! Dünyanın özü qədər ağır olan bu yükü isə böyük ürəkli insanlar daşıya bilərlər!

Qeyd edək ki, Cəmil Qurbanzadə 2003-cü il aprelin 27-də Astara şəhərində anadan olub. 2 saylı tam orta məktəbi bitirdikdən sonra 2020-ci ildə Azərbaycan Dövlət İdman Akademiyasının qiyabi şöbəsinə daxil olub. 2021-ci ilin aprel ayında hərbi xidmətə yola düşüb. Ailədə 2 bacının tək qardaşı olub. Subay idi. 2022-ci il sentyabrın 13-də Azərbaycan Ordusunun həyata keçirdiyi Azərbaycan – Ermənistan sərhəd toqquşması zamanı şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Cəmil Qurbanzadə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

***Leyla QURBANOVA***
***XQ***

Arif Məlikov – 90

# Nazim Hikməti heyrətləndirən azərbaycanlı

## *Qara Qarayevin istedadlı yetirməsi*

**Böyük Azərbaycan bəstəkarı, Xalq artisti Arif Məlikov yaşasaydı, 90 yaşını qeyd edəcəkdi. O, özünün ölməz əsərlərində və onu sevənlərin ürəyində yaşayır.**



Bəstəkar, Əməkdar incəsənət xadimi, Xalq artisti, professor, Dövlət mükafatı laureatı, Milli Elmlər Akademiyasının müxbir üzvü, "Şərəf Nişanı" ordenli sənətkar... Siyahını uzatmaq da olar. Amma, sadəcə, Arif Məlikov demək də kifayətdir ki, onun kimliyini anlayasan.

Həm də Arif Məlikov deyəndə ilk yada düşən "Məhəbbət əfsanəsi" baleti olur. Sənətkarlıq da elə budur.

Böyük türk şairi və dramaturqu Nazim Hikmətlə Arif Məlikov dost olublar. İllər bu dostluğu ata–oğul münasibətlərinə qədər gətirib çıxarıb. Bakıya yolu düşəndə möhtərəm qonağı hamı öz evinə dəvət edərdi. Nazim Hikmət isə "Öncə oğluma dəyməliyəm" – deyərmiş. Arif Məlikov da oğulluq sevgisini məhz Nazim Hikmətin "Məhəbbət əfsanəsi" pyesi əsasında eyni adlı baleti yazmaqla izhar etdi.

Baletə böyük həyəcanla baxan Nazim Hikmət tamaşadan sonra belə söyləmişdi: "Bir daha əmin oldum ki, balet muzey incəsənəti deyil, bu, müasir incəsənətdir. Mən çox həyəcanlanırdım ki, səhnədə Şərq necə görünəcək. Arif Məlikov baletdə Şərq adamına müasir insanın dünyabaxışı ilə baxıb".

Arif Məlikovun "Məhəbbət əfsanəsi"nin dünya səhnələrini fəth etməsi yarım əsr əvvəl məhz Sankt-Peterburqun Akademik Mariya Teatrındakı ilk tamaşadan başlanıb. O vaxtdan bu balet dünya teatrlarının böyük səhnələrində səslənməkdədir.

Böyük Teatr (Moskva) müntəzəm surətdə öz repertuarında "Məhəbbət əfsanəsi"nə yer ayırır. Arif Məlikov yeganə azərbaycanlı bəstəkardır ki, onun əsərləri bu teatrda hər il tamaşaya qoyulur. Dünyanın yüzdən artıq teatrının məmnuniyyətlə təqdim etdiyi "Məhəbbət əfsanəsi"nin müəllifin arxivində 60-dan artıq videolenti var idi.

Dmitri Şostakoviç deyib ki, Arif Məlikovun musiqisi əsl professionaldır. Onun əsərində dərin musiqi dramaturgiyası, daxil inkişaf, dəqiqlik, qəhrəmanların xarakterini yüksək səviyyədə ifadə etmək məziyyətləri var. Orkestrin idarə edilməsində Arif Məlikovun nadir istedadı musiqiyə rəngarənglik və tamaşaçılara məftunluq gətirib.

Heydər Əliyev Arif Məlikovun yaradıcılığını çox sevirdi. Rusiyada tamaşaya qoyulmuş əsərlərinin seyrçiləri arasında onu görən bəstəkar bununla qürur duyurdu. 1994-cü ildə Heydər Əliyev Arif Məlikovu özü ilə birlikdə Məkkə ziyarətinə aparıb. Arif Məlikov danışır ki, ziyarət zamanı Heydər Əliyev mənə dedi: "Arif, bilirsən səni bura niyə gətirmişəm? İstəyirəm ki, sən buraları da görəsən və bunun təsiri altında bir simfonik əsər yazasan. Böyük şəxsiyyət hiss edirdi ki, məhz oradan qidalanıb dəyərli simfonik əsər yazmaq mümkündür. Mən 8-ci simfoniyanı Heydər Əliyevlə müqəddəs ziyarətə həsr etdim".

Arif Məlikov "Məhəbbət əfsanəsi", "İki nəfər", "İki qəlbin dastanı", "Fövqəlgözəl Yusif", "Səkkizinci simfoniya", "Nağıl", "Metamorfozlar", "Axırıncı aşırım", "Qəhrəmani" simfonik poemaları; kamera instrumental əsərlər (prelüdlər, süitalar); Nazim Hikmətin sözlərinə 2 vokal silsilə; Xalq Çalğı Alətləri Orkestri üçün əsərlər. 7 saylı Simfoniya, "Azərbaycan" balladası kimi əsərlərin müəllifidir.

Beşinci simfoniya hələ tamamlanmamış o, iki maraqlı kamera əsəri: fortepiano üçün "Anilik" və Skripka üçün sonatanı başa çatdırıb.

Bəstəkarın 1969-cu ildə Leninqrad Dövlət Opera və Balet Teatrında "İkilikdə" ("Bu torpaqda iki nəfər") adlı baleti tamaşaya qoyuldu. 1981-ci ildə isə "İki ürək" baleti tamamlandı. Böyük və möhtəşəm əsərlərlə yanaşı, Arif Məlikov "Torpağın səsi" kantatasını, "Dalğalar" operettasını, fleyta və orkestr üçün konsertini, bir sıra kamera instrumental əsərlərini, bədii filmlərə ("Sehrli xalat", "26 Bakı komissarı", "Axırıncı aşırım" və s.), eləcə də Dram Teatrında səhnəyə qoyulmuş tamaşalara ("Torpağa sancılan qılınc", "Atabəylər", "Natəvan" və b.) musiqilər yazıb.

Arif Məlikov 1958-ci ildən vəfatına qədər konservatoriyanın bəstəkarlıq kafedrasında çalışıb və bu onun müdiri olub. Qara Qarayevin tələbəsinin yetirmələri ölkəmizdə, Avropanın müxtəlif şəhərlərində və Türkiyədə çalışırlar.

İllər sonra, dahi bəstəkarın 90 illiyi münasibətilə sentyabrın 18-i Bakıda Heydər Əliyev sarayında "Məhəbbət əfsanəsi" yenidən oynanılacaq.

***Ramilə QURBANLI***

Beynəlxalq Proqramçılar Günü

# Virtual aləmin rejissorları

**Əksər peşə bayramının konkret günü var. Proqramçıların peşə bayramı isə hər hansısa bir tarixdə yox, həmin sahəyə dair xüsusi məna kəsb edən gündə qeyd edilir. Belə ki, hər ilin 256-cı günü beynəlxalq səviyyədə Proqramçılar Günü sayılır. İl 365 gündən ibarət olarsa, sentyabrın 13-ü, 364 gündən ibarət olarsa, sentyabrın 12-də keçirilir.**



Beynəlxalq Proqramçılar Günü 2007-ci ildə təsis edilib. Həmin təqvimin qeyd olunması fikri rusiyalı proqramçılar Mixail Çervyakov və Valentin Balt tərəfindən irəli sürülüb. Onlar 256 rəqəmini ikili kod sisteminə, yəni, rəqəmsal informasiyada "səkkiz bitin bir bayt"la ifadə olunduğu fərqli dəyərə görə seçiblər.

Proqramçılar müxtəlif kodlaşdırma və proqramlaşdırma dillərindən istifadə edərək kompüter və mobil proqramlar yazmaqla məşğul olurlar. Onlar eləcə də müxtəlif hazır proqramlarda dəyişikliklər



və düzəlişlər edirlər. Bu sahəyə tələb xeyli yüksək olduğundan proqramçı son dövrün ən sevimli peşələrindən biri sayılır.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da virtual sahəyə həvəs və maraq artmaqdadır. Qanunvericilik bazasının təkmilləşdirilməsi, ali və orta-ixtisas təhsil müəssisələrində bu istiqamətdə kadrların hazırlanması atılan önəmli addımlardandır. Prezident İlham Əliyevin müxtəlif vaxtlarda imzaladığı fərman və sərəncamlar, verdiyi tapşırıqlar rəqəmsal aləmdə çalışanların inkişafı üçün yeni imkanlar yaradıb.

**Tanınmış proqramçı, Mobil Platforma üzrə mütəxəssis Kənan Yusubov bizimlə söhbətində** bu sahənin özünəməxsusluğundan danışaraq bildirdi ki, hər bir peşənin özəlliyi, gözəlliyi, qayda-qanunu və psixologiyası var. Peşəkar proqramçı olmaq istəyənlər bunları bilməli və tətbiq etməlidirlər. Proqramçılıq digər peşələrdən fərqli olaraq qanunauyğunluğu daha çox sevir.

Kənan Yusubov Azərbaycanda proqramçı peşəsi ilə bağlı yanlış düşüncə tərzinin mövcud olduğuna da diqqət çəkdi: "Proqramçı dedikdə, daha çox telefon, kompüter təmiri ilə məşğul olan insanlar təsəvvür edilir. Bu sahələr daha çox, İT-yə köməkçi fəaliyyət olaraq qiymətləndirilməlidir. Yəni, əslində, bizə proqram yükləməkdə və digər proseslərdə yardım edən insan proqramçı sayılmamalıdır. Proqramçı xüsusi proqramlaşdırma dilindən istifadə edərək məhsul hazırlayan və bu onun keyfiyyətini qorumağa çalışan şəxsdir. O, virtual aləmin rejissorlarıdır. Sadə dildə belə izah edə bilərik ki, gündəlik istifadə etdiyimiz müxtəlif sosial şəbəkələr birdən-birə formalaşmayıb, onlar da hansısa proqramçılar tərəfindən tərtib olunub".

Beynəlxalq Proqramçılar Günündə onu da qeyd edək ki, bu gün ölkəmizdə heç bir sahənin inkişafını proqramçı əməyindən kənarda təsəvvür etmək mümkün deyil. Məhz proqramçıların dərin zəkası və informasiya texnologiyalarının uğurlu tətbiqi sayəsində Azərbaycan rabitəsi, kosmik tədqiqatlar, elektron təhsil modeli, süni intellektdən istifadə imkanlarının genişləndirilməsi, hətta paytaxtımızda Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin fəaliyyəti də zamanın çağırışlarına cavab verir.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Yeni filmlər sorağında

# Ekran gerçək qəhrəmanlığın bədii əksini gözləyir



**I Qarabağ müharibəsi haqqında müxtəlif filmlər çəkilib. "Fəryad", "Ağ atlı oğlan", "Sarı gəlin", "Arxada qalmış gələcək" və digər ekran işlərində müharibəyə fərqli baxışlar sərgilənib. Zəfərlə nəticələnən II Qarabağ savaşı isə uğurlu bədii həllini gözləyən mövzudur. Söhbətimiz də elə bu barədədir.**

Şübhə yoxdur ki, şəhidlərimizin qanı və canı bahasına qazanılmış qələbə haqqında çəkilən filmlər onların uca adına layiq olmalıdır. Amma bəri başdan deyək ki, hələlik, bu baxımdan öyünməli, beynəlxalq festivallara çıxarılmalı bir film yaranmayıb.

Zaur Zeynalın rejissor, Leyla Qədirzadənin ssenari müəllifi olduğu "Göz bəbəyim" filmi 44 günlük müharibədən sonra çəkilmiş ilk tammetrajlı bədii filmdir. Mövzuca aktual olsa da, bədii cəhətdən bir qədər uğursuz alınıb. Ekran əsəri sevgi və nifrət, ümid və itki, ölüm və əbədiyyət haqqındadır. Filmdə Cəbrayıl Dövlətzadə, Xudayar Yusifzadə kimi qəhrəman şəhidlərimizin obrazları canlandırılıb. Buna görə də ideyanın bədii həllinə daha ciddi yanaşmaq, bəlkə də mövcud örnəklərdən yaradıcı şəkildə bəhrələnmək lazım idi.

Sözsüz ki, filmin çəkildiyi məkan da mühüm əhəmiyyət daşıyır. Haqqında danışdığımız ekran əsəri C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının bazasında çəkilməyib, AzTV-nin dəstəyi ilə meydana çıxıb. Təbii ki, filmin məziyyətlərindən söz açarkən bu cəhəti də gözdən qaçırmırıq. Amma, hər bir halda peşəkarlıq amilləri əsas götürülməlidir.

Filmin süjet xətti Fərid (Sənan Əlləz) və Nigarın (Fəridə Şahbazova) sevgisi üzərində qurulub. Gənc ailədir. Fəridin ad günündə Nigar ona övlad gözlədiyini xəbər verir. Burada zəruri olan hiss-həyəcan ifadəsi əvəzinə, filmin əvvəlindən olduğu kimi, uzun-uzadı musiqi müşayiətinə yer verilir. Sanki bununla boşluqları doldurmaq istəyirlər.

Filmin düyün nöqtəsi Nigarın çətin hamiləlik keçirməsi ilə başlayır. O xəstəxanaya yerləşdirilir. Təbii ki, Nigar həyat yoldaşının onun yanında olmasını istəyir və ona bu barədə eyham vurur. Fərid Nigarı və övladını göz bəbəyi kimi qorumalıdır. Filmdəki sevgi xətti, ilk növbədə, burada fokuslanır. Lakin müharibənin başlanması Fəridi ictimai sevgi xəttinə istiqamətləndirir. Bu da torpaqların müdafiəsi, azad olunması yolunda əsgəri təşnəlikdir. Nigar Fəridin vətənpərvər olduğunu bildiyindən savaşın başlanmasına görə çox narahat olur. Onların övladlarının noyabrın 8-də zəfər günündə anadan olması gözlənilir. Fərid atasının Qarabağ həsrəti ilə öldüyünü deyir. Deməк ki, Fəridin içindən gələn vətənpərvərlik hissi həm də ailəsindən qaynaqlanır. O, ümid edir ki, torpaqların azad olunmasını həm özü, həm də övladı görəcək. Bu, əslində, filmə ciddi xətt gətirir.

Ekran əsərinin vətənpərvərlik xətti sənət adamlarının konteksində inkişaf edir. Müxtəlif arzuları olan əsgərlərin hədəfi eynidir – Vətən üçün birlikdə vuruşurlar. Fərid o anda Nigarı sakitləşdirməyə çalışır. Əsgərlər tar çalan zaman ona zəng vurur. Telefonu səsgücləndiriciyə qoyur. "Burada konsertdir", – deyərək ona təsəlli verir. Lakin dialoqlar da filmin əsas xəttinə uyuşmur. Buna səbəb aktyor oyununun lazimi səviyyədə olmamasıdır. Sanki həvəskarları filmə çəkiblər.

"Göz bəbəyim"in zəif cəhətlərindən biri də onun televiziya verilişi təsiri bağışlamasıdır. Bu da filmin televiziya bazasında çəkilməsindən irəli gəlir. Gerçək qəhrəmanların bədii obrazları zəif yaradılıb. Bu, özünü şəhidlik səhnələrində də açıq göstərir. Əsgərlərin həlak olması mexaniki təsir bağışlayır, səhnələr inandırıcı, təsirli deyil.

Onu da qeyd edək ki, "Göz bəbəyim" ifadəsi filmin açar sözünü təşkil edir. Nigar üçün bu kəlmə Fəridin həyatda olmasının ifadəsidir, çünki onunla danışanda tez-tez məhz bu xitabdan istifadə edib. Süjet xəttinə əsasən, Fərid şəhid olduqdan sonra Nigar onun zəngini gözləyir. Döyüşdə insanları parodiya edən Qurban Fəridin səsi ilə ona zəng edir ki, sağ olduğunu bildirsin. Lakin "Göz bəbəyim" ifadəsi səslənmədiyinə görə Nigar danışanın Fərid olduğuna inanmır, onun həlak olduğunu duyur və bundan sonra yeganə təsəlləsini övladında görür.

Əlbəttə, daha peşəkar yanaşma olsaydı, təsirli film alınardı. Hər halda ümid edirik ki, hələ Vətən müharibəsi mövzusuna çox müraciətlər olacaq və növbəti savaş filmlərimiz daha uğurlu alınacaq.

***Ceyhun MİRZƏLİ***

*Kitab rəfi*

# Seyid Şuşinskinin sənədli obrazı

**Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondu yazıçı-publisist, Əməkdar mədəniyyət işçisi Mustafa Çəmənlinin Xalq artisti, Əməkdar müəllim Seyid Şuşinskiyə həsr olunmuş "Şərq musiqisinin incisi" xatirələr kitabını çap edib.**




Kitaba görkəmli sənətkarın həmkarları və tələbələri ilə müsahibələr, eləcə də Ağalar bəy Əliverdibəyov, Cəlil bəy Bağdadbəyov, Mustafa Mərdanov, Əziz Şərif, Firudin Şuşinski və başqalarının ustad xanəndə haqqında xatirələri daxil edilib. Canlı xatirə–söhbətlərdə Seyid Şuşinskinin bir xanəndə, pedaqoq və parlaq şəxsiyyət kimi obrazı göz önündə canlanır.

Kitada müəllifin vaxtilə Seyid Şuşinskinin müşayiətçi tarzəni olmuş Kamil Əhmədova söylədiyi rəvayət əsasında yazdığı "Çahargah" hekayəsi və "Muğamlarımızda "bayat" gizlinləri" adlı hekayə–essesi də daxil edilib. İstər xatirələr, istərsə də hekayələr ustad xanəndəyə bəslənən məhəbbətin, ehtiramın təcəssümü kimi maraq doğurur.

Topluda Seyid Şuşinskinin Üzeyir bəy kimi dahi bəstəkarla ünsiyyətdə olduğu və onun rəhbərliyi ilə sənət dostları Mirzə Mansurla, Əhmədxan Bakıxanovla Azərbaycan muğamlarını sistemə saldığı da qeyd edilir. "Azdrama"da, Azərbaycan Dövlət Konservatoriyasında, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında, Azərbaycan Radio Komitəsində çalışmış, 22 il A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində muğamdan dərs demiş Seyid Şuşinskinin yetirməsi olan xanəndələrin şöhrəti Azərbaycanın hüdudlarını çoxdan aşıb. Kitabı oxuduqca belə bir əminlik hasil olur ki, ustadın gələcək mənəvi həyatı tələbələrinin, onlardan sonra gələn və gələcək hər bir xanəndənin muğam dünyasında yaşayacaq.

# "Türkmənçay"ın bədii salnaməsi

**Yazıçı Mehriban Vəzirin "Vay... Vay... Türkmənçay..." tarixi romanı çapdan çıxıb.**




Əsər 1828-ci ildə Qacar səltənəti ilə rus imperiyası arasında bağlanmış "Türkmənçay Müqaviləsi"nin tarixi, milli, mənəvi, demoqrafik fəsadlarından bəhs edir.

Əsərin qəhrəmanı Qoca kişidir. Gəncədən olan bu arabaçı əsər boyunca Vətənimizin parçalanmasının baiskarlarından biri – Tehrandakı mənhus rus səfiri, şair və dramaturq Aleksandr Qriboyedovun Vətənimiz kimi parça-tikə olmuş meyitini kəl arabası ilə Tehrandan Tiflisə sürür. Əsərin 2-ci, paralel süjet xəttində elə həmin Qriboyedov atlı dəstəsi ilə üzü Tehrana çapır...

Romanda oxuyuruq: "Qacarlar və Romanovlar arasında "Türkmənçay müqaviləsi" imzalanmışdı. Ruslar "Arazı ayırmış, qan ilə doyurmuş"du. Məkanın adı həm tarixdə, həm ürəklərdə Azərbaycanın qara yasına, vayına dönmüşdü. Bu "Müqavilə" təkcə Azərbaycanın parçalanması ilə yadda qalmadı, həm də İrəvan da daxil, Qərbi Azərbaycana, eləcə də Quzey Azərbaycanın Naxçıvan və Qarabağ torpaqlarına İranda yaşayan ermənilərin köçürülməsi ilə qanlı iz buraxdı. Bu "qanlı iz" illər sona Zəngəzurda, İrəvanda, Dağlıq Qarabağda tökülən qanlara yol açmış oldu"...

Əsərdən gəlinən bir nəticə də budur ki, bir zamanlar "Ağıldan bəla" adlı əsər yazaraq məşhurlaşan Qriboyedov indi özü "ağlının bəlasına" tuş gəldi.

***Əli NƏCƏFXANLI***
***XQ***

## “Azəristiliktəchizat” ASC-nin konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat

(manatla)

| Aktivlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il (yenidən təqdim edilmiş) |
|---|---|---|
| Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlər | 130,975,429 | 129,060,075 |
| **Cəmi uzunmüddətli aktivlər** | **130,975,429** | **129,060,075** |
| **Qısamüddətli aktivlər** | | |
| Mal-material ehtiyatları | 3,503,694 | 3,994,325 |
| Ticarət və digər debitor borcları | 10,593,951 | 8,843,816 |
| Digər aktivlər | 1,239,922 | 428,026 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 5,549,709 | 6,488,964 |
| **Cəmi qısamüddətli aktivlər** | **20,887,276** | **19,755,131** |
| **Cəmi aktivlər** | **151,862,705** | **148,815,206** |
| **Öhdəliklər və kapital** | | |
| **Öhdəliklər** | | |
| **Uzunmüddətli öhdəliklər** | | |
| Borc öhdəlikləri | 24,480,913 | 28,966,122 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **24,480,913** | **28,966,122** |
| **Qısamüddətli öhdəliklər** | | |
| Borc öhdəlikləri | 18,933,648 | 14,183,206 |
| Ticarət və digər kreditor borcları | 24,569,776 | 13,739,605 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **43,503,424** | **27,922,811** |
| **Cəmi öhdəliklər** | **67,984,337** | **56,888,933** |
| **Kapital** | | |
| Nizamnamə kapitalı | 136,684,980 | 136,684,980 |
| Dövlət tərəfindən kapital qoyuluşu | 55,609,208 | 55,367,508 |
| Yığılmış zərər | (108,415,820) | (100,126,215) |
| **Cəmi kapital** | **83,878,368** | **91,926,273** |
| **Cəmi öhdəliklər və kapital** | **151,862,705** | **148,815,206** |

**2023-cü il sentyabrın 11-də İdarə Heyəti tərəfindən imzalanıb və təsdiq edilmişdir.**

**MÜSTƏQİL AUDİTORUN HESABATI**
**“Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və İdarə Heyətinə**

**Şərti Rəy**

Biz, “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyəti və onun törəmə müəssisələrinin (qrup) 2022-ci il dekabrın 31-nə konsolidasiya edilmiş maliyyə vəziyyəti və həmin tarixlərdə başa çatan il üzrə konsolidasiya edilmiş məcmu gəlir, konsolidasiya edilmiş kapitalda dəyişikliklər və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə uçot siyasətinin təsviri və digər izahedici qeydlərdən ibarət konsolidasiya edilmiş maliyyə hesabatlarının (bundan sonra “maliyyə hesabatları”) auditini aparmışıq.

Bizcə, əlavə edilən maliyyə hesabatları və şərti rəy üçün əsaslar bölməsində qeyd olunan məsələnin mümkün təsirləri istisna olmaqla, qrupun 2022-ci il dekabrın 31-nə konsolidasiya edilmiş maliyyə vəziyyətini, habelə həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından düzgün əks etdirir.

**Şərti rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq maliyyə hesabatlarının “konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar üzrə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının mühasiblər üçün dərc etdiyi “Etika məcəlləsi”nin (IESBA məcəlləsi) tələblərinə uyğun şəkildə qrupdan asılı deyilik, digər etik öhdəliklərimizi və IESBA məcəlləsinin tələblərini yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Biz, 2022-ci il dekabrın 31-nə sonrakı dövrdə qrupun auditoru təyin edilməyimiz səbəbindən 2022-ci il dekabrın 31-nə və 2021-ci il dekabrın 31-nə mal-material ehtiyatlarının fiziki sayılması prosesini müşahidə etməmişik. Bu səbəbdən maliyyə hesabatlarının tərkibində 2022-ci il dekabrın 31-nə və 2021-ci il dekabrın 31-nə müvafiq olaraq, 3,503,694 və 3,994,325 manat dəyərində göstərilmiş mal-material qalıqları üzrə maliyyə məlumatlarının tamlığı ilə bağlı rəy bildirə bilmirik. Bu məsələnin əlavə olunmuş maliyyə hesabatlarına təsiri nüfuzedici deyildir. Bizim rəyimiz yuxarıda qeyd edilən məsələ ilə bağlı şərtlənir.

**İzahedici qeyd**

Biz diqqəti əlavə edilmiş maliyyə hesabatlarının 23 saylı *Maliyyə Risklərinin İdarə Edilməsi* qeydinə yetiririk. Həmin qeydin “Likvidlik riski” bölməsində göstərildiyi kimi, qrup 2022-ci il dekabrın 31-nə və 2021-ci il dekabrın 31-nə on iki aylıq dövr üzrə müvafiq olaraq, 35,552,675 və 18,409,656 manat məbləğində mənfi məcmu likvidlik boşluğuna malik olmuşdur. Bunun səbəbi 12 aylıq dövrdə ödənilməli olan borc öhdəlikləri, ticarət və digər kreditor borclarının qrupun maliyyə aktivlərindən daha artıq olmasıdır. Lakin qrupun rəhbərliyi hesab edir ki, qrup dövlət əhəmiyyətli fəaliyyətlə məşğul olduğu üçün növbəti on iki ay ərzində həmin vəsaitlərin geri tələb edilməsi halında bu vəsaitlərin ödənilməsində qrupa dövlət tərəfindən dəstək göstəriləcəkdir. Bizim rəyimiz bu məsələ ilə bağlı şərti deyildir.

**Digər qeyd**

Qrupun 2021-ci il dekabrın 31-nə bitən il üzrə MHBS-ə uyğun hazırlanmış konsolidasiya edilmiş maliyyə hesabatları digər auditor tərəfindən audit edilmiş və həmin auditor bu maliyyə hesabatları üzrə müsbət rəy bildirmişdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik bu maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı hesabatların hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladığı zaman, rəhbərlik qrupu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət edilməsinə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-lara uyğun aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər, saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin hazırkı maliyyə hesabatlarının əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda, əhəmiyyətli hesab olunur.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;

qrupun daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;

istifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;

mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında qrupun fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;

məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Biz, həmçinin iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalara riayət etmişik.

Qrupun idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatında təsvir edirik.

**11 sentyabr 2023-cü il Bakı, Azərbaycan Respublikası**

# Yeni nəqliyyat dəhlizi: Hindistandan Avropaya...

*(əvvəli 1-ci səhifədə)*

ABŞ Prezidenti Co Bayden memorandumunun imzalanması zamanı böyük bir coğrafi ərazidə bir çox dövlətləri və xalqları bir-birilə birləşdirən bu layihənin tarixi əhəmiyyət kəsb etdiyini bildirib. Onun fikrincə, bu razılaşma regionda aşağı və orta gəlirli ölkələr üçün çox faydalı olacaq, həmçinin Yaxın Şərqin qlobal ticarətdə əhəmiyyətli rol oynamasına imkan yaradacaq.




Beləliklə, layihə Hindistandan Avropaya BƏƏ, Səudiyyə Ərəbistanı, İordaniya və İsrail üzərindən dəmiryol xətləri və liman infrastrukturunun inteqrasiyasını nəzərdə tutur. Onun icrası nəticəsində malların Hindistandan Avropaya indikindən 40 faiz daha tez ucuz çatdırılması mümkün olacaq.

Bundan başqa, dəhliz boyunca enerji infrastrukturunun inkişaf etdirilməsi, yaşıl hidrogen istehsalının və bütün tərəfdaşlara nəqlinin təmin edilməsi, regionu birləşdirəcək yeni sualtı kabellə telekommunikasiyanı möhkəmləndirmək nəzərdə tutulur.

Layihənin icrası region dövlətlərinin təkcə iqtisadi deyil, ictimai-siyasi həyatına da böyük təsiri olacaq. Qeyd edək ki, ABŞ Yaxın Şərq ölkələri, xüsusilə, Səudiyyə Ərəbistanı ilə İsrailin münasibətlərini hər vəchlə yaxşılaşdırmağa çalışır. Hesab olunur ki, regionda iqtisadi əlaqələrin genişlənməsi diplomatik əməkdaşlıq üçün də imkanları artıracaq.

Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman isə bildirib ki, Yaxın Şərq ölkələri arasında geniş dəmir yolu şəbəkəsinin tikintisini və liman infrastrukturunun inkişafını nəzərdə tutan layihənin icrası regiona sülh, sabitlik və tərəqqi gətirəcək. Onun sözlərinə görə, layihənin həyata keçirilməsi üçün, azı, 20 milyard dollar vəsait tələb olunacaq. Əslində, bu ilkin hesablamadır. Layihəyə daha böyük sərmayələrin cəlb olunacağı gözlənilir.

Mütəxəssislər onu da qeyd edirlər ki, layihə regionda dəmir yolları və dəniz limanlarını əhatə edən nəqliyyat infrastrukturunun inkişafına, həqiqətən, böyük töhfə verəcək və bu, yükdaşıma marşrutlarının imkanlarını artırmaqla tərəflər arasında ticarət dövriyyəsini artıracaq.

Bundan əlavə, layihə iştirakçıları hidrogenin nəqli üçün boru kəmərləri şəbəkəsinin qurulmasını, həmçinin məlumatların və elektrik enerjisinin ötürülməsi üçün kabel sisteminin yaradılmasını da planlaşdırır. Bir sözlə, layihə modern texnologiyaların tətbiqi üçün geniş bir platformaya çevriləcək.

Siyasi təhlilçilər hesab edirlər ki, saziş Çinin məşhur “Bir kəmər, bir yol” layihəsinin aktuallığına kölgə sala bilər. Məlumdur ki, son illər rəsmi Pekin Qədim İpək Yolunun bərpasını nəzərdə tutan “Bir kəmər, bir yol” layihəsinin icrası üçün davamlı işlər görməkdədir. Hindistandan Avropaya qapı açan yeni layihə Çinin qlobal səylərinə ciddi rəqib kimi görünür.

Çin hökuməti bu məsələ ilə bağlı rəsmi açıqlama verməyib. Bu ölkənin lideri Ci Sinpin isə Dehlidə keçirilən sammitdə iştirak etməyib. Onu tədbirdə hökumətin rəhbəri əvəz edib. Jurnalistlər yazırlar ki, Ci Sinpinin Dehlidə yoxluğu Co Baydenin əl-qolunu tamam açıb.

Xatırladaq ki, Çinlə Hindistan arasında çoxdandır mübahisəli ərazilər problemi mövcuddur və iki ölkə arasında münasibətlər bu səbəbdən kifayət qədər soyuqdur.

Bir məqamı da vurğulamaq lazımdır. Hindistandan başlayaraq, Yaxın Şərqdən keçməklə Avropa qitəsinə çıxış üçün nəzərdə tutulan sözügedən layihə faktiki olaraq qardaş Türkiyə, Orta Asiya və Cənubi Qafqaz dövlətlərini birləşdirəcək “Orta dəhliz” layihəsinin əhəmiyyətini azalda bilər.

Kollektiv Qərb, yəqin ki, bundan sonra səylərini birinci layihənin üzərində cəmləyəcək. Lakin bu, heç də o demək deyildir ki, “Orta dəhliz” layihəsi öz əhəmiyyətini tamamilə itirəcək. Əksinə, bu iki dəhliz arasında ciddi rəqabət mühiti yaradacaq.

Sonda bildirək ki, qədim dövrlərdə Hindistandan Avropaya, əsasən, ədviyyat daşınıb. Artıq vəziyyət tamam dəyişib. Bu dəfə ən çeşidli əmtəələr ilə bərabər, yeni texnologiyalar və ekoloji təmiz enerji daşınacaq. Zamanı saxlamaq olmur, onun nəbzini tutmaq isə çox vacibdir...

***Ceyran CƏFƏRLİ,***
***Məsaim ABDULLAYEV***
***XQ***

### Ekspert rəyi

**Mübariz MƏMMƏDLİ,**
**fəlsəfə doktoru, siyasi şərhçi**



– G-20-lərin Hindistanda keçirilmiş görüşündə Hindistan–Yaxın Şərq və Avropanı birləşdirən layihə (İMEC), əslində, Çinin təşəbbüsü olan “Bir kəmər, bir yol” layihəsinə qarşıdır.

Bir neçə ay bundan öncə alternativ iqtisadi koridorun yaranması ideyası ilə çıxış edən Hindistan, Səudiyyə Ərəbistanı və Amerika Birləşmiş Ştatları vahid nəqliyyat koridorunun əsas predmeti olan dəmiryolları və limanların yeni sistemini yaratmaq barədə razılığa gəlmişlər.

Qeyd edək ki, Səudiyyə Ərəbistanının vəliəhdi, şahzadə Məhəmməd bin Salman Hindistanı Yaxın Şərq və Avropa ölkələri ilə birləşdirəcək dəhliz barədə memorandumun imzalanacağı xəbərini bir müddət öncə anons etmişdi.

Çin layihəsinə alternativ olan bu təşəbbüsün kim tərəfindən irəli sürüldüyünü demək nə qədər çətin olsa da, hesab edirəm ki, ideya Səudiyyə Ərəbistanı ilə Amerika Birləşmiş Ştatlarının beyin mərkəzlərində meydana gəlibdir.

Əslində, bu iki ölkə arasında olan razılaşma G-20-nin Yeni Dehlidəki sammitinə qədər baş vermişdi. Təşəbbüsə qoşulanlar sırasında BƏƏ, Avropa İttifaqı, Fransa, İtaliya, Almaniyanın da adları çəkilir. Layihə iki nəqliyyat dəhlizini birləşdirir: Şərqi dəhliz Hindistanla Fars körfəzini, Şimali dəhliz isə Fars körfəzi ilə Avropanı.

Çox güman ki, bu layihənin Cənubi Qafqazdan yan keçməsi nəzərdə tutulmuşdur. Hindistanın son hadisələrdə Ermənistana siyasi və hərbi dəstəyini nəzərə alsaq, bunun Azərbaycan üçün o qədər də qəfil bir qərar olmadığını deyə bilərik.

Bütün bunlarla bərabər demək lazımdır ki, olduqca mürəkkəb və genişmiqyaslı layihənin həyata keçməsi üçün son dərəcə böyük maliyyə vəsaitləri tələb olunacaq. Bu zaman ərzində isə Azərbaycandan keçən Orta Dəhlizin böyük sürət yığaraq yarana biləcək bu marşruta qarşı (İMEC) güclü rəqib olacağını desək, səhv etmərik.

Orta Dəhliz əlverişli coğrafi mövqeyi baxımından bir tərəfdən Avropa və Asiyanı birləşdirir, digər tərəfdən Mərkəzi və Ön Asiyanın karbohidrogen ehtiyatları ilə zəngin regionlarını Avropaya yönəldir. Nəticə etibarilə, bu nəqliyyat platformasından regionun bütün dövlətləri faydalanır. Bu da, öz növbəsində, Azərbaycanın da iştirak etdiyi Orta Dəhlizin enerji tranziti, ticari və iqtisadi əməkdaşlığın əsas marşrutu olmasına dəlalət edir.

Orta Dəhliz layihəsinin reallaşmasına Azərbaycan xüsusi əhəmiyyət verir və bu kontekstdə Xəzər və Aralıq dənizi hövzələrini cənub-şərqi və Mərkəzi Asiya, o cümlədən Avropa ilə birləşdirən hərtərəfli əlaqələrin yaradılması üçün Zəngəzur dəhlizinin açılmasına da böyük ümid bəsləyir.

# Dollar rubl bazarında ucuzlaşır

**Dolların məzənnəsi 2,63 rubl və ya 2,77 faiz azalaraq 92,44 rubl olub. ABŞ valyutası sonuncu dəfə bu il avqustun 18-də 93 rubldan ucuz alınıb.**



“BCS World of Investments”in eksperti Dmitri Babin qeyd edib ki, bu, bazara təklif olunan xarici valyutanın həcminin artması ilə bağlıdır: “Rublun məzənnəsinin sabitləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilir. Bu tədbirlərin biri də ixracatçıların satdıqları xarici valyutanın həcminin artmasıdır. Buna son aylarda neftin qiymət artımı səbəb olub”.

Bundan əvvəl, bazar tənzimləyiciləri sentyabrın 14-dən 22-dək xarici valyuta satışlarını artıracağını elan etmişdi. Mərkəzi Bank bildirmişdi ki, nəzərdə tutulan dövrdə 150 milyard rubla ekvivalent valyuta satacaq. Bundan sonra gün ərzində xarici valyuta satışı 2,3 milyard rubldan 21,1 milyard rubladək artıb. Mərkəzi Bankın növbəti iclasında uçot dərəcəsini 100–150 baza bəndi artıracağı ehtimalı da var. Qiymət təzyiqinin artması, eləcə də əhalinin və biznesin inflyasiya gözləntilərinin artması səbəbindən belə bir qərar veriləcək.

Şifahi müdaxilələr də rublun məzənnəsinə müsbət təsir göstərib. Belə ki, Rusiya prezidentinin köməkçisi Maksim Oreşkin Şərq İqtisadi Forumunun kuluarlarında bildirib ki, rublun zəifləməsinin pik həddi artıq keçib və yaxın aylarda ixrac mallarının qiymətlərinin artması nəticəsində daha çox valyuta gəlirləri əldə olunacaq: “Yaxın gələcəkdə ixrac mallarının bahalaşması sayəsində bazara daha çox valyuta gəlirləri daxil olacaq. Əmtəə və xidmətlərin idxalının azalması, həmçinin əsas məzənnənin artırılması və makroprudensial siyasətin gücləndirilməsinin nəticələri nəzərə alsaq, bu, bazarda valyutanın artıqlığına gətirib çıxaracaq”. O, həmçinin bildirib ki, hökumət və Mərkəzi Bank kapitalın xaricə çıxışını məhdudlaşdırmaq üçün tədbirlər paketi üzərində işləyir və artıq müəyyən qərarlar qəbul edilib.

İndiki dövrdə Rusiya rublunun məzənnəsində baş verən hər hansı bir dəyişiklik isə dayanaqlı deyil: “Bu məzənnə dəyişikliyi, ilk növbədə, dünya bazarlarında neftin qiymətlərində müşahidə olunan qiymət artımları ilə bağlıdır”.

Rusiya rublunun məzənnəsinin real və uzun müddətə möhkəmlənməsindən söhbət o zaman gedə bilər ki, neftin qiymətlərinin 100–110 dollara doğru artması baş versin.

***P.ƏFƏNDİ***
***XQ***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində “Səhiyyənin Təminat Mərkəzi” publik hüquqi şəxsi tərəfindən 2023-cü il iyunun 24-ü və iyulun 12-də “Xalq qəzeti”ndə dərc edilmiş Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəssisələri üçün dərman vasitələrinin satın alınması dair açıq tenderin nəticəsi üzrə qalib gəlmiş “ZEYTUN PHARMACEUTİCALS” MMC ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində “Səhiyyənin Təminat Mərkəzi” PHŞ arasında 2023-cü il sentyabrın 7-də 1№-li malların (işlərin və xidmətlərin) satın alınması müqaviləsi bağlanılmışdır.

## “Sənayeventilyasiya” ASC səhmdarlarının nəzərinə!

31 oktyabr 2023-cü il saat 11.00-da Bakı şəhəri, Ə.Nəvai küçəsi 13 nömrəli ünvanda səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Müəssisənin 2022-ci il üçün maliyyə vəziyyətinin müzakirəsi.
2. Səhmdar N.Dadaşovun ərizəsinin müzakirəsi və qərarın qəbul olunması.

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 197 (30313) 13 sentyabr 2023-cü il, çərşənbə

veb-sayt: www.xalqqazeti.az


İdman xəbərləri

## Boksçularımızın Almaniya uğuru

**Almaniyanın Halle şəhərində keçirilmiş beynəlxalq turnirdə Diaspor Boks Liqasının boksçuları uğurla çıxış ediblər.**



Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Diaspor Boks Liqasının və Heydər Əliyev adına Dünya Boks Komitəsinin birgə təşkilatçılığı ilə Volspark zalında baş tutan yarışda 16 çəki dərəcəsində qarşılaşmalar baş tutub. Liqanın boksçuları Aleksandr Frank və Azər Soltanov peşəkar rinqdə isveçli və belaruslu rəqibləri üzərində inamlı qələbə qazanıblar. Yarışın qalibi Aleksandr Frank müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş kəmərlə təltif olunub.

## "Qarabağ" və "Sabah" irəliləyib

**Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (İFFHS) klubların yeni dünya reytinqini açıqlayıb.**

405 komandanın yer aldığı siyahıda Azərbaycanın da 3 təmsilçisi var. Ötən ay 79-cu pillədə qərarlaşan "Qarabağ" hesabındakı 144,5 xalla 64-cü yerə yüksəlib. "Sabah" daha böyük sıçrayışla diqqət çəkib. Murad Musayevin yetirmələri 51 pillə irəliləyərək, 286-cı yerdə qərarlaşıblar. Bakılılar 64,5 xala malikdirlər.

Əvəzində "Neftçi"də geriləmə müşahidə edilib. Hesabında 62,75 xal olan "ağ-qaralar" 298-ci yeri 311-ci pilləyə dəyişiblər.

Dünya reytinqinə İngiltərə Premyer Liqasının və UEFA Çempionlar Liqasının son qalibi "Mançester Siti" (312 xal) başçılıq edir.

## Azərbaycan millisi İordaniyaya qalib gəlib

**Bakıda Azərbaycan və İordaniya milli komandaları arasında beynəlxalq yoldaşlıq oyunu yığmamızın qələbəsi ilə yekunlaşıb.**



Belə ki, hesabı birinci hissədə millimiz açıb. Emin Mahmudov 45+1-ci dəqiqədə penaltidən fərqlənib. Rəqibin heyətində Nizar Əl Raşdan 57-ci dəqiqədə tarazlığı bərpa edib - 1:1. 79-cu dəqiqədə isə Renat Dadaşovun vurduğu qol ilə Azərbaycan yığması yenidən hesabda önə keçib - 2:1. Matçın qalan hissəsində qol vurulmadığından görüş yığmamızın xeyrinə 2:1 hesabla başa çatıb.

"Dalğa Arena"da təşkil olunan matçı türkiyəli FIFA referisi Arda Kardeşlerin rəhbərlik etdiyi hakimlər briqadası idarə edib.

*Leyla SABİRQIZI*
*XQ*

Texnologiya yenilikləri

## "ChatGPT" "Google"u üstələyib

***İnvestorlar xəstəxanalardan tutmuş marketinq firmalarına qədər müəssisələrin qarşılaşa biləcəyi problemləri həll etmək üçün süni intellekt alətlərinə yüz milyonlarla dollar xərcləyirlər. "ChatGPT" də bu alətlərdən biridir.***

Esse və məqalə yazarkən bu proqramdan istifadə edə bilərsiniz. Geniş məlumatları təhlil etmək üçün bu tətbiqə müraciət etmək daha düzgün olar. Uzun bir yazını qısa vaxt ərzində oxuyub təhlil etmək lazım gələrsə, ChatGPT bu işdə sizin ən yaxın dostunuz ola bilər. Biznes və strategiya sahələrində irəli getmək və bu mövzuda lazımi fikirlər öyrənmək üçün bu tətbiq işinizə yarayacaq.

Hazırkı işinizdən məmnun deyilsinizsə, yeni iş yerinə müraciət etmək üçün ChatGPT-dən dəstək ala bilərsiniz. İnsanlar özləri üçün CV hazırlayanda ondan istifadə edirlər. Əməkhaqqı danışıqlarına öncədən hazır olmaq üçün də ChatGPT-dən məsləhət ala bilərsiniz.

Sonda bildirək ki, ChatGPT proqramı hazırda "Google"dan üstün hesab olunur.

*F. SALMANOVA*
*XQ*

## "Apple" bazarda kəskin ucuzlaşıb

***ABŞ-nin texnologiya nəhəngi "Apple" kompaniyasının bazar dəyəri iki gün ərzində 190 milyard ABŞ dolları ucuzlaşıb.***



Nyu-York birjasında "Apple" şirkətinin səhmlərinin dəyəri sentyabrın 5-də və 6-da müvafiq olaraq 3,6 və 2,9 faiz ucuzlaşıb. Şirkətin səhmlərinin ucuzlaşması "Wall Street Journal" və digər media orqanlarının Çində dövlət qurumlarının işçilərinə "iPhone" smartfonlarından istifadənin qadağan edilməsi barədə xəbərlər yaymasından sonraya təsadüf edib.

Qeyd edək ki, Çin "Apple" şirkətinin əsas bazarlarından biridir. Şirkətin qlobal satışlarının, təxminən, 20 faizi Çinin payına düşür.

*XQ*

İnsan və kainat

## Planetlər necə izlənilir?

**Ulduzların yaydığı işıq elektromaqnit şüalanmasıdır. Əgər işıq mənbəyi ilə müşahidəçi arasındakı məsafə dəyişməzsə, dalğaların tezliyi sabit qalar.**



Bir ulduz planetlə ümumi kütlə mərkəzi ətrafında fırlanırsa, müşahidəçiyə yaxınlaşan anda onun spektrindəki xətlər bənövşəyiyə, uzaqlaşdıqda isə qırmızıya keçir. Dalğa uzunluğu və tezliyində dəyişiklik baş verir. Bu fenomen Dopler effekti kimi tanınır; ondan istifadə edərək ekzoplanetlərin axtarışı həyata keçirilir.

## Osirisdə şiddətli tufanlar

**"51 Pegasi b"nin kəşfindən sonra bir neçə il Dopler metodu günəşdənkənar planetlərin axtarışında yeganə üsul olaraq qaldı. Bununla belə, 2000-ci ildə astronomlar ilk dəfə ulduzun "tutulmasını" müşahidə edə bildilər: bir il əvvəl Dopler metodu ilə kəşf edilmiş Osiris (HD 209458 b) sarı cırtdan HD 209458 –nin diskindən keçdi.**



Hazırda Osiris ən çox tədqiq edilən günəşdənkənar planet hesab olunur.

Məlumdur ki, o, 1000–1300 K-ə qədər qızır, bir tərəfi ilə daim öz ulduzuna baxır. Kölgə tərəfi isə daha soyuqdur. Temperatur fərqinə görə qaz nəhəngində şiddətli tufan qopur – küləyin sürəti 7 min km/saata çatır. Osiris həm də atmosferində oksigen, karbon və su buxarının kəşf edildiyi ilk ekzoplanetdir.

## Ay niyə silkələnir?

**Ayın səthi Günəşin təsirinə görə hər gün iki dəfə - səhər və axşam silkələnir. Bu dalğalanmalar o qədər müntəzəm və dəqiqliklə baş verir ki, hətta saatları ona uyğun qurmaq olar.**



Bu barədə ABŞ-nin Kaliforniya Texnologiya İnstitutunun alimlərinin araşdırmasından sonra məlum olub. Mütəxəssislər bu təkanların səbəbini Günəş şüaları ilə qızma nəticəsində Ayın səthində temperaturun qəfil dəyişməsi ilə izah ediblər.

Tədqiqatçılar bildirirlər ki, izolyasiya edən atmosferi olmadığından Ayın səthi bir gündə +120 dərəcəyə qədər qıza və sonra -133 dərəcəyə qədər soyuya bilər. Temperaturun dəyişməsi Ay bünövrəsinin sıxılmasına və genişlənməsinə səbəb olur ki, bu da kiçik Ay zəlzələləri ilə nəticələnir.

Ekspertlərin sözlərinə görə, Ay zəlzələlərinin təbiətini başa düşmək gələcək insan missiyaları və Ayda bazaların yaradılması üçün vacibdir.

Bundan əlavə, yeraltı təkanlar nüvəni öyrənməyə imkan verir. Belə ki, seysmik dalğalar müxtəlif materiallar vasitəsilə sürətlə yayılır, bu isə alimlərə buz yataqlarının və digər resursların axtarışına kömək edə bilər.

*XQ*

Maraq dünyamız

## 1800 yaşlı "Su pərisi"

**Türkiyənin şimalında Bartın vilayətinin Amasra rayonunda yerləşən qədim Amastris şəhərində aparılan qazıntılar zamanı "Su pərisi" heykəli aşkarlanıb.**



Təxminən, 1800 il əvvəl hazırlandığı güman edilən bu qədim su pərisi heykəli yerdən, təxminən, 3 metr dərinlikdə aşkar edilib. 1,53 metrlik heykəlin erамızın ikinci əsrinə aid edildiyi bildirilir.

Bu füsunkar heykəl Amasra Muzeyində nümayiş etdirilir. Dünyanın bir çox yerlərində – Afinadakı Milli Arxeologiya Muzeyi, Nyu-Yorkdakı Metropoliten İncəsənət Muzeyi və bir çox digər nüfuzlu mədəniyyət müəssisələrdə "Su pərisi", heykəllərinə rast gəlmək olar.

Bu artefaktlar təkcə keçmişə açılan pəncərə deyil, həm də insan təxəyyülündə onların mistik cazibəsini bir daha sübut edir.

*F. SALMANOVA*
*XQ*

Sağlamlıq

## Bədəni təmizləyən 3 qida

**Dietoloq Mariya Kapralova bildirib ki, nikotin neyrotoksiki zəhərdir, neyron və sinir hüceyrələrinin ölümünə səbəb olur. Ondan asılılıq narkotik kimidir.**



Ürəkbulanma, qusma, qarında ağrı, tərləmə, qıcolmalar, baş ağrıları, huşun dumanlanması, əsəbilik, iştahın artması nikotinlə zəhərlənmənin əlamətləridir.

Həkim alkoqol, dərman, nikotinlə ən yaxşı mübarizə vasitələrini açıqlayıb. Deyib ki, nar, limon, zəncəfil və brokkoli qanın keyfiyyətini yaxşılaşdırır və ümumilikdə, qan dövranını tənzimləyir. Alkoqol, siqaret qəbul edənlər, qaraciyəri dərmanla yüklənənlər orqanizmə dəstək üçün bu qidaları qəbul etməlidir.

Nar qanda eritrositlərin miqdarını artırır.

Limon B, C vitamini ilə zəngindir.

Zəncəfil siqaretə istəyi azaldır.

Bütün kələm növləri bədəni təmizləyir, brokkoli isə maddələr mübadiləsini tənzimləyir.

*Z.HÜSEYNLİ*
*XQ*

Proqnoz



## Leysan yağacaq, şimşək çaxacaq...

***Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, sentyabrın 13-də Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Gündüz yağıntıda qısa müddətə fasilə olacaq. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 16-19° isti, gündüz 19-23° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunu olacaq. Nisbi rütubət 75-85 faiz olacaq.***

Azərbaycanın rayonlarında arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 13-16° isti, gündüz 16-21° isti, dağlarda gecə 1-6° isti, gündüz 6-11° isti olacaq.

*XQ*

Hadisə

## Göydən yağan bəla

**Bu il sentyabrın 10-da Liviyanın şimal-şərqini vuran "Daniel" siklonu sahilyanı şəhərlərə güclü küləklər, leysan və tufanlar gətirib.**



Ölkə mətbuatı yazır ki, təbii fəlakət nəticəsində itkinlərin sayı 10 minə çatıb. Hazırda onların axtarışı davam etdirilir.

Daha əvvəl isə bu rəqəm 7 min idi. Qasırğa nəticəsində, azı, 3 min insan həlak olub. Liviyada milli matəm elan edilib.

*XQ*


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4919
SİFARİŞ 2335
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00